# Xalq qəzeti

Xalqın qəzeti!

№ 69 (31038) 23 aprel 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycan–Latviya iqtisadi əməkdaşlığı yeni mərhələdə

Səhifə ⇨ 10

# Azərbaycan – Latviya strateji tərəfdaşlığı münasibətləri ən yüksək səviyyəyə qaldırıb

*Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfəri*

## Rəsmi qarşılanma mərasimi





**Aprelin 22-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Latviya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Latviya Prezidenti Edqars Rinkeviçsi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Latviya Prezidentinə raport verdi.

Latviya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Edqars Rinkeviçsə, Latviya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Edqars Rinkeviçsin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Prezident İlham Əliyev Latviya Prezidentinin ölkəmizə səfəri ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Latviya Prezidenti Edqars Rinkeviçsin ölkəmizə səfəri ilə bağlı paylaşım edib.**

Paylaşımı təqdim edirik: “Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Doqquz il əvvəl imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə Azərbaycan – Latviya münasibətlərini yüksək səviyyəyə qaldırdı. Əminəm ki, Prezident kimi ölkəmizə ilk rəsmi səfəriniz dostluq əlaqələrimizi daha da möhkəmləndirəcək və qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacaq”.

## Cənubi Qafqazın və Baltikyanı ölkələrin ümumi dəyərləri və ortaq maraqları




Səhifə ⇨ 6

## Yaxın Şərqdə savaş təhlükəsi sovuşmayıb



Səhifə ⇨ 15

## Avropa İttifaqının ölkəmizə marağı strateji yön alır

Səhifə ⇨ 10

## “Avropa qübbəsi” seçkiyə müdaxiləni dəf edəcəkmi?



Səhifə ⇨ 8

## Ermənistan–NATO: xəyal və gerçəklik



Səhifə ⇨ 5

## Avropa Parlamentində nəzarət və saxtakarlıq qarşıdurması




Səhifə ⇨ 6

## Yerli istehsal xeyli artıb, daxili tələbat isə ödənilmir



Səhifə ⇨ 12

# Azərbaycan Prezidenti İlham Əliyevin Latviya Prezidenti ilə təkbətək görüşü



**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə təkbətək görüşü olub.**

# Azərbaycan–Latviya sənəd mübadiləsi



**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin iştirakı ilə Azərbaycanla Latviya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.**

Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul etdilər.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın daxili işlər naziri Vilayət Eyvazov və Latviyanın daxili işlər üzrə dövlət naziri Dimitrijs Trofimovs mübadilə etdilər.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Niyyət Bəyannaməsi"ni Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze mübadilə etdilər.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Latviya Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Latviyanın xarici işlər naziri Baiba Braze mübadilə etdilər.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Dövlət Bitki Mühafizəsi Xidməti arasında bitki sağlamlığı və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Latviya Respublikasının Dövlət Sərhəd Mühafizəsi arasında 2026-2027-ci illər üzrə İkitərəfli Əməkdaşlıq Planı"nı Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev və Latviyanın Dövlət Sərhəd Mühafizəsinin rəisi Guntis Pujats mübadilə etdilər.

# Latviya Prezidentinin şərəfinə rəsmi lanç



**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin şərəfinə rəsmi lanç verilib.**

# Prezidentlərin geniş tərkibdə görüşü



**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə geniş tərkibdə görüşü keçirilib.**

Qonaqları salamlayan **Azərbaycan Prezidenti İlham Əliyev** dedi:

– Cənab Prezident.

Nümayəndə heyətinin üzvləri.

Əziz qonaqlar.

Bir daha xoş gəlmisiniz. Cənab Prezidentlə müxtəlif məsələlər ətrafında əla müzakirəmiz oldu və işimizi nümayəndə heyətləri ilə birgə davam etdiririk. Bilirəm ki, səfərdən əvvəl çox işlər görülmüşdür, o cümlədən Hökumətlərarası Komissiyanın iclası çox uğurla keçirilmişdir. Həmçinin əminəm ki, bu gün keçiriləcək biznes-forum birgə işin aparılmasına olan qarşılıqlı maraq əsasında yaxşı nəticələr verəcək.

Təbii ki, aramızda çox yaxşı siyasi əlaqələr mövcuddur. Bu gün onlar bir daha təsdiqləndi. Ticarəti və qarşılıqlı sərmayələri artırmaq, energetika, daşımalar, rəqəmsallaşma və burada Azərbaycanda fəal şəkildə təşviq etdiyimiz bütün sahələrə aid olan məsələləri həll etmək məqsədilə əməkdaşlığımıza dair praktiki məsələləri nəzərdən keçirməliyik.

Əlbəttə, biz regionumuzda siyasi hadisələri geniş şəkildə müzakirə etdik və həmin müzakirəni cənab Prezidentlə davam etdirəcəyik. Əminəm ki, nümayəndə heyətlərinin üzvləri də bu vaxtdan istifadə edərək, ikitərəfli tərəfdaşlığımızın ən mühüm məsələlərini müzakirə edəcəklər. Mən dəvətimi qəbul etdiyinə görə cənab Prezidentə olduqca minnətdaram, onu yenidən görməyimə çox şadam. O, əvvəlki vəzifəsində olarkən Bakıda dəfələrlə olub. Mən hər zaman görüşlərimizdən məmnun qalmışam. Sizə bu dəfə də Azərbaycanda xoş səfər arzu edirəm. Bir daha xoş gəlmisiniz.

*

Sonra **Latviya Prezidenti Edqars Rinkeviçs** çıxış edərək dedi:

– Çox sağ olun, cənab Prezident. Dəvətə və çox səmimi qonaqpərvərliyə görə olduqca minnətdaram.

Görüşümüz əsnasında Sizə söylədiyim kimi, Bakıya sonuncu səfərimdən, demək olar ki, 9 il ötür. O, 2017-ci ildə baş tutmuşdu. Şəhəri tanımaq olmur. Düşünürəm ki, bu vaxta qədər şahidi olduğumuz inkişaf böyük təəssürat bağışlayır. Mən Sizi və Azərbaycan xalqını həm siyasi, həm iqtisadi inkişaf, həmçinin uzun çəkən məsələnin həlli münasibətilə təbrik etmək istəyirəm.

Haqlı olaraq qeyd etdiyiniz kimi, təkbətək görüşümüzdə Yaxın Şərqdə və Avropada siyasi hadisələrə, regional təhlükəsizliyə aid bir sıra məsələləri artıq müzakirə etdik. Təsdiqləmək və bir daha vurğulamaq istədiyim məqam odur ki, Latviya Azərbaycanı strateji tərəfdaş və dost hesab edir. Siyasi və iqtisadi əməkdaşlığımızın real dəyərini görürük. Nümayəndə heyətimdən gördüyünüz kimi, hətta ikinci cərgədə də çox təmsilçilərimiz var. Nümayəndə heyətini ixtisar edə bilmirdim, çünki hamı burada olmağa, çox praktiki məsələləri müzakirə etməyə maraq göstərir. Mən, həmçinin Hökumətlərarası Komissiyanın işini alqışlamaq istəyirəm.

# Azərbaycan və Latviya liderlərinin mətbuata bəyanatları



**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Prezident.

Əziz qonaqlar.

Xanımlar və cənablar.

Cənab Prezident, Azərbaycana bir daha xoş gəlmisiniz. Çox şadam ki, dəvətimi qəbul etmisiniz və ölkəmizə rəsmi səfərə gəlmisiniz. Siz əvvəlki vəzifənizdə olarkən dəfələrlə Azərbaycanda olmusunuz. Lakin Prezident kimi ilk dəfədir səfər edirsiniz. Mənim əvvəlki görüşlərdən, o cümlədən ötən ilin yanvarında Davosda keçirilmiş görüşdən çox əziz xatirələrim var. Bizimlə olduğunuza görə bir daha minnətdaram. Əminəm ki, səfər ölkələrimiz arasında ikitərəfli münasibətləri gücləndirəcək, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaradacaq.

Cənab Prezidentlə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, o cümlədən beynəlxalq əhəmiyyət kəsb edən məsələləri həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş şəkildə müzakirə etdik. Şadıq ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var. Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq.

Cəmi bir həftə əvvəl Birgə Hökumətlərarası Komissiya Azərbaycanda - Qarabağda, Şuşada görüş keçirib və biz həmsədrlərin verdiyi məlumatları dinlədik, çox perspektivli planlar, bir yerdə görüləcək çoxlu işlər qeyd edildi. Bu gün keçiriləcək biznes-forum işgüzar əlaqələrin qurulmasında, qarşılıqlı sərmayələr üçün imkanların tapılmasında, birgə istehsalın və bir sıra digər işlərin qurulmasında çox böyük potensialın növbəti təzahürüdür. Mən iştirakçıların siyahısına baxdım. Hər iki tərəfdən kifayət qədər böyük təmsilçilik var. Ümidvarıq ki, bu cür qarşılıqlı fəaliyyət praktiki müqavilələrlə nəticələnəcək.

Biz, həmçinin razılığa gəldik ki, planlar, proqramlar və sərmayə imkanları barədə bir-birimizə daim məlumat verəcəyik ki, hər iki ölkə şirkətlərinin informasiyaya çıxışı olsun və onlar öz fəaliyyətini planlaşdıra bilsinlər. Düşünürəm ki, hər iki ölkəyə yatırılacaq sərmayələr çox gözəçarpan nəticələr verə biləcək.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan və Latviya liderlərinin mətbuata bəyanatları

(əvvəli 2-ci səhifədə)

Azərbaycanın istər dövlət, istərsə də özəl sərmayədarları bu cür fəaliyyətə hazırdır və ümid edirəm ki, biznes-forum bu vaxta qədər, əfsuslar ki, bir az mülayim görünən qarşılıqlı ticarətimizin dövriyyəsinin artırılmasında həqiqətən mühüm mərhələyə çevriləcək.

Nəzərdən keçirmək razılığına gəldiyimiz digər sahə birbaşa uçuşlardır. Bu, xüsusən də müəyyən pozulmalar, həmçinin bəzi hava şirkətləri üçün aviayanacağın müəyyən dərəcədə çatışmaması ilə səciyyələnən indiki dövrə təsadüf edir və xoşbəxtlikdən Azərbaycanın hava şirkəti bundan əziyyət çəkmir. Bu, digər bir fürsət ola bilər.

Təbii ki, insanlar arasında təmaslar və təhsil sahəsi də var. Şadıq ki, Latviyada 450-dən artıq azərbaycanlı tələbə təhsil alır və əminəm ki, onların hamısı gözəl ölkənizdə olmaqdan məmnundur. Çoxsaylı səfərlərim yadıma düşür və Sizi ölkənizin inkişafında əldə olunmuş bütün nailiyyətlər münasibətilə təbrik etmək istəyirəm.

Biz, həmçinin Cənubi Qafqaz və Baltik regionunda təhlükəsizlik məsələlərini, regional inkişafı və ətrafımızda baş verən hadisələri müzakirə etdik. Mən cənab Prezidentə Azərbaycanla Ermənistan arasında çox perspektivli sülh prosesinə aid ən son məlumatları çatdırdım. Əslində, ötən ilin avqust ayından etibarən hər iki ölkə Prezident Tramp tərəfindən Ağ Evə dəvət olunandan və Birgə Bəyanat imzalanandan sonra və xarici işlər nazirlərinin sülh sazişinin mətnini parafladıqdan sonra bizdə de-fakto sülh var. Həmin vaxtdan etibarən sülh prosesində xeyli müsbət dinamika yaşandı, o cümlədən ticarət başlandı, xüsusən də Azərbaycandan Ermənistana yanacaq məhsulları təchiz olundu, vətəndaş cəmiyyəti və media nümayəndələri arasında görüşlər keçirildi və bütün bunlar uzun illər müharibə şəraitində olan ölkələr arasında, həmçinin normal mühitin yaradılmasına töhfə verir. Bir sözlə, bu nümunə göstərir ki, məhz siyasi iradə və siyasi müdriklik, o cümlədən gələcəyə strateji baxışlar hadisələri təyin edir: Siz ya sonsuz müharibəni və ya müharibələri davam etdirirsiniz, yaxud beynəlxalq hüquq əsasında istədiyinizə nail olduqda birdəfəlik dayanırsınız və sülhə hazır olduğunuzu nümayiş etdirirsiniz. Düşünürəm ki, həmin nümunə hələ də müharibədə olan ölkələr üçün vacib ola bilər.

Bir daha söyləmək istərdim ki, ölkələrimiz arasında münasibətlər çox möhkəm çərçivəyə əsaslanır. Eyni zamanda, düşünürəm ki, onun mühüm hissəsini cənab Prezidentlə olan şəxsi münasibətlərimiz təşkil edir. Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq və fikrimcə, bəlkə də 20 ilə yaxındır. Şəxsən mən çox şadam ki, əziz dostumuzu və onun nümayəndə heyətini Bakıda qəbul edirəm. Bir daha xoş gəlmisiniz və Sizə xoş səfər arzu edirəm.

*

Sonra Latviya Prezidenti Edqars Rinkeviçs bəyanatla çıxış etdi.





## Prezident Edqars Rinkeviçsin bəyanatı

– Çox sağ olun, cənab Prezident.

Əvvəla, mən Latviya nümayəndə heyəti adından və öz adımdan Sizin çox böyük qonaqpərvərliyinizə və səmimi qəbula görə minnətdarlığımı ifadə etmək istəyirəm.

Hesab edirəm ki, bu gün apardığımız müzakirələr çox müsbət, praqmatik olmuşdur və gələcək əməkdaşlığa yönəlmişdir.

Mənim Bakıya rəsmi səfərim, mənim Azərbaycan Respublikasına rəsmi səfərim əslində 2017-ci ildə imzalanmış strateji tərəfdaşlığımızın prinsiplərini bir daha təsdiq edir.

Düşünürəm ki, bu gün qəbul etdiyimiz Bəyanatda strateji tərəfdaşlığımızı necə irəli aparmaq istədiyimizlə bağlı bəzi addımlar atmışıq.

İcazə verin onu da deyim ki, nümayəndə heyətimə həm də bir neçə hökumət rəsmisi, – xarici işlər naziri, kənd təsərrüfatı naziri, Daxili İşlər Nazirliyinin dövlət katibi, Sərhəd Xidmətinin rəisi, – həm də geniş biznes təmsilçiləri daxildir. Mən iqtisadi əməkdaşlığa şərait yaratmaq üçün bu gün burada, Bakıda keçiriləcək biznes-forumunu səbirsizliklə gözləyirəm.

İqtisadi əməkdaşlığa gəldikdə, hesab edirəm və sizin də çox diplomatik şəkildə ifadə etdiyiniz qiymətləndirmənizlə tam razıyam ki, aramızdakı ticarət dövriyyəsi çox mülayimdir və artırılmalıdır. İnanıram ki, müdafiə sənayesi, nəqliyyat, əczaçılıq sahələrində çoxlu imkanlar var və biz təcrübələrimizin necə paylaşılması ilə bağlı bəzi praktiki yolları müzakirə etdik.

Bildiyiniz kimi, Latviya meşələr ölkəsidir və biz həm Qarabağın müasirləşməsi və yenidən qurulmasında daha çox meşələrin salınması ilə bağlı, cənab Prezident, Sizin qarşıya qoyduğunuz planları, həm də bu məsələləri daha geniş anlamda müzakirə etdik. Hesab edirəm ki, bu məsələdə bizim məsləhətimiz və təcrübəmiz sizin üçün faydalı ola bilər və biz müvafiq nazirlərə bu sahədə çalışmaq tapşırığını verdik.

Həmçinin düşünürəm ki, keçən həftə Azərbaycanda, Şuşada keçirilən Hökumətlərarası Komissiyanın iclasında artıq bəzi praktiki məsələlər müzakirə olunub. Ümidvaram ki, həm Komissiyanın işindən, həm də bu gün mübadilə etdiyimiz ideya və qəbul etdiyimiz qərarların praktiki nəticələrini görəcəyik.

İcazə verin, vacib olduğunu düşündüyüm digər mövzuları da diqqətinizə çatdırım.

Birincisi, mən cənab Prezidenti və bütün Azərbaycan xalqını Azərbaycanla Ermənistan arasında sülh sazişi prosesinə başlanılması münasibətilə təbrik etmək istəyirəm. Biz bu məsələnin sürətli şəkildə irəliləməsinə ümid edirik. Biz bunu və Sizin bu məsələdəki mövqeyinizi çox dəstəkləyirik. Ümid edirik ki, təkcə nəinki regionun təhlükəsizliyi üçün, ümumilikdə bütün dünya üçün önəmli olan bu sazişin yekunlaşmasını görəcəyik.

Həmçinin vurğulamaq istədiyim digər bir məsələ də var. Biz Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq sahəsində müsbət addımların atıldığını müşahidə edirik. Biz bir məxsusi məsələni müzakirə etdik və mən bu məsələdə bizim tam dəstəyimizi vurğulamaq istəyirəm. Bu məsələ vizasız rejimin tətbiq edilməsidir, çünki biz çoxlu məsələləri müzakirə edə bilirik və biz bağlantı, daşımalar, birbaşa uçuşlarla bağlı bu qənaətə gəldik. Lakin Azərbaycan vətəndaşlarının Avropa İttifaqına və Avropa vətəndaşlarının sizin gözəl ölkənizə sərbəst çıxışı vacibdir. Çünki təkcə nəinki şirkətlər üçün, həmçinin xalqlararası təmaslar və turizm üçün böyük potensial mövcuddur.

Əlbəttə ki, biz Azərbaycanın xüsusilə Trans-Xəzər nəqliyyat dəhlizində, həmçinin energetika sahəsində rolunu həm Latviya, həm də ümumilikdə Avropa İttifaqı üçün strateji bir dəyər kimi görürük.

Yekun olaraq icazə verin deyim ki, biz Prezidentin dediyi kimi, regionda cərəyan edən hadisələr barədə çoxlu müzakirələr apardıq. Biz Azərbaycanın Ukraynaya humanitar yardımını yüksək dəyərləndiririk. Lakin biz, eyni zamanda, cənab Prezident və onun heyətinin İranda və Yaxın Şərqdə cərəyan edən hadisələrlə bağlı söylədiklərinə də qulaq asırıq. Bir daha fürsətdən istifadə edərək, bu yaxınlarda Azərbaycana qarşı edilmiş dron hücumları ilə bağlı Latviyanın bu məsələdə Azərbaycanla tam həmrəy olduğunu ifadə etmək istəyirəm.

Biz vəziyyətin normallaşması üçün atıla biləcək və atılmalı addımları müzakirə etdik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olaraq Latviya bütün ölkələrlə işləməyə və onları dinləməyə hazırdır. Regional məsələlərə gəldikdə, Azərbaycanın səsini eşitmək və müdrikliyini görmək olduqca vacibdir.

Cənab Prezident, Sizin söylədiyiniz kimi, biz dəfələrlə görüşmüşük. Əsasən mən xarici işlər naziri olaraq Bakıya səfər edəndə, sonra isə ötən il Davosda görüşlər keçirdik. İndi isə rəsmi səfərlə ölkənizə gəlməkdən böyük məmnunluq duyduğumu ifadə edirəm.

İcazə verin deyim ki, biz Sizi Riqada qarşılamağı səbirsizliklə gözləyirik. Biz elə indicə hesabladıq, sonuncu səfərinizdən demək olar ki, 10 il ötüb. COVID illəri və bəzi digər məsələlər olmuşdur, lakin belə mübadilələr həmişə hər iki ölkə üçün faydalıdır. Belə mübadilələr, aramızda olan dostluq siyasi, iqtisadi və mədəni mübadilənin aparılmasına şərait yaradır.

Mən ilk dəfə Bakıda, Azərbaycanda 2002-ci ildə olmuşam. Sonra isə dəfələrlə gəlmişəm. Düşünürəm ki, bu mənim altıncı və ya yeddinci səfərimdir. Sayını itirmişəm. Mən sadəcə hər zaman ölkənizin, xüsusilə də paytaxtınızın necə inkişaf etdiyini gördükdə heyran oluram. Çünki nazirlər və prezidentlər adətən paytaxtdan kənarda çox şeyi görmürlər. Biz Sizin bu məsələyə şəxsən diqqət yetirdiyinizi və bu prosesdə iştirak etdiyinizi bilirik.

İcazə verin, nitqimin sonunda, cənab Prezident, Sizə və bütün Azərbaycan xalqına ən xoş arzularımı çatdırım. Mən bu gün və bu rəsmi səfərdən əlavə bir çox görüşlərdə bizim sıx əməkdaşlığımızın davam etdirilməsini səbirsizliklə gözləyirəm.

Çox sağ olun, cənab Prezident.

# Bakıda Azərbaycan–Latviya biznes forumu keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs görüşdə iştirak ediblər*

**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin iştirakı ilə Azərbaycan-Latviya biznes forumu keçirilib. Dövlət başçıları tədbirdə çıxış ediblər.**

Əvvəlcə Azərbaycan Prezidenti çıxış etdi.








## Prezident İlham Əliyevin çıxışı

– Cənab Prezident, rəsmi nümayəndə heyətinin üzvləri, Latviyadan gələn qonaqlar, xanımlar və cənablar.

Latviya Prezidentini rəsmi səfərdə qəbul etməkdən çox məmnunam. Bizim əla müzakirələrimiz oldu və sənədlər imzalandı. Müzakirə etdiyimiz bir çox məsələlər arasında iqtisadi tərəfdaşlıq mövzusu da var idi. Xüsusilə bu gün təşkil olunan biznes-forum birlikdə çalışmaq üçün qarşılıqlı istəyimizi real şəkildə nümayiş etdirir.

Məmnunam ki, cənab Prezidenti Latviyadan olan iş adamlarının böyük qrupu müşayiət edir. Əminəm ki, onların azərbaycanlı həmkarları ilə təmasları maraqlı və məhsuldar olacaq. Əlbəttə ki, istənilən biznes fəaliyyətinin arxasında bir neçə amil dayanır - ilk növbədə biznes qurduğunuz ölkədəki sabitlik, proqnozlaşdırılma imkanı, biznes və investisiya mühiti, həmçinin bağlantılar, ixrac bazarlarına çıxış imkanları və daxili bazarın həcmi kimi bir çox digər amillər.

Biz Azərbaycanda ölkəni tamamilə neft və qazdan asılı olan bir dövlətdən öz iqtisadiyyatının şaxələndirilməsi prosesi ilə fəxr edə biləcək bir ölkəyə çevirmək üçün çox işlər gördük. Ümumi daxili məhsulun strukturuna nəzər salsaq, son dörd-beş il ərzində sürətli artımın şahidi olarıq. ÜDM-də qeyri-neft sənayesinin payı 50 faizdən artaraq 70 faizi keçib və bu proses davam edir. Bu isə o deməkdir ki, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır.

İndi biz ixracatımızın şaxələndirilməsi üzərində fəal işləyirik, baxmayaraq ki, bunu etmək çətin olacaq. Çünki Azərbaycanda təbii qaz hasilatı artır və artacaq. Hasil etdiyimiz qazın böyük hissəsi isə ixrac olunur. Beləliklə, qeyri-neft-qaz sektoruna aid sənaye və iqtisadiyyat artan hasilat profili və beynəlxalq bazarlarda, ilk növbədə Avropa bazarlarında artan tələbatla uzlaşmalıdır.

İstər yerli, istərsə də xarici investorlar üçün maliyyə sabitliyi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə də yaxşı nailiyyətlər haqqında danışa bilərik. Maliyyə sistemimiz sabitdir. Biz strateji plana əsaslanaraq borclanmadan asılılığımızı tədricən azaltdıq. Bu gün biz yalnız yüksək texnoloji fəaliyyət tələb edən layihələr üçün Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və digər bu kimi aparıcı beynəlxalq qurumlardan kredit alırıq.

Xarici borcun azaldılması planının yerinə yetirildiyini düşünürəm. Xarici borcumuz ÜDM-in 6,1 faizinə bərabərdir. Valyuta və qızıl ehtiyatlarımız xarici borcumuzu 18 dəfədən çox üstələyir. Başqa sözlə, biz xarici öhdəliklərimizi, zənnimcə, bir neçə ay ərzində sıfra endirə bilərik.

Lakin təbii ki, əlavə investisiyalara böyük ehtiyac var. Bu da ilk növbədə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərinin yenidən qurulmasına və bərpasına yönəldilib. İnvestisiya prioritetləri aydındır. Biz bunu artıq qismən müzakirə etmişik və müzakirə etməyə davam edəcəyik.

Həmçinin əminəm ki, azərbaycanlı həmkarlar qonaqlara rəqəmlər barədə də məlumat veriblər. Son iyirmi il ərzində iqtisadiyyatımıza 350 milyard ABŞ dollarından çox investisiya qoyulub ki, bunun da təqribən yarısı – 170 milyard ABŞ dolları xarici mənbələrdən gələn investisiyalardır. Beləliklə, investisiya üçün əlverişli mühitin yaradılması qarşımızda duran hədəflərdən biri idi və buna böyük mənada nail olunub.

Planlarımıza gəlincə, biz Azərbaycanda və həmçinin xaricdə, əsasən qonşu ölkələrdəki və Avropa İttifaqı zonasındakı enerji aktivlərinə investisiya qoymağa davam edirik. Bu, Avropa Komissiyası tərəfindən də dəstəklənir. Avropa Komissiyası ilə bir neçə əməkdaşlıq formatımız var ki, onlardan biri də enerji əməkdaşlığıdır.

Avropa Komissiyası öz ictimai bəyanatlarında hər zaman Azərbaycanı enerji sahəsində etibarlı tərəfdaş adlandırır və bu enerji əməkdaşlığı böyüyür. Biz neft satışı ilə başladıq, indi təbii qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik və yaşıl enerji ixrac etməyi planlaşdırırıq. Portfelimizdə olan sərmayə sahələrindən biri də nəhəng Günəş və külək potensialına malik bərpaolunan enerji mənbələridir.

Biz artıq böyük oyunçuların ciddi marağına səbəb olmuşuq. Bizim planımız, – hansı ki, təkcə niyyət deyil, həm də imzalanmış hüquqi qüvvəyə malik müqavilələrə əsaslanır, – 2032-ci ilə qədər 8 giqavatlıq Günəş, külək və hidroenerji gücünə malik olmaqdır və bu, tamamilə realdır. Biz elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı böyük ölçüdə bərpaolunan enerji ilə əvəz edəcəyik. Bu isə hazırda beynəlxalq bazarlarda çox ehtiyac duyulan bir neçə milyard kubmetr qaza qənaət etməyimizə imkan verəcək.

Bu qaza hər zaman ehtiyac olub, son bir neçə ildə ehtiyac artmışdı, son bir neçə ayda isə daha da artmış oldu. Planımız istehsalı və mütləq şəkildə ixracı artırmaqdır. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan təbii qaz alır. Ölkələrin ümumi sayı 16-dır və bu göstərici üzrə biz dünyada birinci yerdəyik.

Biz ən böyük hasilatçı və ixracatçı deyilik, bizdən daha böyük oyunçular var. Lakin boru kəmərləri vasitəsilə qaz ixrac edən ölkələr arasında təchizat coğrafiyasına görə biz birinciyik.

Avropa İttifaqına üzv olan ölkələr üçün Azərbaycan qazı və nefti onların enerji istehlakı portfelinin ən böyük hissəsini təşkil edir. Əsasən keçmişdə, indi və gələcəkdə diqqət yetirəcəyimiz digər sahə bağlantıdır.

*(ardı 4-cü səhifədə)*

# Bakıda Azərbaycan–Latviya biznes forumu keçirilib

*(əvvəli 3-cü səhifədə)*

Burada coğrafiya investisiyalarımızla və Azərbaycanın açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün uzunmüddətli siyasətlə tamamlanır. Bu, artıq baş verib və Şərqdən Qərbə və əks istiqamətdə, Şimaldan Cənuba və əks istiqamətdə nəqliyyat dəhlizləri artıq fəaliyyət göstərir. Azərbaycan ərazisində aparılan bütün tikinti işləri tamamlanmışdır. İndi gördüyümüz işlər isə müasirləşməyə, yeni fiziki infrastrukturun yaradılmasına, rəqəmsallaşdırılmaya, o cümlədən süni zəka tərəfindən yaradılan imkanlara investisiyaların yatırılmasından ibarətdir ki, Azərbaycan ərazisindən daşımalar bugünkü geosiyasi vəziyyətdə nəinki təkcə ən təhlükəsiz, lakin, eyni zamanda, daşıma haqları və zamanı nöqteyi-nəzərindən rəqabətli olsun. Burada investisiyalar üçün böyük imkanlar var, çünki bu gün Azərbaycan olmadan Şərq və Qərb arasında bağlantı problemlidir. Dediyim kimi, biz buraya çoxlu investisiyalar yatırmışıq və dost ölkələrlə, birbaşa qonşularımızla və qonşularımızın qonşuları ilə əməkdaşlıq edərək yüklər üçün təhlükəsiz və etibarlı nəqliyyat marşrutunu təmin edə bilmişik. Yeri gəlmişkən, Azərbaycan ərazisindən keçən yüklərin həcmi ildən-ilə artır.



Bu gün biz əsasən ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıqla bağlı olan fürsətləri də müzakirə etdik. Birgə İqtisadi Komissiyanın həmsədrlərinin hər ikisi kənd təsərrüfatı naziridir. Əlbəttə ki, əhalimizin qırx faizindən çoxunun kənd yerlərində yaşadığını nəzərə alaraq bu məsələ bizim hökumətimiz üçün prioritetlərdən biri olmağa davam edəcək. Orada yaxşı infrastruktur yaradılıb və rayonlarda biznes imkanları var. Əlbəttə ki, onlar paytaxtda olan biznes imkanlarından fərqlidir. Buna görə də kənd təsərrüfatı, turizm, su ehtiyatlarının idarəedilməsi – bütün bu sahələrdə dövlət və özəl şirkətlər Azərbaycanda layihələr həyata keçirirlər. Hesab edirəm ki, Latviya investorları üçün bu fürsətləri nəzərdən keçirmək də maraqlı olardı. Həmçinin Ələt Azad İqtisadi Zonası da yaxşı xidmətləri təmin edir və böyük həcmdə xarici investisiyaların cəlb olunmasına artıq imkan yaradan investisiyayönümlü qanunvericilik mövcuddur. Buna baxmayaraq, bu gün aydındır ki, xarici investisiyaları cəlb etmək asan bir iş deyil. Lakin hesab edirəm ki, qanunverici baza və əsas dəniz limanlarına və dəmir yoluna yaxınlıq Ələt Azad İqtisadi Zonasını cəlbedici edir.

Müzakirə etdiyimiz və bəlkə də potensial əməkdaşlıq sahəsi olacaq məsələlərdən biri də müdafiə sənayesidir. Biz hər iki ölkənin bu sahədə imkanlarını fəal şəkildə inkişaf etdirdiyini öyrəndik. Bizə gəldikdə isə biz müdafiə sənayesi sahəsində fəaliyyət göstərən şirkətlərimizin, - söhbət özəl və dövlət şirkətlərindən gedir, - məhsullarını böyük sayda ölkələrə artıq ixrac edirik. Beləliklə birgə istehsal sahəsində əməkdaşlıq, işbirliyinin yaradılması bizim nəzərdən keçirə biləcəyimiz məsələlər ola bilər. Bir çox digər məsələlər də var.

Bu gün etdiyimiz qısa çıxışlarımızda tərəfdaşlığın bütün sahələrini əhatə etmək çətindir. Lakin mən əminəm ki, forum ərzində və ondan sonrakı təmaslarda, - çünki əlbəttə, bu tədbirin təcrid edilməməsi üçün sonrakı təmaslar olmalıdır, - bir çox digər imkanlar araşdırılacaqdır. Sözsüz ki, biz bir ölkə olaraq və mən əminəm ki, biznes dairələrimiz də Latviyada, Sizin prioritet hesab etdiyiniz layihələrdə investisiya imkanlarında maraqlıdır.

Bu gün müzakirə etdiyimiz kimi, biz hər iki ölkənin uğurla əməkdaşlıq edə biləcəyi potensial layihələrin siyahısını hazırlaya bilərik. Sonuncu məsələ isə Prezidentin səfərinin əhəmiyyəti ilə bağlıdır. Mən dəvətimi qəbul etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Mən təkbətək görüşümüzdən, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdən və nahar zamanı apardığımız müzakirədən çox məmnun qaldım. Bir daha təşəkkür edirəm, Sizə yaxşı vaxt keçirməyi arzu edirəm. Əminəm ki, bizim biznes nümayəndə heyətləri bütün müsbət tendensiyaları dəstəkləyəcəklər. Bir daha xoş gəlmisiniz.

*

Sonra Latviya Prezidenti çıxış etdi.

## Prezident Edqars Rinkeviçsin çıxışı

– Cənab Prezident, nazirlər, həm Azərbaycanın, həm də Latviyanın biznes ictimaiyyətinin nümayəndələri.

Əvvəla, cənab Prezident, bizi qəbul etdiyiniz üçün və biznes-forumda iştirak edərək hər iki ölkədən olan sahibkarların qarşısında çıxış etdiyiniz üçün çox sağ olun. Sizin çıxışınızdan sonra danışmaq çox asandır, çünki Siz hər məqamı əhatə etdiniz və mən Sizinlə razılaşa bilərəm. Əlavə edə biləcəyim yeganə məsələ Latviyanın, Latviyada olan imkanların kiçik reklam edilməsi ola bilər. Azərbaycanın prioritetlərini və inkişafını məharətlə vurğuladığınız üçün hesab edirəm, əlavə etmək lazımdır ki, Latviya da Azərbaycanla əməkdaşlığa, ticari əlaqələrini dərinləşdirməyə və genişləndirməyə hazırdır.

Tarixə nəzər salsaq, görərik ki, Bakı neft hasil edən şəhərə çevrilən zaman XIX əsrin sonu və XX əsrin əvvəllərində bir çox latviyalı artıq burada mühəndis, müəllim kimi iş taparaq çalışıblar. Bizim həm iqtisadi, həm də mədəni bağlantımız düşündüyümüzdən daha da böyük və daha da genişdir. Hesab edirəm ki, təlatümlərin baş verdiyi bu vaxtda, - mən Avropada və Yaxın Şərqdə baş verən hadisələri, bütün geosiyasi çağırışları nəzərdə tuturam, - biz yaxşı və etibar etdiyimiz tərəfdaşlarımızla yeni əməkdaşlıq yollarını tapmağa çalışırıq. Azərbaycan həmişə Latviya üçün Cənubi Qafqazda və əslində daha geniş regionda əsas siyasət və ticarət tərəfdaşı olub, ticarət tərəfdaşıdır və ticarət tərəfdaşı olmağa davam edəcəkdir.

Prezidentin elə indicə qeyd etdiyi kimi, müzakirələrimizin əsas hissəsi iqtisadi və ticari əlaqələrə həsr olunmuşdur. Mən sadəcə cənab Prezidentin dediyini təkrarlamaq istəyirəm. Müdafiə sənayesi sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün böyük maraq var. Biz görürük ki, müdafiə sənayesində texnologiyalar çox sürətlə inkişaf edir. Hazırda, elə biz danışdığımız zaman süni zəka, fərqli həll variantları ixtira olunur. Bilirəm ki, burada, Azərbaycanda çox yaxşı potensial var. Lakin mən, həmçinin qeyd edə bilərəm ki, Latviyanın da çox sürətlə inkişaf edən müdafiə sənayesi var. Dronlar, dronəleyhinə sistemlər yalnız görünən hissədir, bununla belə, müdafiə sənayemiz müxtəlif layihələr üzərində işləyir və müdafiə sənayemiz həm Avropada, həm kənarda tərəfdaşları tapmaq və onlarla əlaqələri gücləndirməkdə maraqlıdır.

Nəzərə alsaq ki, burada həmin sənayenin nümayəndələri əyləşib, ümidvaram ki, bizim yaxın vaxtlarda müəyyən gözəçarpan və real nəticələrimiz olacaq. Prezidentin təklifi ilə mən Ağ Şəhəri ziyarət etdim. Bu, mənə çox böyük təəssürat bağışladı. Cənab Prezident, mənə söylədilər ki, bu layihə 15 ildən az müddətdə həyata keçirilib. Bildirdilər ki, bu ideya hələ 2011-2012-ci illərdə hazırlanıb və Siz əvvəlcə çirklənmiş əraziləri təmizləməyə müvəffəq oldunuz, sonra isə memarlıq möcüzəsini yaradaraq XXI əsrə uyğun müasir şəhəri yaratdınız.

Bu, Azərbaycanın potensialını göstərir. Həmçinin inanıram ki, istər memarlıq, istərsə də mühəndis təklifləri və ya dizayn sahəsində öz ekspert bacarıqlarını təqdim etmək məqsədilə bu cür layihələrə qoşulmaq və iştirak etmək üçün sərmayədarlara və digər ölkələrə böyük dəvət var. Burada görürəm ki, bizim potensialımız var və Latviyanın bu sahədə çox təklifləri mövcuddur.

Biz, həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlığı xeyli müzakirə etdik. Belə alınıb ki, həm bizim, həm də sizin tərəfdən Hökumətlərarası Komissiyanın həmsədrləri kənd təsərrüfatı nazirləridir. Düşünürəm ki, bu sahədə ticarətin artırılması yollarını araşdırmaq imkanları çox böyükdür, çünki biz rəqabət aparan tərəf deyilik.

Əslində, biz bir-birimizi tamamlaya bilərik. Əlbəttə, həll olunmalı məsələlər hər zaman var. Məsələn, yoxlamalar, sertifikatlaşdırma və sairə. Lakin biz çox müsbət yanaşırıq ki, Azərbaycanın hakimiyyət orqanları və hökuməti bu yaxınlarda qərar qəbul etdilər ki, biz bu sahədə ticarətə və mübadilələrə imkan yaradacağıq. Latviya meşələr ölkəsidir və bizim meşə ehtiyatlarının idarə olunmasında zəngin təcrübəmiz var.

Buradan belə çıxır ki, Latviyada kənd təsərrüfatı naziri meşəçilik məsələlərinə də cavabdehdir. O, həmin sahədə Latviyada hökumətin həyata keçirdiyi bütün siyasətə görə məsuliyyət daşıyır. Beləliklə, biz söylədiyiniz proqramın icrası, ağacların əkilməsi, Azərbaycanda, o cümlədən azad edilmiş ərazilərdə meşəçilik işlərinin icrasında imkanların araşdırılmasına hazırıq və bunda maraqlıyıq. Burada mən, həmçinin təhsil və təlim sahələrində əyani əməkdaşlıq imkanını görürəm.

Biz, həmçinin digər sahələr, əczaçılıq sənayesi haqqında söhbət apardıq. Bağlantılar məsələsinə nəzər saldıq. Bir daha qeyd edim ki, Latviya hər zaman Şimali və Mərkəzi Avropa üçün giriş qapısı olub.

Bəzi geosiyasi hadisələr cərəyan edir və biz onları maneə kimi deyil, hava limanlarında yük infrastrukturunun, hava daşımalarının, digər daşıma yollarının və logistikanın inkişaf etdirilməsi imkanı kimi görürük. Çünki bu sahələr ölkələrimizin təqdim edəcəyi və əslində, bir-birini tamamladığı sahələrdir. Burada, həmçinin Latviyanın xeyli ekspert bacarıqları var. Burada bir az çətinliklə üzləşirəm, yəni əgər mən və ya cənab Prezident hansısa məsələni qeyd etmiriksə, bu o demək deyil ki, biz onu yaddan çıxardıq, yaxud o, vacib deyil. Sadəcə, müəyyən vaxt çərçivəsi var. Bir sözlə, mən çox ümid edirəm ki, cənab Prezidentlə və onun nazirləri ilə apardığımız danışıqlar və bu biznes-forum işgüzar dairələrimizə əməkdaşlıq yollarını tapmaq, yeni ideyaları qazanmaq, ola bilsin, əvvəlki layihələrə yenidən nəzər salmaq, onları gündəmə gətirərək, hazırlamaq kimi işlərə təkan verəcək. Düşünürəm ki, Azərbaycan Prezidenti və mənim iştirakımla gördüyünüz və eşitdiyiniz odur ki, biz ticari və iqtisadi əlaqələrimizə önəm veririk. Bəli, bəzi tarixçəmiz oldu. İqtisadi və ticari münasibətləri müəyyən dərəcədə əngəlləyən COVID dövrü oldu.

Çıxış etdiyimiz zaman regionda müəyyən hadisələr cərəyan edir. Lakin düşünürəm ki, hadisələr həm hökumətlərimizi, həm işgüzar dairələri birgə işdən ayırmalı deyil. Avropa İttifaqının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, o cümlədən NATO-nun üzvü kimi Latviya Azərbaycan ilə həmin təşkilatlar, eləcə də ikitərəfli təşkilatlar arasında əməkdaşlıq üçün işləməyə və dəstək verməyə, iqtisadi əlaqələrin təşviqi üçün bütün ekspert bacarıqları ilə bölüşməyə hazırdır. Biz, həmçinin bir faktı da yüksək dəyərləndiririk ki, Azərbaycan nəinki Latviya, o cümlədən bir çox Avropa ölkəsi üçün həm siyasi, həm iqtisadi sahədə və ən vacibi isə energetika sahəsində strateji tərəfdaşdır.

Cənab Prezident Azərbaycanda hazırda hansı işlərin aparıldığını artıq qeyd etdi. İnanın mənə Avropada və o cümlədən bizim regionda bu, yüksək dəyərləndirilir. Qeyri-müəyyənlik dövründə etibarlı tərəfdaşların əldə olunması ən mühüm sərvətdir.

Latviyanın iqtisadi inkişafı sabitdir. Bizim həll olunmalı çox çağırışlarımız var. Mən tam əminəm ki, elə indicə təsvir etdiyimiz həmin strategiyalar vasitəsilə sərmayə yollarını tapmağa çalışmalıyıq.

Sərmayələr birtərəfli olmur. Düşünürəm ki, ideyalar Azərbaycandan, sərmayədarlardan daxil olur və onlar Latviyaya sərmayə yatırmaq üçün imkanları araşdırmalı və bundan yararlanmalıdırlar. Həmçinin ya birgə müəssisə, yaxud burada müxtəlif texnoloji sahələrdə sərmayədar olmağa maraq göstərən Latviya şirkətləri də var.

Bir sözlə, qeyd etmək istəyirəm ki, bizim əla siyasi müzakirələrimiz oldu. Tam razıyam ki, burada müxtəlif məsələlərə aid çox yaxşı müzakirəmiz oldu. Bilirsiniz, bundan kimsə mütləq yararlanmalıdır, çünki cənab Prezidentlə razılaşdığımız kimi, müəyyən vaxtdan sonra görüşəcəyik. Mən, həmçinin Azərbaycan Prezidentini Latviya Respublikasına rəsmi səfərə dəvət etdim. Çox güman ki, səfər gələn il baş tutacaq.

Beləliklə, hamımızın - prezidentlərin, hökumətlərin və biznes icmalarının növbəti görüşümüzə qədər təxminən bir il vaxtı var. Çox ümid edirəm ki, sonra Riqada görüşdüyümüz zaman bizim nəinki bölüşməyə gözəl ideyalarımız, o cümlədən bu biznes-forumdan sonra baxacağımız çox konkret nəticələrimiz olacaq. Bir sözlə, biznes-foruma çox məhsuldar iş arzu edirəm.

Mən tədbirdə iştirakına, Latviyaya və həmçinin ticari əlaqələrə çox müsbət münasibət bəslədiyinə görə Prezident Əliyevə şəxsən təşəkkürümü bildirirəm. Mən Sizinlə işimizi davam etdirməyi səmimiyyətlə arzulayıram. Belə də davam etməlidir.

Çox sağ olun.

# Milli Məclis Sədrinin Latviya Prezidenti ilə görüşü



**Azərbaycana rəsmi səfərə gələn Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin başçılıq etdiyi nümayəndə heyəti aprelin 22-də Milli Məclisdə olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Latviya Prezidenti əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli liderinin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Latviya Prezidenti buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib.

Qonağın bu vəzifədə Azərbaycana ilk səfəri olduğunu vurğulayan Milli Məclisin Sədri Sahibə Qafarova ümidvar olduğunu bildirib ki, səfər çərçivəsində keçiriləcək görüşlər və aparılacaq müzakirələr ikitərəfli əlaqələrdə yeni səhifə açacaq və onların inkişafına güclü təkan verəcək.

İkitərəfli əlaqələrin inkişafı üçün yüksəksəviyyəli qarşılıqlı səfərlərin və müntəzəm siyasi dialoqun vacibliyini qeyd edən S.Qafarova bu baxımdan ölkə başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif tədbirlərdə mütəmadi görüşlərinin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını vurğulayıb.

İki ölkənin parlamentlərarası münasibətlərinə toxunan Milli Məclisin sədri qeyd edib ki, bu sahədə sıx əməkdaşlıq qurulub. Bu əməkdaşlıqda qarşılıqlı səfərlərin və parlament dostluq qruplarının xüsusi rolu var.

Qonağa Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, ölkəmizin müstəqillik və parlamentarizm tarixi, parlamentin strukturu və fəaliyyəti barədə ətraflı məlumat verilib.

Edqars Rinkeviçs səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşü və apardığı müzakirələr barədə təəssüratlarını bölüşüb.

Azərbaycana bu səfəri zamanı müzakirə olunmuş məsələlərin və imzalanmış sənədlərin əhəmiyyətindən danışan Latviyanın dövlət başçısı tezliklə bu sənədlərin və əldə edilmiş razılaşmaların öz bəhrəsini verəcəyinə əminliyini ifadə edib. Latviya Prezidenti parlamentlərarası əlaqələrin mühümlüyünü vurğulayaraq, bu baxımdan parlament üzvləri, parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında mütəmadi səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb.

# Latviya Prezidenti ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Azərbaycanda rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs aprelin 22-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin və istedadlı həkim Tamerlan Əliyevin məzarları ziyarət olunub və məzarların önünə gül dəstələri qoyulub.

# Latviya Prezidenti “Bakı Ağ Şəhər”də



**Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçs aprelin 22-də “Bakı Ağ Şəhər”də olub.**

“Bakı Ağ Şəhər” layihəsinin icraçı direktoru Ruslan Sadıxov Latviya Prezidentinə burada icra olunmuş və hazırda həyata keçirilən işlər barədə məlumat verib.

Bildirilib ki, ərazi 150 ildən çox müddətdə neft sənayesi tullantıları ilə həddindən artıq çirkləndiyi və burada çoxsaylı neft gölməçələri yarandığı üçün bir vaxtlar “Qaraşəhər” kimi tanınırdı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ərazi dünya miqyasında nadir ekoloji layihəyə, müasir yaşayış massivinə çevrilib.

“Bakı Ağ Şəhər” layihəsi dünyada müasir şəhərsalma konsepsiyasının ən parlaq nümunələrindən biridir. Layihənin icrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılıb. Layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və “ağıllı şəhər” prinsipləri əsasında işlənib hazırlanıb.

***AZƏRTAC***

# Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçs aprelin 22-də Şəhidlər xiyabanını ziyarət edib.**



Ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

Daha sonra Azərbaycan paytaxtının mənzərəsini seyr edən Latviya Prezidentinə Şəhidlər xiyabanının tarixi, bu məkanın xalqımızın yaddaşında tutduğu xüsusi yer və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# “Qarabağ kartı”: hibrid təhdidlər və siyasi oyunbazlıq

*Yaxud sülh ritorikası Avropa – ABŞ – Rusiya rəqabət oxuna qarşı*

**Ermənistanda tez-tez ölkəyə hibrid hücumlardan danışılır. Bu barədə söz açan baş nazir Nikol Paşinyanın hakim komanda üzvləridir. Onlar daha çox daxili siyasi proseslərə xaricdən müdaxilələri nəzərdə tuturlar. Amma durum yalnız bununla məhdudlaşmır. Çünki Ermənistana hibrid hücumların Azərbaycanla bağlılıq dərəcəsi var. Yazımız bu barədə olacaq, həmçinin bir sıra əlaqəli məqamları diqqətə çatdıracağıq.**

Baş nazir Paşinyan və tərəfdarları, demək olar, bütün yerli və beynəlxalq platformalarda Cənubi Qafqazda barış mühitinin yarandığını vurğulayır, bunu müstəsna mənəvi və siyasi dividend kimi önə çəkirlər. Belə yanaşma erməni ictimai rəyinə, o cümlədən sadə ermənilərə müsbət təsir göstərir. O da hiss olunur ki, hay cəmiyyəti müharibədən, daimi düşmən axtarışlarından bezib, sakitlik, dinclik, rifah və əmin-amanlıq axtarışındadır. Erməni cəmiyyəti, eyni zamanda, uzun müddət aparılan təbliğatın mif olduğunun fərqinə varmağa başlayıb. Deməli, müsbət ab-havanı gücləndirmək lazımdır. Amma Paşinyan və komandasının hazırkı sülh ritorikasına zərər saydığımız bir səhvi var ki, onun barəsində sonda söz açacağıq.

* * *

Bəli, Ermənistana hibrid hücumların Azərbaycan seqmenti aktualdır və bu baxımdan xaricdəki müəyyən qüvvələrin həll olunmuş Qarabağ məsələsini yenidən gündəmə gətirməyə çalışdıqlarından söz açmağa dəyər. Diqqət yetirək, Belçika və Niderland parlamentləri “qətnamə oyunu”-na girişiblər. Bu qurumların sənədlərində “Azərbaycanda saxlanılan hərbi əsirlər” məsələsi qabardılır, tarixi Vaşinqton Sülh Sammitinə heç bir istinad olunmur, “Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş”in paraflandığı, hər iki ölkə liderlərinin Birgə Bəyannamə imzaladıqları əksini tapmır, üstəlik, Azərbaycan-Ermənistan sərhədindəki çox sakit və sabit olan vəziyyət riskli göstərilir. Görəsən niyə?

İlk baxışda, bütün bunlar özfəaliyyət təsiri bağışlayır. Düşünülə bilər ki, Avropadakı erməni lobbi və diaspor təşkilatları ipə-sapa yatmır, özlərinin revanşist və şovinist baxışlarına sadiqlik göstərərək, “köhnə qitə”nin rüşvətə və korrupsiyaya bulaşmış deputatlarını ələ alıb anti-Azərbaycan fəaliyyət gerçəkləşdirir, hiddət və qəzəblərini püskürürlər. Amma...

Əlbəttə, ağla Fransa gəlir. Axı Niderland və Belçika kimi ölkələr Parisin dirijor çubuğu ilə idarə olunurlar. Eləcə də Avropa İttifaqının bəzi qurumları, xüsusən, Avropa Parlamenti. Zaman-zaman Fransanın “cırtdanları” işə salaraq, anti-Azərbaycan fəaliyyətə güc verdiyini də az görməmişik.

O da məlumdur ki, hazırda Bakı ilə Paris arasında əvvəlki dövrün soyuqluğu aradan qalxıb. Yəni demək olmaz ki, Fransanın anti-Azərbaycan məramına uyğun şəkildə davranmasında, Avropanın ayrı-ayrı dövlətlərinin ölkəmiz əleyhinə qətnamə oyunlarına rəvac verməsində keçmiş ədavətə hesablanmış individuallıq var.

* * *

Fransa özünü “köhnə qitə”nin hegemon qüvvəsi qismində aparır və onun öz imperialist maraqları var. O maraqlar ki, zaman-zaman Qarabağ məsələsinə münasibətdə də özünü göstərib. O maraqlar ki, həm də Rusiyanın Cənubi Qafqaz siyasətinə ziddir. Yeri gəlmişkən, uzun müddət Parislə Moskvanın regional maraqları uzlaşmışdı. Onlar ATƏT-in artıq canını tapşırmış Minsk qrupunda təmsilçiliklə, faktiki olaraq, Azərbaycan torpaqlarının işğalı vəziyyətini qoruyub saxlamışdılar. Hər iki tərəf erməni amilindən öz mənafelərinə uyğun bəhrələnmişdi.




Lakin 44 günlük müharibə durumu kökündən dəyişdi. Savaşa son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasında böyük rol oynayan Rusiya təşəbbüsü ələ aldı. Makron Fransası isə buna qarşılıq Avropanı aktivləşdirməklə, yəni Ermənistanı anti-Rusiya düşərgəsində ideoloji cəhətdən möhkəmləndirməklə, Moskvanı Bakı-İrəvan sülh prosesində neytrallaşdırmağı bacardı.

Amma Paris Qarabağ avantürasında maraqlı olduğuna görə sözügedən proses heç bir nəticə vermədi. Sabiq prezident Co Baydenin Amerikası isə ermənipərəst hərəkət və davranışları ilə ümumi mənzərəyə zərər vurmaqdan başqa heç nə etmədi. Donald Trampın prezident seçilməsindən sonra ABŞ vasitəçilikdə təşəbbüsü ələ alsa da, Azərbaycan və Ermənistanın sülh yolundakı irəliləyişi xeyli dərəcə tərəflərin öz aralarında apardıqları danışıqların məntiqi nəticəsi kimi meydana çıxdı. Rəsmi İrəvan kənar oyunçuları ortaya atmaqla, heç bir nəticə əldə edə bilməyəcəyinə əmin olduğundan, Birləşmiş Ştatlar üçün vasitəçilik bir o qədər çətinlik törətmədi.

Bəli, ABŞ-ın səyləri ilə konkret nəticənin əldə edilməsi həm Rusiyanın, həm də Fransanın maraqlarına zidd idi. Amma tərəflərdən heç biri ötən il avqustun 8-də Vaşinqtonda yaşananlara qarşı çıxa bilmədi və bilmir. Çünki Trampın Avropa üzərinə Ukrayna məsələsi ilə bağlı basqısı aktualdır...

* * *

Ermənistan parlament seçkiləri ərəfəsindədir. Erməni cəmiyyətində müəyyən çalxalanma meyli var. Rusiyanın ölkədə təşəbbüsü ələ almaq və özünə yaxın qüvvələrin hakimiyyətə gəlməsinə nail olmaq cəhdləri diqqətdən yayınmır. O cəhdlər ki, məğzində “Qarabağ hərəkatı”nı dirçəltmək məramını görürük.

Maraqlısı budur ki, Belçika və Niderland parlamentlərinin məlum qətnamələrində, eləcə də Avropa Parlamentinin anti-Azərbaycan motivli çağırışlarında dolayısıyla Qarabağ vurğusu var. O zaman düşünək ki, hazırda Fransanın təhriki ilə aktivləşən “qoca qitə”nin siyasi industriyası ilə Rusiyanın bəzi dairələri müəyyən ortaq maraqlara malikdirlər. Moskva konkretdir: Paşinyan getsin, yerinə revanşistlər gəlsin, sülh əngəllənsin, indi olmasa da, müəyyən müddət sonra Ermənistan Azərbaycana qarşı çıxsın, itirilmişlərin bərpasına girişsin, beləliklə, Cənubi Qafqaz yenidən Kremlin orbitinə qayıtsın.

Fransa Avropasının Paşinyanı devirmək niyyəti varmı, bu barədə söz demək çətindir. Axı mahiyyətcə Ermənistan Qarabağ avantürasını davam etdirməyən, bu kart ilə Azərbaycana təzyiqin səmərəsizliyini duyan və ABŞ-ın himayəsinə sərmayə yatıran tərəfdir. Bir qədər ətraflı yanaşsaq, Paşinyanlı Ermənistan Azərbaycanın mövqeyini qəbul edir, sadəcə, “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” və ya TRIPP ilə sülhə beynəlxalq təminat motivi qazandırır, ölkənin ərazi bütövlüyü və suverenliyinin prioritetliyini vurğulayır.

Belə yanaşma Fransanın regional maraqlarına ziddir. Deməli, Makron Fransasının timsalında Avropanın da ABŞ-a zidd şəkildə Paşinyanı sıradan çıxarmaq niyyətləri ola bilər. Amma bu, praqmatik yanaşma sayıla bilməz. Çünki Parisin Nikolun əvəzinə hakimiyyətə gətirib Cənubi Qafqaz platformasında oyun quracaq adamı yoxdur. Heç Birləşmiş Ştatlar da Paşinyandan başqa kiməsə sərmayə yatıracaq potensialda deyil və bu lüzumsuzdur. Rusiyanın isə bu mənada xeyli üstün olduğunu görürük və belə durum Paşinyana ABŞ-la yanaşı, “köhnə qitə”nin dəstəyini əldə etməyə, ən azından ikincinin ona qarşı çıxmamasını təminat altına almağa imkan verir. Aydındır ki, Nikol hakimiyyət kürsüsündən uzlaşması və onun yerini ruspərəst revanşistlərin tutması Avropa, xüsusən Fransa üçün son dərəcə arzuolunmaz ssenaridir, hətta aşkar fiaskodur.

Deməli, Parisin lokal siyasi maraqlar naminə hansısa ciddi iş gerçəkləşdirməsi mümkünsüzdür. Amma o, “cırtdanların” köməyi ilə öz oyununu qurur. Ola bilər, parlament seçkilərindən sonraya ümidlidir və hesab edir ki, nə vaxtsa Paşinyan iqtidarını yenidən Qarabağ ritorikası ilə “silahlandıracaq” beləliklə, Cənubi Qafqaza təsir imkanı qazanacaq.

* * *

Əsl “əmma” hazırda Avropanın, yəni Fransanın mahiyyət etibarilə, Rusiyanın siyasi mətbəxinə uyğun tezisləri təkrarlamasıdır. O tezisləri ki, onları Paşinyan iqtidarı dilə gətirmir. Ancaq bir istisna var. Söhbət “Azərbaycanda saxlanılan erməni hərbi əsirlər” məsələsindən gedir.

Niderland və Belçika parlamentlərinin haqqında söz açdığımız qətnamələrində “hərbi əsirlərə” dair qeydin olduğunu diqqətə çatdırdıq. Paşinyan və ətrafının da bu məsələni gündəmə gətirdiyini görürük. Ermənistan parlamentinin sədri Alen Simonyan Parlamanetlərarası İttifaqın 152-ci Assambleyasında çıxışı zamanı ona toxundu.

Əslində, ortada ziddiyyətli durum var. O durum ki, erməni iqtidarına sərf etmir. Deməli, hərbi əsir kimi qələmə verilən şəxslər müharibə caniləri və cinayətkarlardır, hər birinin əli Azərbaycan xalqının qanına batıb. Yəni onlar heç bir halda I və II Qarabağ müharibəsində vuruşmuş adi ermənilərlə eyni tutula bilməzlər. Törətdikləri əməllərə görə Bakı həbsxanalarında cəzalarını çəkən bu adamların, obrazlı desək, nəfəsləri “Qarabağ hərəkatı” ilə gedib-gəlib. Hətta onlardan biri Ruben Vardanyan məhkəmə zalında “Arsax” deyərək bağırmışdı da. İndi Azərbaycan belə əbləhləri azadlığa buraxsın? Aydındır ki, ölkəmizin ictimai rəyi bununla razılaşmayacaq. Azərbaycan dövləti isə cəmiyyətin maraq və mənafelərini nəzərə alıb və alır da. O cəmiyyət ki, iki müharibənin ağırlığını çiyinlərindən ata bilməyib. Bu yerdə əvvəldə anonsunu etdiyimiz Paşinyan hakimiyyətinin səhvinə gələk.

* * *

Hazırda Ermənistanda ölkənin olanları ilə kifayətlənməli olduğuna dair sistemli təbliğat aparılır. Nikol, az qala, hər gün qapı-qapı, küçə-küçə gəzərək, ölkəsinin xəritəsinin əksini tapdığı döş nişanlarını əhaliyə paylayır. Yeri gəlmişkən, o, Moskvaya da sinəsində həmin döş nişanını taxaraq yollanmış və orada açıq şəkildə “Qarabağ hərəkatı”na “yox” demişdi. Mövcud trayektoriyada ən mühüm məqam isə Paşinyan və tərəfdarlarının məsələyə kompleks yanaşmaları, daha doğrusu, yanaşmamaları ilə bağlıdır.

Bəli, məsələyə kompleks yanaşma beynəlxalq ictimai rəyə “Artsax” sevdalılarının” hərbi əsri kimi sırınmasında uzaq durmağı tələb edir. Çünki bu cəhd, istər-istəməz, Qarabağ avantürasına dirçəliş motivi qazandırır. Baxın, Simonyan yalnız “hərbi əsirlərin” azad edilməsindən söz açdığı halda, Niderland və Belçika parlamentlərinin qətnamələrində bu tezis xeyli genişləndirilir və ona yeni müharibə riski kimi sərsəm elementlər əlavə olunur.

Üstəlik, “Azərbaycanda saxlanılan hərbi əsirlər”in kimlər olduqları da Ermənistanda hər kəsə yaxşı bəllidir. Bu şəxslərin adlarının Qarabağ məsələsi ilə həmahəngliyini vurğuladıq. Paşinyan “Qarabağ hərəkatı”na “yox” deyirsə, ərazi iddiası məntiqindən geri durursa, sülhü təbliğ edirsə, nəzərə almalıdır ki, Bakı həbsxanalarında cəza çəkənlər bütün bunlara qarşı olanlardır. Yəni belələrinin azadlığa çıxmalarından dəm vurmaq, faktiki olaraq, avantüranın boynuna keçirilmiş zənciri açmaq cəhdidir. O zaman Nikol və tərəfdarlarının apardıqları ənənəvi sülh təbliğatı əhəmiyyətini itirir.

Sözümüz həm də ondadır ki, Avropa kluarlarının həyasız təbliğatı və Rusiya dairələrinin “erməni sevdasının” motivləri erməni cəmiyyətini çaş-baş duruma sala bilər ki, bunun da gələcək seçkilərdə Paşinyana və tərəfdarlarına ancaq zərəri var. Məhz buna görə Ermənistanın hazırkı iqtidarı prinsipial davranmalı, ortaya fundamental baxış qoymalı, hibrid təhdidlərə qarşı vahid mövqe nümayiş etdirməli, sülh gündəliyini pozmaq cəhdlərinə, regionda yenidən gərginlik yaratmaq istəklərinə münasibətdə barışmazlıq göstərməlidir. Nikol və komandası ciddi şəkildə nəzərə almalıdır ki, sülhün və barışın yolu ancaq səmimiyyətdən, hər şeyi və hər kəsi öz adı ilə adlandırmaqdan keçir.

***Ə.RÜSTƏMOV***
***X Q***

# Ermənistan–NATO: xəyal və gerçəklik

**Cənubi Qafqazda baş verən hərbi-siyasi dəyişikliklər regionun təhlükəsizlik arxitekturasını yenidən formalaşdırıb. Xüsusilə Ermənistan–Azərbaycan münasibətlərində yaranan reallıq, Rusiyanın bölgədəki rolunun dəyişməsi və Qərb institutlarının, o cümlədən NATO və Avropa İttifaqının regiona artan marağı Ermənistanın xarici siyasət kursunu mürəkkəbləşdirib. Bu fon üzərində Ermənistan–NATO əlaqələri də yenidən aktuallaşıb və müxtəlif ekspert qiymətləndirmələrində həm imkanlar, həm də ciddi məhdudiyyətlər kontekstində təhlil edilir.**



Məsələn, rəsmi İrəvan son dövrlərdə Şimali Atlantika Alyansı ilə dialoqun genişləndirilməsinə maraq göstərdiyini bəyan etsə də, mövcud geosiyasi mühit bu münasibətlərin strateji transformasiyasına imkan vermir. Çünki Ermənistanın Qərb strukturlarına inteqrasiya cəhdləri ilə Rusiya və digər regional güc mərkəzləri arasındakı balansı qorumaq zərurəti ölkənin xarici siyasətində ziddiyyətli və çoxvektorlu bir xətt formalaşdırıb.

NATO-nun Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Kevin Hamiltonun İrəvana səfəri və keçirilən yüksək səviyyəli görüşlər tərəflər arasında dinamikanın artdığı təəssüratını yaratsa da, yerli və beynəlxalq ekspertlər bu təmasların daha çox planlı xarakter daşıdığını vurğulayır. Hazırkı “aktivlik” real strateji dönüşdən ziyadə, mövcud əməkdaşlıq mexanizmlərinin saxlanılmasına xidmət edir. Yəni söhbət strateji inteqrasiyadan deyil, idarə olunan və balanslaşdırılmış tərəfdaşlıq modelindən gedir.

**Erməni politoloq Beniamin Poqosyanın** qənaətinə görə, Ermənistan–NATO münasibətlərinin dərinləşməsi üçün nə kifayət qədər siyasi iradə, nə də uyğun regional mühit mövcuddur: “Alyansa üzvlük perspektivi uzunmüddətli və qeyri-müəyyən bir ssenari olaraq qalır. Onun sözlərinə görə, hətta bu, Avropa İttifaqına inteqrasiya ehtimalından belə daha uzaq görünür. Bu durum İrəvanın xarici siyasətinin hələ də “balanslaşdırma” prinsipi üzərində qurulduğunu, bir tərəfdən Qərb ilə əlaqələri artırarkən, digər tərəfdən Rusiya, İran və digər regional oyunçularla münasibətləri qorumağa çalışdığını göstərir.

Hazırkı mərhələdə NATO öz tərəfdaşlıq siyasətini yeniləyərək daha çevik və fərdiləşdirilmiş modellərə (ITPP) keçid etməyə çalışır. Lakin bu formatın Ermənistanla tam razılaşdırılmaması regiondaxili siyasi balansın həssaslığını nümayiş etdirir. Xüsusilə



NATO daxilində Fransa və Türkiyə kimi aktorların fərqli mövqeləri qərarların yekdilliklə qəbulunu çətinləşdirən əsas faktorlardandır”. Ekspert Ermənistanı illərdir dərin inteqrasiya yolu seçən Gürcüstan modeli ilə müqayisə edərək bildirib ki, İrəvan bu prosesdə hələ də xeyli geridədir. Səbəb isə dəyişməz qalır: “İrəvan NATO ilə əməkdaşlığı genişləndirməyə çalışsa da, eyni zamanda, Rusiya ilə strateji təhlükəsizlik bağlarını tam kəsmək riskini gözə ala bilmir. Bu isə Ermənistanın strateji seçimlərini məhdudlaşdıran əsas amillərdəndir”.

Son dövrlər Ermənistan–Rusiya münasibətlərində müşahidə olunan gərginlik bu balansı daha da mürəkkəbləşdirib. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı (KTMT) fəaliyyətini faktiki olaraq dondurması, “Zvartnots” hava limanından Rusiya sərhədçilərinin çıxarılması və İrəvanın Moskvaya ünvanladığı tənqidi bəyanatlar regionda təhlükəsizlik arxitekturasının dəyişməkdə olduğunu göstərir. Ermənistan hakimiyyətinin mövqeyinə görə, 2021–2022-ci illərdə baş verən hərbi eskalasiyalar zamanı KTMT-nin gözlənilən dəstəyi göstərməməsi bu qərarların əsas səbəblərindən biridir. Rusiya tərəfi isə bu addımları qeyri-dost siyasət kimi qiymətləndirir.

Eyni zamanda, Ermənistan daxilində Qərblə yaxınlaşma prosesi birmənalı qarşılanmır. Bəzi siyasətçilər NATO və Aİ ilə əməkdaşlığın genişlənməsini “yeni təhlükəsizlik modeli” kimi qiymətləndirsələr də, digərləri bunu riskli balanssızlıq kimi görür. Erməni politoloq Suren Sarkisyanın dediyi kimi ölkənin NATO ilə münasibətlər gündəliyində son 10 ildə fundamental dəyişiklik baş verməyib və onun alyansa üzvlük perspektivi real deyil: “Əlbəttə, Ermənistan Fransa, ABŞ və Yunanıstanla ikitərəfli hərbi əməkdaşlığı artırıb. Bu ilk baxışda NATO ilə əlaqələrin aktivləşməsi kimi görünür. Əslində, bu, görüntüdür və KTMT üzvlüyü ilə uzunmüddətli perspektivdə ziddiyyət təşkil edir”.

Ümumiyyətlə, rəsmi İrəvanın mövqeyi daha ehtiyatlı və balanslıdır. Baş nazir Nikol Paşinyan və digər yüksək vəzifəli rəsmilər NATO nümayəndələri ilə görüşlərdə əməkdaşlığın davam etdirilməsini vacib hesab etsələr də, bunu üzvlük istiqamətində strateji seçim kimi təqdim etmirlər. Əksinə, Ermənistanın prioriteti təhlükəsizlik sahəsində islahatlar, institusional gücləndirmə və beynəlxalq sülhməramlı missiyalarda iştirak kimi praktiki əməkdaşlıq istiqamətləridir. Eyni zamanda, Paşinyan açıq şəkildə bəyan edir ki, Ermənistanın Gürcüstan və İranla xüsusi münasibətləri qorunmalı və heç bir xarici əməkdaşlıq regionun sabitliyinə qarşı yönəlməməlidir.

NATO rəsmiləri isə öz növbəsində Ermənistanla tərəfdaşlığı yüksək qiymətləndirdiklərini bildirir, lakin bu əməkdaşlığın üzvlük perspektivinə çevrilməsi ilə bağlı konkret siqnallar vermirlər. Alyans daxilində prioritetlər daha çox Şərqi Avropa və Rusiya ilə bağlı təhlükəsizlik gündəliyinə fokuslanmış vəziyyətdədir. Bütün bu amillər ümumilikdə onu göstərir ki, Ermənistan–NATO münasibətləri hazırda “məhdud institusional tərəfdaşlıq” çərçivəsində inkişaf edir. Bu model müəyyən sahələrdə əməkdaşlığa imkan versə də, strateji inteqrasiya və ya hərbi-siyasi əməkdaşlığa çevrilmə üçün yetərli deyil. Regiondakı mürəkkəb geosiyasi balans, Ermənistanın çoxvektorlu xarici siyasət məcburiyyəti və Azərbaycanla davam edən normallaşma prosesi bu münasibətlərin gələcək trayektoriyasını müəyyən edir.

**Politoloq Elməddin Behbud** mövzu ilə bağlı XQ-yə bildirdi ki, Ermənistanın qarşısında duran əsas strateji sual NATO-ya in-



teqrasiya deyil, balans siyasətinin nə qədər davamlı və effektiv ola biləcəyidir: “Mövcud tendensiyalar göstərir ki, İrəvan yaxın perspektivdə böyük geosiyasi bloklara tam inteqrasiyadan çox, müxtəlif güc mərkəzləri arasında çevik manevr imkanlarını qorumağa üstünlük verəcək. Bunun isə dayanıqlılığı birbaşa regionda formalaşacaq yeni təhlükəsizlik arxitekturasından və xüsusilə Ermənistan–Azərbaycan münasibətlərinin gələcək inkişafından asılı olacaq”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Cənubi Qafqazın və Baltikyanı ölkələrin ümumi dəyərləri və ortaq maraqları

## *Azərbaycan və Latviya dostluq və strateji tərəfdaşlığının yeni hədəfləri*

**Aprelin 22-də Prezident İlham Əliyev Azərbaycanda rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə geniş tərkibdə görüşdü. Bu diplomatik təmas iki dövlət arasında mövcud siyasi münasibətlərin gələcək dinamikasını müəyyənləşdirən mühüm platforma rolunu oynayır. Dövlət başçılarının danışıqları Avropa qitəsi, eləcə də Cənubi Qafqaz regionu daxilində formalaşan yeni geosiyasi proseslərin hər iki tərəfdən aydın şəkildə anlaşıldığını nümayiş etdirir. Qeyd olundu ki, mövcud beynəlxalq vəziyyət dövlətlərdən praqmatik xarici siyasət kursu, eləcə də dəqiq strateji qərarlar tələb edir.**




Dövlətimizin başçısı İlham Əliyev danışıqlar zamanı Latviya Prezidentinin səfərinin ikitərəfli imkanlar üçün yaxşı fürsətlər yaradacağına əminliyini bildirdi. Liderlər arasındakı yüksək səviyyəli siyasi əlaqələr bir daha vurğulandı. Tərəflər enerji, rəqəmsallaşma, logistika kimi məsələlərin arxasında duran siyasi iradəni yüksək qiymətləndirdilər. Qeyd edilən sahələrdəki irəliləyişlər bilavasitə siyasi strategiyanın uğuru kimi xarakterizə olunur. Əlbəttə, rəsmi Bakı Avropanın enerji təhlükəsizliyində əvəzolunmaz ölkəyə çevrilib və belə siyasi gedişlər qitənin şimal hüdudlarında yerləşən Latviyanın diqqətindən yayınmır. Azərbaycan Prezidenti nümayəndə heyətlərinin məlum vaxtdan yararlanaraq əməkdaşlığın ən mühüm sahələrini diqqət mərkəzində saxlayacaqlarını vurğulayıb.

Latviya dövlətinin başçısı Edqars Rinkeviçs çıxışında Bakıya 2017-ci ildə baş tutan səfərindən keçən 9 il ərzində şəhərin tamamilə dəyişdiyini qeyd etdi. O, paytaxtın inkişaf etdiyini söyləyərək bundan məmnunluğunu çatdırıb. Edqars Rinkeviçs Azərbaycan xalqını həm siyasi, həm də dövlət quruculuğu istiqamətində əldə edilən uğurlar münasibətilə təbrik edib. Xüsusilə uzun çəkən məsələnin – torpaqların işğaldan azad edilməsi prosesinin uğurla həll olunmasını siyasi baxımdan mühüm nailiyyət saydı. Təkbətək görüş əsnasında Yaxın Şərq və Avropa məkanındakı siyasi böhranlar, eləcə də qlobal xarakter daşıyan təhlükəsizlik çağırışları ətrafında fikir mübadiləsi aparılıb. Latviya Azərbaycanı tam olaraq strateji tərəfdaş, eyni zamanda, sadiq dost qismində qəbul edir. Nümayəndə heyətinin tərkibinin genişliyi tərəflər arasındakı qarşılıqlı etimadın yüksək səviyyəsi ilə izah olunur.

**ARAYIŞ:** *Azərbaycan və Latviya arasında diplomatik münasibətlərin tarixi kökləri möhkəm zəminə əsaslanır. Baltikyanı respublika müstəqil Azərbaycanın suverenliyini 1992-ci ilin yanvar ayında rəsmən tanıyıb. İki dövlət arasında diplomatik əlaqələr 1994-cü ilin yanvar ayında qurulub. Tərəflər dərhal beynəlxalq hüququn prinsipləri əsasında qarşılıqlı hörmətə söykənən ikitərəfli əməkdaşlıq formatı formalaşdırıblar. 2005-ci ildə Azərbaycanın Latviya paytaxtında səfirliyi fəaliyyətə başlayıb. 2006-cı ildə isə Latviya Bakıda daimi nümayəndəliyini açıb. Tarixi xronologiya hər iki xalqın keçmiş ittifaqın dağılmasından sonra müstəqil dövlətçilik ənənələrini uğurla yaşatdığını sübuta yetirir. Məsələn, Azərbaycanın ən qanlı və qürurlu tarixi 20 Yanvar faciəsidir. Belə gün Latviyada da mövcuddur və "Barikadalar Günü" kimi tarixə düşüb. Oxşar hadisələr çoxdur və sadalanan faktlar xalqlarımızın oxşar sınaqlardan keçdiyini göstərir.*

Müasir dünyada kiçik, eyni zamanda, orta ölçülü dövlətlərin qlobal güclərin rəqabət meydanında xarici təzyiqlərdən qorunması diplomatik məharət tələb edir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi çoxvektorlu xarici siyasət doktrinası ölkəni Avrasiya məkanında həlledici səlahiyyət sahibi olan əsas dövlətə çevirib. Avropa İttifaqı rəhbərliyi ilə sıx münasibətlərin qurulması fonunda ayrı-ayrı üzv ölkələrlə ikitərəfli əlaqələrin dərinləşdirilməsi xüsusi incəliyə malik siyasi manevrdir. Latviya Respublikası Baltik regionunda strateji baxımdan çox əhəmiyyətli coğrafi mövqedə yerləşir. Rəsmi Riqa Avropa İttifaqı daxilində, əlavə olaraq NATO çərçivəsində Şərq tərəfdaşlığı proqramına daim fəal dəstək verən əsas mərkəzlərdən sayılır. Bakı və Riqa arasındakı müntəzəm dialoq bütövlükdə geniş Avropa təhlükəsizlik platformasının stabilliyini şərtləndirir. Rinkeviçsin səfəri Avropanın şərq sərhədlərində artan geosiyasi gərginlik fonunda qitənin alternativ güvən nöqtələri axtarışını əks etdirir. Latviya liderinin bəyanatlarında açıq şəkildə sezilən mesajlar Baltik dövlətlərinin Cənubi Qafqaza münasibətdə baxış bucağının dəyişdiyini sübut edir. Keçmiş illərdə uzaq coğrafiya sayılan Xəzər hövzəsi, hazırda rəsmi Riqanın xarici siyasət kursunda prioritet istiqamətlərdən hesab olunur.

Cənubi Qafqaz üzərindən keçən nəqliyyat, həmçinin enerji marşrutları mahiyyət etibarilə təmiz geosiyasi, əlavə olaraq geostrateji planlaşdırmadır. Latviya, eləcə də digər Baltik dövlətləri ənənəvi təchizat şəbəkələrinin qırılması nəticəsində yaranan asılılıqları aradan qaldırmaq məqsədilə təcili addımlar atırlar. Avropa qitəsinin enerji müstəqilliyinin təmin edilməsində Azərbaycanın oynadığı aparıcı rol rəsmi Riqa tərəfindən yüksək dəqiqliklə qiymətləndirilir. Edqars Rinkeviçsin siyasi diskursda tez-tez regional təhlükəsizlik terminindən istifadə etməsi təsadüfi xarakter daşımır. Yaxın Şərqdə davam edən silahlı münaqişələr, ardı-arası kəsilməyən hərbi eskalasiyalar beynəlxalq hüquq normalarının böhran vəziyyətinə düşdüyünü nümayiş etdirir. Digər tərəfdən, Şərqi Avropa məkanında gedən gərgin proseslər beynəlxalq aktorları tərəflərini müəyyən etməyə məcbur qoyur. Rəsmi Bakının apardığı balanslı xarici siyasət strategiyası bütün çətinliklərə rəğmən milli maraqların mütləq müdafiəsini təmin edir.

İki dövlətin xarici siyasətində diqqətçəkən ən vacib ortaq məxrəc beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığına qeyd-şərtsiz sadiqlikdir. Latviya dəfələrlə beynəlxalq tribunalardan Azərbaycanın haqq işini müdafiə edərək, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasının zəruriliyini vurğulayıb. Torpaqların işğaldan azad edilməsi prosesindən sonra yaranan yeni reallıq Avropa İttifaqı ölkələri tərəfindən mərhələli şəkildə qəbul edilir. Latviya Prezidentinin açıq mətnlə "uzun çəkən məsələnin uğurlu həlli" ifadəsini işlədərək təbrik ünvanlaması əslində siyasi dəstək aktıdır. Göstərilən yanaşma həm də o deməkdir ki, Avropa daxilindəki rasional, uzaqgörən qüvvələr Cənubi Qafqazda əbədi sülhün ancaq Azərbaycanın ərazi bütövlüyünün tam bərpası sayəsində mümkün olacağını dərk edirlər.

İkitərəfli münasibətlərin inkişaf trayektoriyası göstərir ki, aparılan dialoq möhkəm təməllərə malik strateji baxışın məhsuludur. Hər iki dövlətin rəhbəri dünyada yaranan mürəkkəb vəziyyətin konturlarını anlayaraq qarşıya çıxan təhdidləri zərərsizləşdirməyi bacarır. Rəsmi Riqa və rəsmi Bakı Avrasiyanın kəsişmə nöqtələrini nəzarətdə saxlayan, lakin eyni sülh platformasından çıxış edən güclü dövlətlərə çevriliblər. Azərbaycan və Latviya arasında gələcək illər ərzində daha da möhkəmlənəcək qarşılıqlı etimad və dəstək, eləcə də beynəlxalq çağırışlara ortaq siyasi baxış qitələrarası dialoqun parlaq nümunəsinə çevriləcəyinə əminik.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycanın ada dövlətlərə siyasi dəstəyi

**Aprelin 22-də Banqkok şəhərində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 82-ci sessiyası çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə sülh və iqlim dayanıqlılığı mövzusunda yüksəksəviyyəli müzakirə keçirilib.**

"Heç kəsi arxada qoymamaq" şüarı ilə Beynəlxalq Miqrasiya Təşkilatı və UNESCAP Katibliyinin dəstəyi ilə keçirilən məclisdə inkişaf etməkdə olan kiçik ada dövlətlərinin nazirləri, yüksəksəviyyəli dövlət nümayəndələri və beynəlxalq təşkilatların təmsilçiləri çıxış ediblər.

Tədbirdə əsas məruzəçi qismində çıxış edən XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmiz tərəfindən kiçik ada dövlətlərinə xüsusi diqqət və qayğının göstərildiyini vurğulayıb.

Ölkəmizin kiçik ada dövlətlərinə beynəlxalq texniki yardım, iqlim dayanıqlılığı və bacarıqların artırılması sahələrində dəstək göstərdiyini bildirən natiq bu səpkidə COP29 Azərbaycan sədrliyinin uğurlu təşəbbüslərindən biri olan Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin (Bakı Mərkəzi) cari ildə kiçik ada ölkələri ilə əməkdaşlıq planlarından danışıb.



Tonqanın daxili işlər naziri, həmçinin Maldiv, Tuvalu, Marşal adaları, Fici, Mikroneziya və Samoanın hökumət nümayəndələri ölkəmizin qlobal çağırışların həlli sahəsindəki liderliyini yüksək qiymətləndiriblər.

Eyni zamanda, qeyd edilib ki, COP29-un vacib təşəbbüslərindən olan Bakı Mərkəzi platforması çərçivəsində irəli sürülən və sülhə töhfə verən uğurlu iqlim təşəbbüsləri iqlim risklərinə həssas ölkələr üçün beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi və dayanıqlı maliyyələşmə mexanizmlərinin səfərbər olunması baxımından əhəmiyyətli imkanlar yaradır. Bu çərçivədə Mikroneziya və Marşal adalarının nümayəndələri Bakı Mərkəzi ilə əməkdaşlıq etmək məqsədilə müraciət ünvanlayıblar.

***XQ***

# Avropa Parlamentində nəzarət və saxtakarlıq qarşıdurması

## *Aİ-də səlahiyyətlər, toxunulmazlıq və nüfuz arasında tarazlıq axtarışı sınağı*

**Avropa İttifaqının təşkilati sistemində uzun illər mövcud olan problem son dövrlər daha çox nəzərə çarpmağa başlayıb. Söhbət nəzarət və toxunulmazlıq arasındakı incə balansdan gedir. Problemin kökündə Avropa Saxtakarlıqla Mübarizə Bürosu (OLAF) ilə Avropa Parlamenti arasında yaranmış gərginlik dayanır. OLAF-ın əsas vəzifəsi Avropa İttifaqının maliyyə maraqlarını qorumaq, fırıldaqçılıq və korrupsiya hallarını araşdırmaqdır. Lakin qurumun səlahiyyətləri inzibati araşdırmalarla məhdudlaşdırılır.**




Məsələnin mahiyyəti sadə dillə belə izah oluna bilər ki, OLAF araşdırma aparmaq istəyir, amma bunun üçün lazım olan fiziki və rəqəmsal çıxış imkanları onun nəzarətinə verilmir. Xüsusilə Avropa Parlamenti daxilində bu çıxışın əldə edilməsi prosedur qaydalar və siyasi həssaslıq səbəbindən mürəkkəbləşdirilir. Qurumun yeni baş direktoru Petr Klement problemi açıq şəkildə ifadə edərək bildirib ki, OLAF Parlament daxilində ehtimal olunan qanun pozuntularını effektiv şəkildə araşdıra bilmək üçün kifayət qədər çıxışa malik deyil. Onun fikrincə, məsələ mövcud səlahiyyətlərin sərhədlərinin aydınlaşdırılmaması ilə bağlıdır.

Klementin yanaşması təəccüb doğurmamalıdır. Çünki hazırkı qaydalara əsasən, OLAF Parlament binalarına daxil olmaq üçün 48 saat öncə icazə istəməlidir. Amma adi hallarda normal sayılan prosedur istintaq prosesi zamanı maneə yaradır. Çünki əvvəlcədən xəbərdarlıq zamanı potensial sübutlar məhv edilə və ya gizlədilə bilər. Əsas ziddiyyət bu məqamda ortaya çıxır. Görünür, Avropa Parlamenti özünü müstəqil qanunverici orqan kimi qorumağa çalışır və daxili məsələlərin xarici qurumlar tərəfindən araşdırılmasına ehtiyatla yanaşır.

Ehtiyatlı yanaşma xüsusilə 2022-ci ildə baş verən "Qatargate" qalmaqalından sonra daha da güclənib. Həmin hadisə Avropa Parlamentinin tarixində ən ciddi korrupsiya qalmaqallarından biri kimi yadda qalıb. Həmin vaxt Belçika hüquq-mühafizə orqanları bəzi deputatların və onların yaxınlarının xarici dövlətlərdən rüşvət aldığı iddialarını araşdırmağa başladı. İddialara görə, əsasən Qətər və Mərakeş Avroparlamentin qərarlarına təsir etmək istəyirdi. Bu məqsədlə bəzi siyasətçilərə pul, hədiyyə və digər imtiyazlar verildiyi bildirilirdi. Əməliyyatlar zamanı yüz minlərlə avro nağd pul aşkar edildi. Qalmaqalda ən çox diqqətçəkən fiqurlardan biri vitse-prezident Eva Kaili idi. O, korrupsiya və çirkli pulların yuyulması ittihamları ilə saxlanıldı, istintaqa cəlb olundu. Hadisə Avropa Parlamentində nəzarət və şəffaflıq mexanizmlərinin zəif olduğunu göstərdi. Eyni zamanda, OLAF kimi qurumların araşdırma imkanlarının məhdud olduğu üzə çıxdı. Bu qalmaqaldan sonra Parlament etik qaydaları sərtləşdirmək, korrupsiyaya qarşı tədbirləri gücləndirmək məcburiyyətində qaldı. Elə bu çərçivədə OLAF müstəntiqlərinin deputatların ofislərinə və elektron cihazlarına çıxışının məhdudlaşdırılması ciddi tənqidlərə səbəb oldu.

Hazırkı məsələ ilə bağlı Avropa Parlamenti də öz mövqeyini əsaslandırmağa çalışır. Parlamentin yanaşmasına görə, deputatların fəaliyyətinin araşdırılması, ilk növbədə, daxili mexanizmlər vasitəsilə həyata keçirilməlidir. Bu, bir növ "özünü tənzimləmə" prinsipidir. Lakin təcrübə göstərir ki, daxili nəzarət hər zaman obyektiv və kifayət qədər sərt olmur.

OLAF-ın nəzarət şurasının 2024-cü il hesabatında bu problem açıq şəkildə qeyd olunub. Hesabatda bildirilir ki, Parlament tez-tez OLAF-ın paralel araşdırmalar aparmasına qarşı çıxır və bunu öz səlahiyyətlərinə müdaxilə kimi qiymətləndirir. Bu isə, faktiki olaraq, istintaq prosesinin ləngiməsinə səbəb olur. Vəziyyətin kökündə daha dərin səbəblər dayanır. Xatırlatmaq yerinə düşər ki, Avropa İttifaqı çoxsəviyyəli idarəetmə sistemidir. Sözügedən sistemdə müxtəlif qurumlar arasında səlahiyyət bölgüsü bəzən üst-üstə düşmür və ya qeyri-müəyyən qalır. Nəticədə, hüquqi boşluqlar yaranır. Digər mühüm amil isə siyasi risk amilidir. Avropa Parlamenti ictimai legitimliyə əsaslanan bir qurumdur və onun nüfuzu seçicilərin etimadı ilə birbaşa bağlıdır. Korrupsiya iddiaları isə etimadı sarsıda bilər.

Avropa Komissiyası tərəfindən planlaşdırılan "antifırıldaqçılıq arxitekturası"nın yenilənməsi xüsusi əhəmiyyət kəsb edir. İslahatın məqsədi müxtəlif nəzarət qurumları arasında koordinasiyanı gücləndirmək və hüquqi boşluqları aradan qaldırmaqdır. Daha dəqiq desək, qaydaların yenidən yazılması vacibdir ki, kim nəyi edə bilər, hansı hallarda hansı qurumun üstünlüyü var, hansı prosedurlar tətbiq olunmalıdır.

Sonda qeyd edək ki, Petr Klementin "bizə səlahiyyət yox, şəffaflıq lazımdır" fikirləri məhz bu kontekstdə başa düşülməlidir. Çünki problem səlahiyyətlərin qeyri-müəyyənliyindən yaranıb. Avropa Parlamenti də müəyyən addımlar atıb. 2023-cü ildə qəbul edilən yeni qaydalar deputatlar üçün daha sərt şəffaflıq tələbləri müəyyənləşdirib. Şəxsi maraqların açıqlanması və lobbiçilik fəaliyyətinə məhdudiyyətlər bu istiqamətdə atılan addımlardandır. Amma bu tədbirlər problemin tam həlli üçün kifayət deyil. Çünki məsələ həm də hüquqi mexanizmlərin effektivliyindən asılıdır. Əgər balans düzgün qurulmasa, nəticələr siyasi və ictimai sahədə də hiss olunacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**

Xatırladaq ki, 2022-ci ildə "Qatargate" qalmaqalı zamanı Eva Kaili və bir sıra deputatların korrupsiya cinayətləri ifşa olundu, həmin şəxslər həbs edildi. Daha sonra həbs qətimkan tədbiri dəyişdirilsə də, onların barəsində istintaq davam etdirildi, hadisə Avropa Parlamentində ciddi siyasi qalmaqala səbəb oldu. Baş verənlər göstərdi ki, Avropa Parlamenti bir çox hallarda digər dövlətlər üçün nümunə kimi təqdim olunsa da, onun daxilində kifayət qədər qanunsuzluqlar və hüquq pozuntuları mövcuddur.

Əslində, bu gün Avropada müşahidə olunan fikir ayrılıqlarının əsas səbəblərindən biri məhz bu cür problemlərlə bağlıdır. Hətta ABŞ ilə Avropa arasında Ukrayna məsələsi ilə bağlı yaranan fikir ayrılıqlarına təsir edən amillərdən biri kimi bu mövzu tez-tez gündəmə gətirilir. Ukraynaya göstərilən hərbi və maliyyə yardımları ilə bağlı milyardlarla dollar vəsaitin təyinatı üzrə istifadə olunmaması barədə iddialar səsləndirilir. Bu baxımdan hesab etmək olar ki, OLAF-ın gələcək araşdırmalarında diqqət yetirəcəyi istiqamətlərdən biri məhz bu sahə olacaq. Bu məsələlərlə bağlı araşdırmalar Ukraynanın daxilində fəaliyyət göstərən və beynəlxalq nəzarət mexanizmləri ilə əlaqəli qurumlar tərəfindən aparılır. Hətta bəzi hallarda müəyyən sübutların mövcudluğu barədə açıqlamalar verilib.

OLAF-ın Avropa Parlamentində araşdırma aparmaq imkanlarının məhdudlaşdırılması təsadüfi deyil. Belə qənaət yaranır ki, müəyyən qüvvələr daha geniş araşdırmaların aparılmasında maraqlı deyil. "Qatargate" qalmaqalı zamanı ortaya çıxan faktlar göstərdi ki, korrupsiya şəbəkələri təkcə bir neçə şəxslə məhdudlaşmır. Bu isə istintaqın dərinləşməsi halında daha böyük siyasi nəticələrin ortaya çıxacağı ehtimalını gücləndirir. Məhz buna görə də müəyyən süni əngəllərin yaradılması ehtimalı istisna edilmir və bu cür maneələr ümumilikdə Avropa Komissiyası, Avropa Parlamenti və bütövlükdə Aİ-nin maraqlarına ziddir. Amma OLAF kimi qurum yaradılıbsa, onun effektiv fəaliyyəti üçün bütün zəruri şərait yaradılmalıdır.

# Azərbaycan–Latviya sənədləri imzalanıb




**Azərbaycan–Latviya biznes forumu çərçivəsində AZPROMO ilə Latviya Ticarət və Sənaye Palatası, "Caspian Energy Club International" MMC ilə "Power House Latvia" LCC arasında anlaşma memorandumları imzalanıb.**




Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bakıda keçirilən Azərbaycan–Latviya biznes forumunda çıxışı zamanı Azərbaycanla Latviya arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasının aprelin 15-də Şuşa şəhərində keçirildiyini xatırladıb, bu iclasda ticarət, kənd təsərrüfatı, mədəniyyət, turizm, təhsil və digər sahələrdə gələcək əməkdaşlıq üçün prioritet istiqamətlərin müəyyən edildiyini vurğulayıb. Nazir Məcnun Məmmədov qeyd edib ki, hər iki ölkədə əlverişli biznes mühiti və investisiya imkanları əlaqələrin genişləndirilməsi, yeni biznes əlaqələrinin qurulması baxımından mühüm əhəmiyyət daşıyır.

Nazir əlavə edib ki, mütəmadi biznes-forumların təşkili, rəqabətədavamlı ixrac məhsulları haqqında məlumat mübadiləsinin gücləndirilməsi və beynəlxalq sərgilərdə fəal iştirak hər iki ölkənin sahibkarları arasında əlaqələrin gücləndirilməsində əsas rol oynayacaq.

Məcnun Məmmədov aqrar texnologiyalar, ərzaq təhlükəsizliyi və məhsul ixracı sahələrində təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdırıb, bu sektorda tərəfdaşlığın hər iki ölkə üçün qarşılıqlı fayda verəcəyini bildirib.

Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze öz növbəsində iki ölkə arasında münasibətlərin əhəmiyyətinə toxunub. O, biznes-forumların işgüzar dairələr arasında əlaqələrin qurulması baxımından mühüm platforma olduğunu, bu cür tədbirlərin yeni investisiya imkanlarının yaradılmasına şərait yaratdığını, ticarət dövriyyəsinin genişlənməsinə və davamlı iqtisadi əməkdaşlığa töhfə verdiyini vurğulayıb.

Azərbaycan–Latviya biznes forumu çərçivəsində İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və Latviya Ticarət və Sənaye Palatası (LCCI) arasında Anlaşma Memorandumu imzalanıb.

"Caspian Energy Club International" MMC ilə "Power House Latvia" LCC arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Tədbirdə Azərbaycan və Latviyanın investisiya imkanlarına həsr edilmiş təqdimatlar keçirilib, hər iki ölkənin iqtisadi prioritetləri və xarici investorlar üçün yaradılmış imkanlardan bəhs olunub.

Biznes-forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər təşkil olunub, işgüzar əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib.

*XQ*

# Azərbaycanın Baş naziri Astana Ekoloji Sammitində



**Aprelin 22-də Astanada Qazaxıstan Respublikası Prezidentinin təşəbbüsü ilə keçirilən 2026-cı il Regional Ekoloji Sammiti (RES-2026) işinə başlayıb.**

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sammitdə iştirak edib.

Əvvəlcə iştirakçılar 2026-cı il Regional Ekoloji Sammitin sərgi pavilyonları, o cümlədən Azərbaycan pavilyonu ilə tanış olublar.

Sammitin plenar iclasında çıxış edən Ə.Əsədov vurğulayıb ki, Azərbaycan ətraf mühitin mühafizəsinə və iqlim dəyişikliyinə qarşı tədbirlərə böyük əhəmiyyət verir, onları milli və beynəlxalq davamlı inkişaf gündəliyinin ayrılmaz hissəsi kimi qiymətləndirir.

Baş nazir qeyd edib: "Bu kontekstdə Bakıda BMT-nin iqlim Konfransı - COP29-un keçirilməsi qlobal iqlim gündəliyində duran əsas məsələlər üzrə beynəlxalq səylərin konsolidasiyasına ölkəmizin çox vacib töhfəsi oldu".

Çıxışda su təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirilib. Vurğulanıb ki, iqlim dəyişikliyinin, şirin su çatışmazlığının artmasının və su ehtiyatlarına olan təzyiqin güclənməsi fonunda artan qlobal çağırışlar şəraitində su təhlükəsizliyi məsələləri beynəlxalq gündəlikdə prioritet əhəmiyyət kəsb edir.

Bu kontekstdə Azərbaycan Respublikasının BMT-nin himayəsi altında ixtisaslaşmış beynəlxalq su təşkilatının təsis edilməsinə dair Qazaxıstan Respublikasının təşəbbüsünə dəstəyi ifadə olunub.

Xəzər dənizində ekoloji vəziyyətlə bağlı problemlərə toxunan Baş nazir vurğulayıb ki, ən kəskin çağırışlardan biri Xəzər dənizinin səviyyəsinin sürətlə azalmasıdır.

O, Azərbaycanın regional qarşılıqlı fəaliyyətə sadiqliyini təsdiqləyərək qeyd edib ki, ölkə bu çağırışa qarşı səmərəli qarşılıqlı fəaliyyət göstərilməsi üçün Xəzəryanı dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində ardıcıl səylər göstərir.

Bu məsələ ilə bağlı qeyd olunub ki, Xəzərin səviyyəsinin azalması səbəblərini öyrənmək və müvafiq profilaktik tədbirlər görmək məqsədilə Azərbaycanın təşəbbüsü əsasında Qazaxıstan, Rusiya və Türkmənistan ilə ikitərəfli işçi qrupları yaradılıb.

Ətraf mühitin deqradasiyasına ciddi təsir göstərən iqlim faktorlarını plenar iclasın iştirakçılarının diqqətinə çatdıran Əli Əsədov bu çağırışlara cavab verilməsi üzrə Azərbaycanda görülən ardıcıl tədbirlərdən danışıb: "Biz bərpaolunan enerji mənbələrini fəal şəkildə inkişaf etdirərək, yaşıl energetikaya keçidə üstünlük veririk. Hidroenerji sahəsində layihələrin fəal şəkildə həyata keçirildiyi azad olunmuş ərazilərdə yaşıl energetika zonalarının yaradılmasına xüsusi diqqət yetirilir".

Baş nazir qeyd edib ki, COP29-un uğurla keçirilməsi təcrübəsinə əsaslanan Azərbaycan UN-Habitat ilə əməkdaşlıq şəraitində bu ilin may ayında təşkil ediləcək 13-cü Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi etməyə hazırlaşır.

Plenar iclasın iştirakçılarına Azərbaycanın iyun ayında ev sahibliyi edəcəyi daha bir mühüm tədbirə - 2026-cı il Ümumdünya Ətraf Mühit Gününə hazırlıq barədə də məlumat verilib.

Baş nazir vurğulayıb ki, Azərbaycan qlobal davamlı inkişaf gündəliyini irəli aparmaq və şəhərsalma və ekologiya sahəsində beynəlxalq səyləri birləşdirmək üçün bu platformalardan istifadə etmək niyyətindədir.

Çıxışına yekun vuran Ə.Əsədov qeyd edib ki, Azərbaycan beynəlxalq əməkdaşlıq prinsiplərinə sadiq qalır və ortaq məqsədlərə nail olunmasına fəal şəkildə töhfə verməyə hazırdır.

*XQ*

# 5 Azərbaycan vətəndaşı da Suriyadan geri gətirilib

**Aprelin 21-də Suriyanın münaqişə bölgəsindən 2 qadın və 3 uşaq olmaqla, ümumilikdə, 5 nəfər Azərbaycan vətəndaşının Türkiyədən ölkəmizə repatriasiyası həyata keçirilib.**

İlk növbədə, repatriantların yeri, şəxsiyyəti və Azərbaycan vətəndaşlığına mənsubiyyəti müəyyən edilib və daha sonra Türkiyə ərazisinə keçidi təşkil olunub.



Azərbaycanın Türkiyədəki səfirliyi və İstanbuldakı baş konsulluğu tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycana qayıdış şəhadətnamələri və uçuş biletləri ilə təmin edilib. Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

*XQ*

# Qorxutma və rüşvətə bel bağlayan Ermənistan müxalifəti

**İyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkiləri ölkədaxili siyasi balansın yenidən formalaşacağı kritik mərhələ kimi qiymətləndirilir. Bu proses təkcə hakimiyyət uğrunda mübarizə deyil, həm də cəmiyyətin son illərdə baş verən hadisələrə verdiyi reaksiyanın göstəricisi olacaq.**

Seçkilər öncəsi həm iqtidar, həm də müxalifət düşərgəsində fəallıq nəzərəçarpacaq dərəcədə artıb. Xüsusilə təhlükəsizlik, sülh gündəliyi və sosial-iqtisadi vəziyyət əsas müzakirə mövzularına çevrilib. Müxtəlif siyasi qüvvələr seçicilərin etimadını qazanmaq üçün fərqli yanaşmalar ortaya qoymağa çalışırlar. Bununla yanaşı, ictimai rəy sorğuları seçkilərin nəticələrinin əvvəlcədən proqnozlaşdırılmasını çətinləşdirən qeyri-müəyyən mənzərəni ortaya qoyur. Xarici amillərin və regional proseslərin də seçki dinamikasına təsiri istisna edilmir. Bütün bu amillər fonunda qarşıdakı seçkilər Ermənistanın gələcək siyasi taleyinin müəyyənləşməsi baxımından həlledici əhəmiyyət daşıyır. Bir neçə gün öncə Rusiyanın "RBK" nəşri Ermənistandakı parlament seçkilərinin son dərəcə mühüm hadisə olduğunu vurğulamışdı. Çünki nəticələrə əsasən baş nazir müəyyən olunacaq və bununla da ölkənin siyasi kursu formalaşacaq. Qeyd edilmişdi ki, Nikol Paşinyanı baş nazir postu uğrunda ciddi mübarizə gözləyir: onun şansları olsa da, rəqabət kifayət qədər güclü olacaq.

*

Ölkənin həm yazılı, həm də onlayn media resurslarında seçki prosesi, namizədlərin şansları, baş nazir postunu hansı siyasi qüvvənin təmsilçisinin tutacağı təqdirdə ölkənin inkişaf istiqamətinin necə olacağı ilə bağlı məqalələr əksini tapır. Bu baxımdan özünün obyektivliyi ilə seçilən, həm iqtidarı, həm də müxalifəti kəskin tənqid etməsi ilə populyarlıq qazanan "ArmenianReport" saytında yerləşdirilmiş məqalə diqqəti cəlb edir. "Şanssız müxalifət: qorxuya və rüşvətə "stavka" sərlövhəli müqayisəli təhlildə bildirilir ki, Ermənistanda siyasi dövr yenidən kəskinləşmə mərhələsinə daxil olur: iyun seçkilərinin yaxınlaşması cəmiyyətdə narahatlığı gücləndirir, müxalifətin struktur zəifliklərini üzə çıxarır və eyni zamanda, daxili və xarici çağırışlara baxmayaraq, mövqeyi nisbətən sabit qalan Nikol Paşinyan hakimiyyətinin dayanıqlığını göstərir. Qeyd edilir ki, bu şəraitdə seçici uğrunda mübarizə getdikcə klassik rəqabətli siyasətin çərçivəsini aşaraq manipulyasiyalar müstəvisinə – həm informasiya, həm də birbaşa maddi təsir vasitələrinə yönəlir: "Sirr deyil ki, bu gün erməni müxalifətinin əsas problemi resurs çatışmazlığından çox, inandırıcı alternativ gündəliyin olmamasıdır. Son illər Paşinyan hakimiyyəti bir neçə







böhran – müharibənin nəticələrindən tutmuş əsas "müttəfiq"ə (Rusiya nəzərdə tutulur–S.H.) inamın sarsılmasına qədər – yaşasa da, müxalif qüvvələr ictimai narazılığı sabit elektoral kapitala çevirə bilməyiblər. Səbəb müxalifətin öz daxilində parçalanmış durumda olmasında, vahid qərarvermə mərkəzinin olmamasında və ən əsası, onun ideoloji ətalətində gizlənir".

Müəllif Tevos Arşakyan yazır ki, bu şəraitdə çirkli informasiya kampaniyası az qala siyasi mübarizənin əsas alətinə çevrilir: "Müxalif dairələrlə əlaqəli saytlar və "Telegram" kanalları fəal şəkildə gələcəyin elə bir həyəcanlı mənzərəsini formalaşdırırlar ki, burada ənənəvi xarici siyasət kursundan hər hansı kənarlaşma ekzistensial təhlükə kimi təqdim olunur. Bu ritorikanın mərkəzi elementi Avrasiya İqtisadi İttifaqından mümkün uzaqlaşma və Rusiya ilə əlaqələrin zəifləməsi mövzusudur. Onun sözlərinə görə, Ermənistanın Aİİ-dən çıxması Rusiyada hiss olunmayacaq, lakin Ermənistan üçün bu, iqtisadi kollapsla nəticələnəcək. Yəni ictimai məkan sistemli şəkildə elə ssenarilərlə doldurulur ki, guya, Qərbə yönələndən sonra qaçılmaz olaraq iqtisadi kollaps, sosial qeyri-sabitlik və geosiyasi təcrid baş verəcək. Bu cür arqumentasiya mürəkkəb reallığın şüurlu şəkildə sadələşdirilməsi üzərində qurulur. Ermənistanın Avrasiya məkanından iqtisadi asılılığı, həqiqətən, böyükdür, lakin bu, statik göstərici deyil və son illərdə transformasiya əlamətləri nümayiş etdirir. Bu faktı nəzərə almayan müxalifət mediası daha çox təhlil aparmağa deyil, qorxunu səfərbər etməyə çalışır".

Bildirilir ki, informasiya təzyiqi baş verənlərin yalnız bir tərəfidir. Seçkilər yaxınlaşdıqca elektorata təsirin daha birbaşa formaları da qeydə alınır: "Ermənistanın Antikorrupsiyaya Komitəsi ayrı-ayrı müxalif qüvvələrin banal seçici rüşvəti praktikasına keçdiyini göstərən faktlar aşkarlayıb. Rəsmi məlumatlara görə, "Güclü Ermənistan" partiyasının üzvləri ictimai təşkilat adı altında fəaliyyət göstərən bir qrup şəxslə birlikdə Ararat vilayətinin Artaşat icmasında seçicilərə rüşvət paylayıblar. Onlar fəaliyyətlərini əlaqələndirmək üçün internet tətbiqlərindən istifadə ediblər ki, bu da həmin prosesə təşkilatlanmış və gizli xarakter vermək cəhdindən xəbər verir. Hüquq-mühafizə orqanlarının reaksiyası kifayət qədər operativ olub: cinayət işi başlanıb, axtarışlar aparılıb, 10-dan çox şəxs saxlanılıb. Bu epizod özlüyündə postsovet məkanı üçün nadir hal olmasa da, mövcud siyasi vəziyyət kontekstində xüsusi əhəmiyyət kəsb edir. Söhbət, sadəcə, lokal qanun pozuntusundan deyil, daha dərin problemin – müxalifətin bir hissəsinin legitim siyasi rəqabət çərçivəsində fəaliyyət göstərə bilməməsinin simptomundan gedir".

Qeyd edilir ki, bu cür praktikaların ikili effektinin olduğunu başa düşmək vacibdir. Bir tərəfdən, onlar ayrı-ayrı dairələr və ya icmalar səviyyəsində qısamüddətli nəticə verə bilər. Digər tərəfdən isə ümumilikdə, müxalifətə inamı sarsıdır, onu məqsədə çatmaq üçün istənilən vasitəyə əl atmağa hazır qüvvə kimi təqdim edir. Seçici etimadının onsuz da məhdud resurs olduğu şəraitdə bu cür addımlar faktiki olaraq mövcud hakimiyyətin mövqelərinin möhkəmlənməsinə xidmət edir. "Bu fonda Paşinyanın strategiyası daha ardıcıl görünür. Tənqidlərə və obyektiv çətinliklərə baxmayaraq, onun komandası institusional nəzarət, mötədil islahatlar və xarici siyasətdə ehtiyatlı manevr kombinasiyasına söykənməkdə davam edir. Müxalifətdən fərqli olaraq, hökumət hər zaman populyar olmasa da, nisbətən bütöv "Real Ermənistan" gələcəyi modelini təklif edir və bu modeldə ölkə mövcud əlaqələri kəskin şəkildə qırmadan müxtəlif güc mərkəzləri arasında balans yaratmağa çalışır".

Məqalədən göründüyü kimi, revanşist duyğularla yaşayan müxalifət hələ də vahid strategiya və inandırıcı siyasi xətt formalaşdırmaqda çətinlik çəkir. Parçalanmış strukturu, ideoloji qeyri-müəyyənliyi və daha çox keçmişə söykənən yanaşmaları onun seçici qarşısına alternativ güc kimi çıxmaq imkanlarını zəiflədir. Bu isə seçki mübarizəsində diqqətin proqram və ideyalardan daha çox emosional təsir vasitələrinə yönəlməsinə gətirib çıxarır. Xüsusilə qorxu üzərindən qurulan informasiya kampaniyaları və Qərbə inteqrasiyanın fəlakətli nəticələr doğuracağı barədə iddialar cəmiyyətdə narahatlıq yaratmağa hesablanıb.

Digər tərəfdən, rüşvət və birbaşa təsir mexanizmlərinin gündəmə gəlməsi müxalifətin təşkilati zəifliyini daha açıq şəkildə ortaya qoyur. Bu cür üsullar qısamüddətli effekt versə də, uzunmüddətli perspektivdə siyasi etimadı aşındırır. Belə şəraitdə hakimiyyətin daha sistemli və ardıcıl görünməsi təsadüfi deyil. Mövcud kursun tənqidə açıq tərəfləri olsa da, onun müəyyən çərçivəyə malik olması seçici davranışına təsir edən əsas amillərdən birinə çevrilir. Bu isə seçkilərin nəticəsinə yalnız rəqabətin səviyyəsinin deyil, həm də tərəflərin təqdim etdiyi siyasi modelin keyfiyyətinin təsir etdiyini göstərir.

***Səxavət HƏMİD***
***XQ***

**II MƏQALƏ**

# Siyasət və süni intellekt

## Təsdiqlənməmiş informasiya

Dövlət siyasəti kontekstində təsdiqlənməmiş informasiyaların ictimai mühitdə oynaya biləcəyi rolda süni intellekt faktorunu axtarmaq ilk baxışdan qondarma görünə bilər. Ancaq süni intellektin özünün mahiyyəti üzərində düşünəndə başqa mənzərə yaranır: məhz süni intellekt fərqinə varmadan əsassız, xüsusi qərəz məqsədi ilə yaradılmış informasiyanın, demək olar hüdudsuz və siyasi sərhədsiz yayılmasının başlıca vasitəsi ola bilər.

Məsələ onunla bağlıdır ki, hər bir süni intellekt növünü insan yaradır. Buna görə də yekunda süni intellektin "iradəsi", "ağılı", "sözünün kəsəri", "təsir dairəsi", "nüfuzetmə miqyası və dərinliyi" birbaşa insanın öncədən onun üçün hansı səviyyədə proqram hazırlamasından asılıdır. Hələlik bu çərçivəni ideya, layihə, reallaşma texnologiyası və yaradılma materiallarının təbiəti aspektlərində heç bir süni intellekt nümunəsi aşa bilməmişdir.

Vədlər və nəzəri-konseptual layihələr çoxdur, ancaq praktiki olaraq hələlik süni intellektin bütün növləri "insanın sözünü deyir". Fəlsəfədə belə bir deyim var: "nə deyilirsə, kimsə tərəfindən deyilir"! Yəni tam universal, obyektiv, heç nədən və kimsədən asılı olmayan söz və fikir mövcud deyildir (Müqəddəs kitablarla işimiz yoxdur).

İndi situasiyanı siyasət kontekstində informasiya müharibəsi aspektində təsəvvür edək. Daha güclü informasiya texnologiyalarına sahib olan ambisiyalı bir dövlətin süni intellektdən informasiya müharibəsində xüsusi məqsədli fəaliyyətinin sərhədlərini kimi müəyyən edə bilər? Və ya öncədən onun niyyətlərinin tam təsnifatını apara bilər?

Heç kimsə! Bunun səbəbi heç də informasiya texnologiyasının qeyri-bərabər (regionlar və ölkələr üzrə) inkişaf etməsində deyil, informasiyanın ötürülmə mexanizmlərinin misli görünməmiş üsul, forma və məqsəd almasındadır.

İnformasiya elə mütəhərrik və nüfuzetmə özəlliyi ilə fərqlənən fenomendir ki, onun yaradılma, yayılma və nüfuzetmə aspektlərində sonsuz sayda ssenarilərini hazırlamaq mümkündür. Buna görə də informasiyanın yaradılması, yayılması və xüsusi məqsədə xidmət etməsini tam olaraq öncədən müəyyən etmək imkansızdır.

Əgər söhbət cəmiyyətin əksər kəsimini təşkil edən adi vətəndaşlardan gedirsə, imkanlar ikiqat artmış olur, çünki həmin kəsim informasiyanı daim məişət həyatının prizmasında mənalandırır. Burada da adətən birbaşa məzmun və funksiya önə çıxır – insan qəbul etdiyi informasiyanı hərfən dəyərləndirməyə meyillidir.

Deməli, formaca normal görünən, lakin



məzmununun alt qatında xüsusi məqsəd daşıyan informasiyanı insanların təhrif olunmuş qavraması qüsur deyildir, insan təbiətinin mahiyyətidir. Məhz bundan güclü informasiya potensialı olan dairələr xüsusi siyasət üçün istifadə edirlər. Bu dalğada, təbii ki, insanlar informasiyanın təsdiq olub-olmamasını müəyyən edə bilməzlər. Belə vəziyyət xüsusi məqsədli informasiyanı həqiqət kimi sosiuma sırımağa geniş imkanlar açır.

Hazırda dünya miqyasında bunun milyonlarla nümunəsi bəşəriyyətin mədəni, siyasi, sosial, iqtisadi, ekoloji, təhlükəsizlik və s. "kimliyi"ndə dolaşmaqdadır. Hətta indi bu aspektdə o qədər qəliz informasiya mühiti yaratmışlar ki, sanki Yer planet olaraq bu "informasiya ağırlıq və şantajına dözə bilməyib özünü partladacaq"! Ancaq biz bu qədər universal miqyasa deyil, indiki həyatımızda təsdiq olunmamış informasiyaların yayılmasında "süni intellektin möhtəşəm rolu"na (daha doğrusu, bu məsum texniki yeniliyi həmin qərəzə məhkum edənlərin siyasətinə) baxaq.

## Süni intellektin "aldanması"

Təsdiqlənməmiş informasiyanın süni intellekt vasitəsilə (müxtəlif çatlar, Youtub, Votsap, X, Tik-Tok və digər informasiya platformaları) istənilən formada yayılması yeni texnologiyaların "aldadılmasıdır". Görünür, insanlar onları məhz (həm də) öz gizli məqsədləri üçün istifadə etməyə yaratmışlar. Yəni "yüksək dərəcədə maskalanmaqla hədəfi necə aldatmaq olar?" kimi niyyətlər ortadadır (əlbəttə, bütün hallarda belə deyildir və burada söhbət ancaq informasiya müharibəsinin aparılmasından gedir, yəni vurğuladığımız müddəanı universallaşdırmaq və bədbin yönə istiqamətləndirmək qətiyyən yolverilməzdir).

Belə alınır ki, informasiya müharibəsində informasiyanın əsaslandırılmaması və təsdiqlənməməsi məlumatın mahiyyətindən irəli gəlmir – o, xüsusi insani məqsədin konkret kontekstdə təsiri ola bilən niyyətidir. Nümunə kimi bir prosesi qısa təqdim edək.

Hələ bir il bundan öncə müxtəlif informasiya mənbələri vasitəsilə belə bir "astroloji proqnoz" yaydılar: 2026-cı ilin əsas geosiyasi xüsusiyyəti nəzarətsiz informasiyaların daha geniş aspektdə yayılması, ilk növbədə, siyasi liderlərin və tanınmış insanların həyatına aid yoxlanmamış informasiyaların yayılmasının və müxtəlif pandemiyaların vüsət almasının ciddi yer tutmasından ibarət olacaq.

Bu cür "öncəgörmə"nin alt qatdakı semantikası ondan xəbər verir ki, 2025-ci ildən başlayan informasiya şantajı yeni forma və vüsətlə dünyanı zəbt edəcək. Bu ilin ilk ayları bu "proqnozu" (əslində öncədən hazırlanmış fəaliyyət sxemini) tam təsdiq edir.

Məsələn, D.Tramp ən çox sevdiyi fotonu jurnalistlərə necə təqdim etmişdir? Həmin fotonun alt qatda mənası belədir: "mən istədiyimi edəcəm, qəbul etsəniz də, etməsəniz də"! Əlbəttə, bu rəmz informasiya daşıyıcısı kimi keçici deyildir. Burada siyasi güc, qüdrət və onları həyata keçirmək tərzi yığcam ifadə olunmuşdur. Və bütövlükdə həmin üsul dünyanın hər bir böyük gücünə aiddir.

Əlbəttə, məsələ bununla məhdudlaşmır. Dünyanın bir çox siyasi liderləri, onların ailələri, yaxın ətrafı, keçmişi haqqında süni intellekt vasitəsilə qondardıqları mətnlər, səslər, obrazlar, "faktlar" vasitəsilə nələri yaymırlar? Gündəlik həyatın mürəkkəblikləri içində yaşayan adi insan həmin informasiyaların qondarma olduğunu necə anlasın? Onun gücü - Tik-Tokda belə göstərmişlər, "X"də belə yazmışlar, "Yotubda gözlərimlə gördüm" gördüm kimi "isbatlara" çatır. Və prosesin əslində hansı məqsədlə təşkil edildiyi anlanana qədər kütlə yalan informasiyanın təsiri altına düşür. Bu da seçkilərə, ictimai rəyin dəyişməsinə, cəmiyyətdə sosial münasibətlərin gərginləşməsinə, toplumun rəy baxımından parçalanmasına, cəmiyyətin öz rəhbərliyinə və elit təbəqəsinə qarşı hirsli olmasına gətirib çıxarır.

Bu kontekstdə "Epşteyn" olayına baxaq. Başdan-ayağa təsdiqlənməmiş, lakin müəyyən faktlarla əlaqəsi olan informasiya təsiridir. Bizcə, bu, öncədən xüsusi məqsədlə hazırlanmış prosesdir. Əlbəttə, Epşteyn və ona bənzərlərin dünyanın müxtəlif siyasi kəsimləri ilə əlaqələri ola bilər. Ancaq onu məhz indi və xüsusi niyyətlə aktuallaşdırmaları səbəbsiz deyildir. Hətta Böyük Britaniyanın baş naziri Epşteynlə əlaqəsi olan birinin nazir təyin edilməsinə görə cəmiyyətdən üzr istəyir!

## İnformasiya müharibəsinin yeni növü

Bu prosesin qarşısını almaq mümkündürmü? Bizcə, ehtimal çox azdır və zaman-zaman seçilən hədəflə bağlı həmin xüsusi məqsədli informasiyalar müxtəlif peşəkar simulyasiyalarla yayılacaq. Eyni zamanda, problem yalnız "Epşteyn"lə məhdudlaşmır. Hazırda çox müxtəlif informasiya kanalları, kompüter simulyasiyaları və "məntiqi və faktlarla dolu arqumentli" təqdimatlar dünya informasiya məkanını zəbt edir ki, mənbəni müəyyən etmək çox çətin olur. İndi mənbə ilə hədəf bir-birinə qarışmışdır. Ümumi informasiya mənzərəsi ziddiyyətli, məntiqsiz və antifəzilət xarakterli "memlər"lə doludur.

Bu xüsusda kiçik bir haşiyə çıxaq. Azərbaycan və Türkiyə istiqamətində təsdiqlənməmiş, əsaslandırılmamış informasiyaların süni intellekt vasitələri ilə yayılması getdikcə intensivləşir. Bu prosesi son zamanlar daha çox türk dövlətlərinin liderlərinə qarayaxma kampaniyası kimi aparırlar. Həmin bağlılıqda son nümunələrdən biri Atatürkün ingilis imperatoru qarşısında guya baş əyməsini göstərən kompüter görüntüsüdür.

Azərbaycan rəhbərliyi haqqında da olmazın uydurmalarla ictimai rəyi çaşdırmağa cəhdlər edirlər. Xüsusilə xaricdə yuvalanmış bir qrup şantajçı və təxribatçıdan bu məqsədlə istifadə olunması acı təəssüf hissi doğurur!

Burada iki əsas məqsəd özünü göstərir: birincisi, ümumiyyətlə, türk dövlətləri, ölkələri və xalqlarının sivil olmadığı təəssüratı yaratmaq. Bunun əsas səbəbi XXI əsrdə ilk növbədə məhz türk xalqlarının müstəqil yaşamaq uğrunda qətiyyətli mübarizə aparmasıdır. Burada Azərbaycanın oynadığı rol danılmazdır.

Məhz Azərbaycan təkbaşına bir çox böyük dövlətlərə qarşı mübarizə apararaq (o cümlədən informasiya mübarizəsi, çünki Prezident İlham Əliyevin hərbi əməliyyatlar müddətində möhtəşəm informasiya mübarizəsi qətiyyən unudlamaz!) Vətən müharibəsində qalib gəlməsi tarixi bir dönüş idi. Postmüharibə mərhələsində də Azərbaycan Prezidenti informasiya sferasında çox səmərəli siyasət həyata keçirir və sistemli şəkildə bundan sonrakı qələbələr üçün istiqamətlər müəyyənləşdirir.

Bütün bunların sayəsində indi türklərin dövlət qura bilmək və onu hüquqi əsasda inkişaf etdirmək potensialının çox böyük olduğunu ən qərəzli dairələr belə qəbul etməyə məcburdurlar.

Deməli, dünyanın hər bir müstəqil dövləti çox kəskin şəkildə informasiya müharibəsinin reallıqları ilə üz-üzə qalmışdır və onunla mübarizə qaçılmazdır. Süni intellekt kontekstində bu mənzərədə çox önəmli bir məqam mövcuddur. Biz ümumi şəkildə süni intellektin insan tərəfindən, məcazi desək, "aldanması"nın mümkün informasiya, sosial, siyasi, mənəvi-əxlaqi və ümumi halda dövləti fəsadları ilə bağlı olmasını nəzərdə tuturuq.

Yəni təsdiqlənməmiş informasiya siyasətin bir parçası olanda, bütövlükdə mənzərə çox mürəkkəbləşir və onunla mübarizə məsələsi daha da aktuallaşır. Belə alınır ki, faktiki olaraq, informasiya müharibəsinin hədəfi süni intellekt deyil, ondan süni istifadə edənlər olmalıdırlar. Bu isə artıq həmin dairələrə qarşı xüsusi qələbə hədəfli antikurs formalaşdırmağı tələb edir. Həmin kursun formalaşdırılması sırf siyasət məsələsidir. Onun önəmli saydığımız iki aspektini vurğulamaq istərdik.

Birincisi, Azərbaycan da daxil olmaqla geniş bir geosiyasi məkanda yerləşən ölkələrə qarşı faktiki olaraq pozucu xarakterli yeni informasiya müharibəsi növü meydana gəlir. Onu şərti olaraq "posthibrid informasiya müharibə" adlandıra bilərik. Onun izahını irəlidə verəcəyik.

İkincisi, informasiya müharibəsində süni intellektin imkanlarından sistemli surətdə Azərbaycanın strateji siyasi kursu və ayrıca ölkəmizdə süni intellektin inkişaf strategiyası kontekstlərində yararlanmaq xətti konseptual səviyyədə müəyyən edilməlidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Avropa qübbəsi" seçkiyə müdaxiləni dəf edəcəkmi?

## *Söhbət Brüsselin iyunun 7-də ermənilərin öz gələcəklərini müəyyən etmək hüququnu necə qorumasından gedir*



**Avropa İttifaqının (Aİ) Xarici İşlər Nazirləri Şurası Vahid Təhlükəsizlik və Müdafiə Siyasəti çərçivəsində fəaliyyət göstərən Aİ-nin Ermənistana yeni mülki Tərəfdaşlıq Missiyasının (EUPM Armenia) yaradılmasını rəsmən təsdiqləyib. Qərargahı Ermənistanda yerləşəcək yeni missiyanın iki illik mandatı olacaq. Ona Aİ Xarici Fəaliyyət Xidmətinin Mülki Planlaşdırma üzrə direktoru Stefano Tomat rəhbərlik edəcək. Aydın məsələdir ki, bu təşəbbüs iyunun 7-də keçiriləcək parlament seçkilərinə təsadüf edən qısamüddətli monitorinq qrupunun işinin məntiqi davamı sayılmalıdır. Aİ 7 iyun parlament seçkiləri ərəfəsində Ermənistanın informasiya məkanının qorunmasını maliyyələşdirəcək. Bəs ölkəyə təhlükə haradan qaynaqlanır və bu, özünü nədə və necə göstərir?**

### Seçkiqabağı hazırlıq

Sualımıza cavab tapmazdan əvvəl bir qədər geriyə qayıdaraq oxuculara xatırladaq ki, 2025-ci il dekabrın 2-də Ararat Mirzoyan, Kaya Kallas və Marta Kosun Brüsseldə baş tutan görüşündə Aİ-nin parlament seçkiləri öncəsi Ermənistanın informasiya məkanının qorunmasını maliyyələşdirəcəyi qərara alınmışdı. Belə bir qərarın qəbul olunmasının əsas motivi Avropa rəsmilərinin Ermənistanla Moldovada "rus izi" paraleli apararaq xarici müdaxilə və dezinformasiya risklərinə işarə vurmaları idi. İndi bu sövdələşmənin praktik işlərdə təcəssüm etdiyini görürük. Rəsmi açıqlamaya görə, avropalı mütəxəssislər "xarici informasiya manipulyasiyası, kiberhücumlar və qeyri-qanuni maliyyə axınları" ilə mübarizəyə diqqət yetirəcəklər. EUPM-nin öhdəliklərinə Ermənistan nazirlikləri və müvafiq qurumları üçün strateji məsləhətlər və potensialın inkişafı daxildir. "Missiya, həmçinin cəmiyyətə və dövlət institutlarına qarşı mövcud təhdidlərə cavab vermək üçün effektiv mexanizmlərin işlənib hazırlanmasına, kompleks yanaşmanın təşviqinə və hökumət daxilində üfüqi əlaqələrin qurulmasına kömək edəcək", – məlumatda deyilir.

Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın vurğuladığı kimi, Ermənistan cəmiyyəti hazırda kütləvi dezinformasiya kampaniyaları ilə üz-üzədir və Brüsselin vəzifəsi ölkə vətəndaşlarının seçki qutularında öz gələcəklərini müstəqil müəyyən etmək hüququnu qorumaqdır. Bu məqsədlə Brüssel martın ortalarında İrəvana qısamüddətli "çevik reaksiya qrupunun" göndərildiyini elan etdi. Növbəti bir neçə həftə ərzində avropalı ekspertlərin kiberməkanda böhranların idarə olunması üçün ilkin protokolların işlənib hazırlanmasında Ermənistanın Baş naziri Aparatına və Təhlükəsizlik Şurasına yardım edəcəyi bildirilirdi.

### Ehtiyacdan doğan zərurət

Aİ-nin bu qərarı 2023-cü ildə İrəvan və Moskva arasında münasibətlərin əhəmiyyətli dərəcədə soyuması fonunda başlayan qurumla daha geniş yaxınlaşma prosesinə uyğun gəlir. Bu dəyişikliyin katalizatoru isə 2022-ci ilin payızında Ermənistan–Azərbaycan sərhədində baş verən məlum hərbi insidentlər oldu. Aİ "gərginliyə" cavab olaraq, Ermənistanda ilk mülki müşahidəçi missiyasını yerləşdirdi. 2023-cü ilin fevralında 100 nəfərlik komanda ilə fəaliyyətə başlayan missiya tezliklə iştirakçı sayını ikiqat artırdı. 2025-ci ilin yanvarında missiyanın mandatı 2027-ci ilin fevralına qədər uzadıldı. Bu zaman Brüssel iki strukturun funksiyalarını belə fərqləndirir: birinci missiya sırf sərhədyanı ərazilərin fiziki monitorinqi ilə məşğul olur, ikincinin diqqəti Ermənistana mümkün hibrid hücumlara yönəldiləcək. Məqsəd aydındır. O da deyilir ki, avropalı diplomatların fəaliyyəti sırf müdafiə xarakteri daşıyır və missiya sülh prosesi üçün təhlükəsizlik tədbirləri barədə Bakı ilə məsləhətləşmələr aparmaq niyyətindədir.

Rəsmi İrəvan kənardan yardıma ehtiyacını müasir informasiya hücumlarının spesifikliyi ilə izah edir. Deyilir ki, bu hücumların ilkin mənbələri müntəzəm olaraq yerli fakt-checkinq mütəxəssisləri tərəfindən aşkar edilir. Ekspertlər və siyasətçilər qeyd edirlər ki, Ermənistan "ikiqat" və "çoxqatlı" prinsiplər əsasında fəaliyyət göstərən mürəkkəb dezinformasiya kampaniyalarının hədəfinə çevrilib. "Hücumçular", misal üçün, "France 24" kimi nüfuzlu qlobal media orqanlarının klon vebsaytlarını yaradır və sonra hazırladıqları saxta məlumatları "X" və "Telegram" kanalları vasitəsilə kütləvi şəkildə sosial mediaya yayırlar. Bu proksi kampaniyanın ictimai rəyə təsirinin miqyasını təsəvvürünüzə gətirməyə çalışın.

### Kreml təkzib edir...

Moskva onun ünvanına səslənən bu cür ittihamları qəti şəkildə rədd edir. Kreml Aİ-nin yeni təşəbbüsünü yalnız "geosiyasi təsir" vasitəsi və "Moldova ssenarisinin proyeksiyası" kimi qiymətləndirir. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova hətta İrəvana rusiyalı mütəxəssislərin alternativ köməyini təklif edib. İrəvan bu təklifə hələlik cavab verməyib. Məqsədlərinin aydın olmasına baxmayaraq, İrəvan və Brüsselin seçkidə gözlənilən təhlükələrin mənbələri ilə bağlı ritorikaları kəskin şəkildə fərqlənir. Kaya Kallas da daxil olmaqla, yüksək rütbəli avropalı məmurlar açıq şəkildə Rusiyanı regionda sabitliyin pozulmasının əsas mənbəyi kimi göstərsələr də, rəsmi İrəvan bu cür ittihamlardan yayınmağa üstünlük verir. Ermənistan parlamentinin Avropaya inteqrasiya üzrə daimi komissiyasının rəhbəri Arman Yeqoyan bunu praqmatizmlə əlaqələndirir, avropalı tərəfdaşlarla konseptual fikir ayrılıqlarını rədd edir. O, iddia edir ki, hibrid təhlükələr seçkilərin ertəsi günü yox olmayacaq, buna görə də İrəvan Aİ-dən uzunmüddətli institusional dəstək istəyib. Hay deputat vurğulayır ki, hakimiyyətin vəzifəsi gurultulu siyasi bəyanatlar vermək deyil, ölkənin məhdud resurslarından təhdidləri neytrallaşdırmaq üçün istifadə etməkdir: "Mən Avropa rəsmilərindən fərqli mövqedəyəm. Məqsədim Ermənistana mövcud təhlükələrin üstünə yeni təhdidlər gətirmək deyil, artıq mövcud olanları zərərsizləşdirməkdir. Biz boks rinqində deyilik, burada hər zərbə əks zərbə ilə qarşılanmalıdır".

### "Moldova ssenarisi"nin təkrarlanmaması üçün

Erməni politoloq, Qafqaz İnstitutunun direktoru Aleksandr İskəndəryan İrəvanla Brüssel arasında seçkiyə yanaşmada fərqi açıqlayaraq deyib ki, Moskva ilə açıq şəkildə münaqişədə olan Aİ-dən fərqli olaraq, Ermənistan Rusiyadan dərin geosiyasi və iqtisadi asılılığını saxlayır. O, "DW"yə müsahibəsində bunu belə izah edib: "İstənilən gələcəkdə Ermənistan hökuməti bu əlaqələri saxlamağa məcbur olacaq, ona görə də rəsmilər Qərb paytaxtlarının radikal ritorikasına dözə bilməzlər". Eyni zamanda, Ermənistan müxalifəti hakimiyyətin təşəbbüsünə narahatlıqla yanaşıb. Erməni Milli Konqresi (AMK) partiyasının baş nazirliyə namizədi Levon Zurabyan hesab edir ki, bu formatda Avropa strukturları ilə əməkdaşlıq parlament seçkiləri ərəfəsində özündə birbaşa risklər daşıyır. Bu missiyanın yerləşdirilməsi, eləcə də İrəvanın hibrid təhdidlərlə mübarizə bəhanəsi ilə Aİ-dən maliyyə vəsaiti istəməsi Ermənistanı Rusiya ilə Qərb arasında proksi müharibəsi platformasına çevirir. Eynilə bu yaxınlarda Moldovada baş verənlər kimi. Digər politoloqlar da Moldova təcrübəsi ilə paralellər apararaq, orada dezinformasiyaya qarşı mübarizə bəhanəsi ilə müxalifət qüvvələrinin süni şəkildə seçki yarışında iştirakdan kənarlaşdırıldığı qənaətini irəli sürürlər.

### Aİ Ermənistanda partiyaya qadağa qoya bilərmi?

A.İskəndəryan Aİ-nin yeni missiyasının daxili siyasi mənzərəyə təsiri barədə tələsik nəticə çıxarmağı məsləhət görmür. O, bu missiyanın yerləşdirilməsini "İrəvanın xarici siyasətini şaxələndirmək və Aİ-yə yaxınlaşmaq istəyinin bariz göstəricisi" kimi qiymətləndirir. Eyni zamanda, qeyd edir ki, yeni qrupun real funksionallığı və "hibrid təhlükələr" konsepsiyasına konkret olaraq nələrin daxil ediləcəyi yalnız missiya fəaliyyətə başladıqdan və onun ilk nəticələri görünəndən sonra bəlli olacaq.

Bəzi müxalif dairələrin yeni missiyanın Ermənistanda "Moldova ssenarisi"nin təkrarlanması alətinə çevrilə biləcəyi ilə bağlı narahatlıqlarına gəlincə, ekspert bu məsələyə skeptik yanaşdığını bildirib. Politoloq müxalifət partiyalarının təsirini məhdudlaşdırmaq və ya onlara qadağa qoymaq üçün Ermənistanda uzunmüddətli Avropa layihələrinin qurulmasının mənasız olduğunu vurğulayıb: "Avropa İttifaqı Ermənistanda partiyaların fəaliyyətinə qadağa qoya bilməz".

Bəli, erməni elektoratı tarixi və çox çətin seçim qarşısındadır. Ölkəsinin gələcəyə hansı yolla addımlayacağını müəyyən etməsi üçün bundan real şansının olmayacağını avropalılar deyil, özü də dərk etməlidir.

***İmran BƏDİRXANLI***
***XQ***

*23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür*

# Qədim mətnlərdə və klassik mənbələrdə erməni saxtakarlıqlarının və uydurmalarının ifşası

***Aprelin 22-də Əqli Mülkiyyət Agentliyində 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş konfrans keçirilib.***

"Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Qədim Turan haqqında və Kiçik Asiya ərazilərində prototürk qəbilələri və onların Qafqaz ilə əlaqələri" mövzusunda məclisdə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov bildirib ki, aprelin sonu əqli mülkiyyət aləmində əlamətdar dövrdür. Aprelin 23-ü Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür və aprelin 26-sı Beynəlxalq Əqli Mülkiyyət Günüdür. Bu əlamətdar günlərin təntənəli şəkildə qeyd olunmasında Azərbaycanın artıq böyük təcrübəsi var. 1997-ci ildən Kitab və Müəlliflik hüququ bayramı, 2001-ci ildən əqli mülkiyyətin günləri təntənə ilə keçirilir.

Bu ənənə agentlikdə illər boyu davam edir. 10 ildir ki, ənənəvi "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" və hər il "və ya" sözləri yeniləşən bu konfrans böyük maraqla qarşılanır və ictimai rəydə öz yerini tutur: "Bu konfransın keçirilməsində məqsədimiz əqli mülkiyyətə, xüsusən kitablara və onları qoruyan müəlliflik hüququna diqqəti cəlb etmək, yaradıcılığa dəstək vermək, əqli mülkiyyət mədəniyyətinin artırılmasına xidmət etmək və şübhəsiz, hay-erməniçilik saxtakarlıqlarını, uydurmalarını və yalanlarını ifşa etməkdir.

Son illər tədbirlərimizin keçirilmə zamanı xüsusi əhvali-ruhiyyə ilə müşahidə olunur: öz gücü hesabına ədaləti bərqərar edən müzəffər xalq və qalib dövlət suveren ərazisinə özü nəzarət edir. Unudulmayan tarix və bərpa olunan gələcək hamımızı ruhlandırır.

Prezident İlham Əliyevin sözləri ilə desək, hər zaman "güclü olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq".

***Agentliyin rəhbəri diqqətə çatdırıb ki, hərbi gücü diplomatiya ilə, iqtisadi inkişafı sosial ədalətlə və milli birliyi qlobal mövqe ilə uzlaşdıran, konseptual inkişaf xəritəsini və Azərbaycan vətəndaşını bu siyasətin mərkəzində saxlayan müəllif – Prezident İlham Əliyevdir:***

– Heç təsadüfi deyildir ki, məşhur türk müdriklik xəzinəsi "Qutadqu-bilik"də qeyd olunduğu kimi: "Səadətə aparan əqldir". 30 il ədalətin bərpasına gücünü əsirgəməyən, 44 gündə bizə qürur bəxş edən və 23 saat 43 dəqiqə şərəf və sevinc gətirən Ali Baş Komandan səadətimizi qurdu. Bir həqiqətdir ki, zaman öz müddət kəsiyi, uzunluğu ilə deyil, dərinliyi ilə ölçülür. Zəka dərinliyi isə ictimai təsiri ilə, yaratdığı kölgəsinin həcmi ilə ölçülməlidir.

Məşhur Seneka demişdi ki, sabahkı günün sahibi olmadan gələcəyə aid planların qurulması mənasızdır. Odur ki, gələcəkdə dəyişikliyi gözləyiriksə, gerçəkdə o dəyişikliklərə üz tutub, əsasını qurmalıyıq. Burada Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna tarixi rolu danılmazdır – o sabahın memarı olaraq hər bir ötən günü səxavətlə gələcək naminə qura bilib. Hadisələrin göstərdiyi kimi, Prezident İlham Əliyev nə qədər uzaqgörən, səbirli, düşməni səhv etməyə vadar edən və həmin səhvlərdən məharətlə üstünlük əldə edən, gərəkli hadisələri yaratmağı bacaran və baş verənlərdən ustalıqla istifadə edən dahi siyasətçidir.

On illər boyu mifologemlər yuxusunun əsiri olan Armeniyaya hazırda qalib dövlətin təklif etdiyi sülh Vaşinqtonda paraflandı və bununla bağlı Azərbaycan dövləti əməli addımlar atır. Biz ümid edirik ki, bununla hay-erməni mifologiyasını formalaşdıran "böyük torpaqlar və qonşulara qarşı ərazi iddiaları bağlantısı" keçmişə çevriləcək, qonşuların mədəni irsinin mənimsənilməsinə "təbiilik", hətta "legitimlik" gətirən fəlsəfəsi maneə kimi aradan götürüləcək, erməni siyasətçilərinin, dövlət və kilsə xadimlərinin, alimlərinin, nəhayət kütlənin əxlaqını təyin edən dünyagörüşü aradan qaldıracaq. Bununla da ermənilərin "müstəsnalığı" və "əzabkeşlik" "xüsusi missiyaları" tezislərindən irəli gələn ambisiya və iddialar erməniçilik düşüncəsində təbii olan adilik rolu ilə əvəz olunacaq. Təəssüflər olsun ki, qədim xəstəliyin residivləri bu gün də özünü büruzə verir.

1987-ci ildə Aleksan Akopyanın "Yunan-Latın və Qədim Erməni Mənbələrində Albaniya-Aluank" kitabının 1-ci nəşri çap olundu. 2022-ci ildə nəşr yenidən işlənib, tarixi saxtakarlığın yeni bir hissəsi ilə tamamlandı və bu yalançı tarixi əsərin 2-ci nəşri ləğv olunmuş qondarma "Artsax Respublikası"nın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin maliyyə dəstəyi ilə peyda oldu və "iş" Ermənistan Respublikası Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun elmi şurası tərəfindən nəşr üçün tövsiyə edilmişdi (İrəvan, 2022). Yenidən çap olunmuş əsərə hansı prinsipial yeni əlavələr daxil edildi? Elanda qeyd edildiyi kimi, müəllif inandırıcı şəkildə göstərir ki, heç vaxt formalaşmamış etnik birlik kimi özünütəyinini əks etdirməyən "albanlar" termini yalnız Albaniya adlı etnoslararası siyasi və inzibati cəmini əks etdirən əhalisini ifadə edir.

Yalançı elmi terminologiyanı bir kənara qoysaq, bu düzəliş alban etnik qrupunun mövcudluğunun inkarına bərabərdir, baxmayaraq ki, oxşar saxtakarlıqlar digər hay-erməni müəllifləri tərəfindən dəfələrlə istifadə edilmişdir. Bu təkrar nəşrin digər "yeniliyi" ümumi qəbul edilmiş "Albaniya tarixi"nin Musa Kalankatuklu müəllif kimi adının əvəz edilməsidir və bu əsər Movses Dasxurantsi adı altında ortaya çıxır. Bu da yeni bir şey deyil, çünki bəzi tədqiqatçıların fikrincə, "Albaniya tarixi"nin son hissəsi fərqli üsluba malik başqa bir müəllif, ehtimal ki, Dasxurantsi tərəfindən yazıla bilərdi.

***Professor Kamran İmanov bu saxtakarlıqların necə yaranmasına diqqət çəkərək bildirib:***

– **Birincisi,** hay-erməni müəlliflərinin böyük əksəriyyətində olduğu kimi, Kür çayının sağ sahilindəki ərazinin əvvəlcə «Böyük Ermənistan»ın bir hissəsi olduğu iddia edilir. Lakin IV-V əsrlərdən sonra Ermənistan, İberiya və Albaniya dövlətləri Sasani hakimiyyəti altında marzpanlıqlar oldu və Kür çayının sağ sahilini (Utik və Artsax) Alban Marzpanatına daxil edən Sasanilər oldu.

Məhz bu andan etibarən və xüsusən də bizə gəlib çatan "Albaniya Tarixi"ndə Artsax və Utik torpaqları alban torpaqlarına çevrildi.



**İkincisi,** tanınmış alban tayfaları olan kaspilər, qarqarlar, eləcə də udilərin etnik kimlikləri və yaşadıqları ərazilər saxtalaşdırılır, sakesinlərin Albaniya torpağı olan Sakasena sakasenləri ilə eyniləşdirilməsi inkar edilir və ümumiyyətlə, Saklar Xəzərin şərq və ya cənub-şərq sahilində, Sakasinlər isə Kürün sol sahilində yaşamalıdırlar.

**Üçüncüsü,** Kaspi tayfasının Paytakaran (sağ sahil) ərazisində lokalizasiyası inkar edilir və qədim mətnlərdən və klassik mənbələrdən məlumatlar şübhə altına alınır, Kaspilərin yaşayış yeri Xəzər dənizinin cənub sahilinə "köçürülür". Üstəlik, Kaspilərin yaşayış yeri Paytakaran deyil, sadəcə qədim Albaniyanın sahil bölgəsidir. Lakin əsl Kaspiana Paytakaran ərazisində yerləşən erməni Kaspkıdır.

Bu, Kaspiananın yığma ad olduğu və müəllifin fikrincə, "Kaspilərdən alban tayfalarından biri kimi danışmaq əsassız" olduğu qənaətinə gəlməyə əsas verir.

**Dördüncüsü,** müəllifin fikrincə, Qarqarlar (Qarqarey) alban tayfası deyil və bu etnonim tarixçi (M.Xorenatsi) tərəfindən təhqiramiz şəkildə, yəni Albaniyanın sol sahili və qonşu dağlıq bölgə əhalisinə qarşı narazılıq, ikrah və ya mənfi məna ifadə edən sözlərdən istifadə etməklə, təqdim olunur.

Bu məqsədlə, Kür çayının sağ və sol sahillərinin eramızdan əvvəl II əsrdən əvvəl Qafqaz Albaniyasına məxsus olduğunu iddia edən məşhur alim K.V.Treverin ("Tarix və Mədəniyyət haqqında esselər...") fikri inkar edilir.

Eynilə, digər aparıcı mütəxəssis A.P.Novoseltsevin (Qafqaz Albaniyası: Problemlər, Çətinliklər və Onların Aradan Qaldırılması Yolları, "Vostok", 1991, № 5, Moskva) tənqidi materialı, hansında Akopyanın yazdıqları qərəzli fikirləri təqdim etməsinə görə mübahisəli hesab edilir.

**Beşincisi,** müəllifin udilər haqqındakı nəticələri səhv olaraq, alban tayfaları siyahısından çıxarılır. İstinad edilən əsərə görə, "26 alban tayfasından biri – udilər – qədim mənbələrdə müəllifin fikrincə qeyd olunmur, lakin qədim müəlliflərin Dərbəndin şimalında, Xəzər sahilində yaşayan eyni adlı digər ləzgi dilli tayfaları bildiyi faktına əsaslanaraq yenidən qurula bilər...".

Bunu necə yenidən qurmaq olar? A.Akopyanın fikrincə, nə qədim klassik, nə də qədim erməni mənbələrində X əsrdən əvvəlki "Qərbi Alban udilər"dən bəhs edilmədiyindən, bu tayfanın heç bir əhəmiyyətli rol oynamadığını düşünmək ağlabatan görünür..."

"Yalnız son orta əsrlərdə Kutkaşen-Şəki bölgəsindəki alban tayfalarının qalıqları vahid etnik qrupda (millətdə) birləşdi və ehtimal ki, bu ərazinin qədim alban tayfalarından birinin – utilər-udilər..." adını qəbul etdilər.

**Altıncısı,** oxşar bir konfransda biz tərəfdən bildirdiyimiz və yenilik kimi təqdim edilən daha bir sınaqdan keçirilmiş yalan. Mahiyyəti odur ki, alban tayfaları hay erməniləri ilə "əvəz olunurlar", Akopyanın yazdığı kimi, "hay erməniləri özlərini Ermənistanın qalan hissəsindən inzibati və kilsə-yurisdiksional sərhədlərlə ayıraraq, özlərini yalnız Alban marzpanlığının tamhüquqlu bir hissəsi kimi deyil, həm də onun əsas ağaları kimi hiss etməyə başladılar", yəni "Albaniya ölkəsi" onlar üçün "öz" və doğma oldu. Başqa sözlə, hay-ermənilər yalançı albanlara çevrildilər.

Deyilənlər gülməlidir və şərhləri lazımsız hesab edirəm. İndiki Ermənistan ərazisinin keçmiş zamanlarda faktiki sakinlərini xatırlatmaq istəyirəm. Yalnız bugünkü Ermənistan ərazisində 29 abidədə Saka türklərinin izləri qorunub saxlanılıb və müasir Ermənistan Respublikasının ərazisinin tamamilə Saklar Çarlığına məxsus olduğu məlum bir faktdır.

Eramızdan əvvəl III əsrdən başlayaraq türk tayfalarının birliyi olan Hunlar sonradan iki hissəyə bölünüb və I əsrdə onun bir hissəsi Zəngəzurda məskunlaşıb. Stepan Orbelyanın (eramızın XIII əsri) qeyd etdiyi kimi, "sisaklar təkcə Hunların deyil, həm də albanların əcdadlarıdır və hətta onlarla müqayisədə daha qədimdirlər.

Başqa sözlə, qədim Sakaların mövcud erkən etnik təbəqəsi eyni etnik mənşəli Saka mənşəli yeni bir təbəqə olan Sisaklarla örtülmüşdür.

Məhz buna görə də Adonts özünün "Yustinian dövründə Ermənistan" kitabında Prokopinin "Sünilərin (Süniklərin) fars erməniləri ilə heç bir qohumluğu olmayan ayrı bir xalq olduğunu" göstərdiyini qeyd edir (Biz illərdir Sisak sülaləsi haqqında məlumat veririk və nəşr olunmuş kitablarımızda Sünik-Sisakan termininin etimoloji izahını vermişik).

XX əsrin əvvəllərindən bəri fəal şəkildə istifadə edilən hay-ermənilərin – Hayi adlandırılmasını əsaslandırmaq üçün vurğulayırıq ki, "Hayastan" termini əvvəlcə etnonim deyil, siyasi termin idi.

Əraziyə münasibət, mənsubiyyət göstəricisi idi. Ona etnik məna vermək üçün bu terminlə "Hayasa" ölkəsi və xalqı arasındakı əlaqə saxtalaşdırılıb və bununla da "Hayastan" Hayas + tun = "Hayaların evi kimi" təqdim edilib. Lakin erməni alimi Q.Kapantsyan bu yalanı ifşa edərək yazırdı ki, "erməni qrammatik normalarına zidd olaraq, bu [termin] açıq, yalançı etimologiyadır". Terminlər kimi "Hayasa" və "Hayastan" sözləri etimoloji cəhətdən əlaqəli deyil.

Eyni saxtakarlıq "Ermənistan" termininə və onun "Hayastan" adı ilə əlaqəsinə də aiddir, çünki avstriyalı mütəxəssis E.Fayqlin yazdığı kimi, "erməni" [daha dəqiq desək, arminli] anlayışı qədim zamanlarda etnonim deyildi, məna etibarilə bu gün "rus", "amerikalı", "moskvalı" və s. ifadələri ilə eyni şeyi əks etdirirdi. Bir sözlə, bu termin coğrafi əraziyə münasibəti və ya mənsubiyyəti əks etdirirdi və etnonim deyildi. Lakin Xristian Kilsəsinin parçalanmasından sonra, hakim Karen (Müqəddəs Qriqori) Parfiya ailəsindən olan Suren tərəfindən təqdim edilən bidətçi (eretik) hərəkata və ya erməni qriqorian inancının doğmalarına (Orta əsrlərdə, Ermənistan bölgəsinin sakinlərinin əksəriyyətinin İslamı qəbul etdiyi dövrdə) hay-ermənilər bu coğrafi ərazidə yaşayan xalqların bütün maddi və qeyri-maddi sərvətlərini mənimsəmiş və özlərini onların varisləri elan etmişdilər.

Nəticə etibarilə, haylar «ermənilər» adını mənimsəmişdilər. Biz bunu dəfələrlə ictimai çıxışlarımızda qeyd etmişik və çap nəşrlərimizdə də əks etdirmişik. Hay-erməni saxtakarlıqları və uydurmaları yalnız hay-ermənilərin tarixinə aid deyil və əvvəllər qeyd etdiyim kimi, hay-erməni təbliğat qrupu qonşu xalqların, o cümlədən Azərbaycan xalqının tarixini və irsini təhrif etməkdən çəkinmir.

***Professor Kamran İmanov xatırladıb ki, 2013-cü ildə Ruben Qalçyanın müəllifliyi ilə "Azərbaycanın tarixi-coğrafi saxtakarlıqları" adlı kitabı nəşr edilib:*** "Bundan öncə isə 2005-ci ildə "Ermənistan dünya kartoqrafiyasında", 2010-cu ildə "Azərbaycanın, Ermənistanın mifiligiyalaşması, mülahizələr və faktlar" və bir neçə nəşrlər uydurmalı coğrafi xəritələrə əsaslandırılırdı. Həmin nəşrlərin məqsədi, kitabda qeyd olunduğu kimi, "Azərbaycan elmi və elm ətrafındakı dairələr tərəfindən ermənilərə qarşı yönəlmiş və yüksək hakim təbəqənin dəstəyinə arxalanan tarixi, mədəni-tarixi və kartoqrafiya təbliğatını aşkar və təhlil etməkdən ibarətdir".

***Konfransda iştirak edən şəxslərin elmi dairəyə aid olduğunu qeyd edən Kamran İmanov deyib:***



– Bəs, bizim "uydurma" və "saxtakarlığımız" nədən ibarətdir?

**Birincisi,** yarım əsrdən çoxdur ki, biz erməniləri Cənubi Qafqaza gəlmə, özümüzü isə alban və türk-oğuz qəbilələrdən yaranan köklü, aborigen xalq hesab edirik.

Gülməli və şərhə ehtiyacı olmayan "dəlildir". Lakin hər şeyi kənara qoyub, (çünki bunların cavabı dəfələrlə verilib) bir məsələyə aid dinməmək, susmaq mümkün deyil. Ədaləti öz gücümüz ilə bərpa edən xalq kimi ermənilər tərəfindən işğal edilmiş və hazırda qaytarılmış torpaqlar, əgər onların qədim sahibi, avtoxton əhali olsaydı, bu cür dağıdılmış, yerlə-yeksan olmazdı.

**İkincisi,** 1918-ci ilə qədər olmayan Azərbaycanla bağlı uydurmaların biri "olmayan qədimliyi" və milli identikliyi təsbit edərək beynəlxalq ictimai rəyə sırımaq və çevirməkdir.

Azərbaycan anlayışı və onun qədimliyi ilə bağlı onlarla milli və xarici alimlər sübutlar gətirib. Millətimizin identikliyi və milli şüuru ilə bağlı İkinci Vətən müharibəsi tam aşkarlığı ilə cavab gətirdi.

**Üçüncüsü,** erməni mədəni irsini mənimsəyib, onu albanların və ya azərbaycanlıların mədəni irsi kimi təqdim edirik. Buna layiqli cavablar verilib və bir misal kimi onu da deyə bilərəm ki, 20 ildən artıqdır ki, mənim "Erməni yadelli nağılları" tədqiqatım ingilis, rus və bir neçə dilə tərcümə olunaraq, işıq üzü görüb, lakin bu günə qədər bir sanballı "yalanlarımızı" ifşa edən ermənilər tərəfindən yazılan və (lənətlər və təhqirlər istisna olmaqla) bir etiraz görməmişik.

Halbuki, erməni saxtakarlıqları və uydurmaları bu kitabda geniş təqdim olunur.

**Dördüncüsü,** müəllifin fikrincə, "əgər Azərbaycan ziyalıları hesab edirlər ki, müstəqil, özünəməxsus və qədim mədəniyyətə malikdirlər, onlar müəyyən etməlidirlər – kökləri haradandır – asiyalı türklərdən, yoxsa xristian Qafqaz albanlardan?"

Cavab, necə deyərlər, göz qabağındadır.

Lakin ermənilər də yaxşı olar digər məsələyə cavab axtarsınlar: Armeniya sözü haradan əmələ gəlib, uydurma Xayasa necə Xay-ermənilərlə bağlıdır və nəhayət, İncili təftiş edən yeganə xalq hansıdır?

Sonda türklər haqqında kitab yazan adam, ən azı müasir rus dilində səslənən "тюрк" və "турок" («тюрки» və «турки») sözləri arasında fərqi görməlidir. Lüğətlərdə «тюрки» qohum dillərdə danışan xalqların geniş qrupu kimi təsbit olunur; bu qrupa azərbaycanlılar, qazaxlar, qırğızlar, türkmənlər və türklər daxildir. Buna uyğun olaraq, "тюрк" geniş, yəni konkret bir etnik qrupu deyil, ümumən türk xalqlarını ifadə edən üst-etnik mənada işlədilir.

"Турки" isə rus dilinin normasına görə Türkiyənin əsas əhalisini təşkil edən konkret xalqın adıdır; tək halda bu söz "турок" formasında işlənir. Başqa sözlə, münasibət belədir: bütün türklər türk xalqlarına daxildir, lakin bütün türk xalqları türklər deyildir. Türk dili də öz növbəsində türk dillərindən biridir.

İngilis dilində bu fərq adətən daha aydın şəkildə ifadə edilir:

- Turkic – geniş linqvistik və etnomədəni termin: Turkic peoples, Turkic languages;
- Turkish – Türkiyəyə, Türkiyə türklərinə və ya türk dilinə aid olan anlayış.

Məhz buna görə də ingilis dilində bu anlayışların qarışdırılması daha az baş verir. "Тюрки" və "турки" sözlərinin zahiri oxşarlığı səbəbindən qarışıqlıq yaranır (İngilis dilində isə Turkic/Turkish qarşılığı həm qrafik, həm də semantik baxımdan daha aydın ayrılmışdır).

Bunlar belədir. Lakin Azərbaycan türkləri haqqında yazmağı cəsarət tapan, üstəlik, köklərimizi axtaran və bizə "məsləhətlər" verən "alim" ən azı bunları bilməlidir.

Corc Bernard Şounun sözlərini yenidən ifadə etsək, yalan və böhtanların bu və ya digər şəkildə cəzalandırıldığını qeyd edirik. Əsas cəza isə artıq heç kimin yalançıya və saxtakara inanmaması deyil, özlərinin artıq heç kimə inanmamasıdır.

Sual yaranır: hay-erməni millətçi alimlərinin heç olmasa öz liderləri, Baş nazir N.Paşinyanın çağırışına qulaq asmalarının vaxtı çatmayıbmı?

Hay-ermənilərlə heç bir əlaqəsi olmayan Van Krallığının (Urartu dövləti) yalan mövqelərindən bugünkü Ermənistana, uydurma, saxtalaşdırılmış tarixi Ermənistandan əsl Ermənistana keçməyin vaxtı çatmayıbmı, çünki əsl Ermənistan tarixi Ermənistana çevrilə bilər?

Həqiqətən də Ermənistanda tarixin çarxını geri çevirməyə çalışan, ölkədə iyun seçkilərindən sonra yeni müharibə riskini yaradan sülh gündəliyinə qarşı çıxan qüvvələr var.

Baş nazirin sözlərinə görə, müharibə partiyaları "...başqaları tərəfindən yazılmış mətnləri səsləndirir..., ağır nəticələrə səbəb olacaq yeni sentyabr müharibəsi hazırlayırlar". Bu cür planların legitimləşdirilməsi üçün əsas rol oynayan və qonşu torpaqlara iddialar irəli sürən və qonşularına qarşı təhdidlər ehtiva edən Ermənistanın Müstəqillik Bəyannaməsi mahiyyət etibarilə "münaqişə və asılılıq bəyannaməsi"dir. Bu baxımdan, Paşinyan Ermənistan cəmiyyətini xarici dəstək vasitəsilə "sağ qalmaqla ömür sürmək məntiqi"ndən imtina etməyə və "inkişaf, çiçəklənmə və sülh məntiqi"ni qəbul etməyə çağırır.

Beynəlxalq hüququ və tarixi ədaləti öz gücü ilə bərpa edən xalqımız milli iradənin və dövlət qətiyyətinin dünyaya parlaq nümunəsini gətirdi. Hazırda Azərbaycan Cənubi Qafqazda sülhə və əmin-amanlığa səs verib və praktiki əməllərlə bu istəyini nümayiş etdirir. Antisülh, revanşist qüvvə və dairələrin mövcudluğuna baxmayaraq, biz sülhsevər münasibəti qonşu ölkədən gözləyirik və buna bizim qalib ölkə və müzəffər millət kimi haqqımız çatır.

***Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva*** tarixi-mədəni irsin qorunmasının beynəlxalq hüququn və insan hüquqlarının ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb. O bildirib ki, əqli mülkiyyət hüquqlarının müdafiəsi və hüquq pozuntularının qarşısının alınması Ombudsman Aparatının əsas fəaliyyət istiqamətlərindəndir.

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** dünya xalqlarının böyük əksəriyyətinin sivilizasiyaların formalaşmasında mühüm rol oynadığını qeyd edib. Akademik ermənilərin qədimdən səpələnmə xalq olduqları barədə fikirlərini səsləndirib.

***Milli Məclisin deputatı Hikmət Babaoğlu*** isə bildirib ki, qədim mənbələrə əsaslanan elmi yanaşma tarixə obyektiv baxışın formalaşmasında həlledici rol oynayır. Mədəni irsin qorunması və onun beynəlxalq müstəvidə düzgün təqdimatı tarixi saxtalaşdırma cəhdlərinə qarşı ən təsirli vasitələrdən biridir. Deputat əlavə edib ki, bu istiqamətdə sistemli elmi tədqiqatların genişləndirilməsi və əldə olunan nəticələrin beynəlxalq elmi ictimaiyyətə çatdırılması xüsusi əhəmiyyət daşıyır.

***Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli*** həm Azərbaycan, həm də regionla bağlı tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini vurğulayıb. O bildirib ki, bu proses erməni saxtakarlıqlarının ifşası ilə paralel şəkildə aparılmalıdır və müstəqil Azərbaycan artıq öz tarixinə sahib çıxır.

***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru, professor Kərim Şükürov*** Azərbaycan tarixinə yeni konseptual baxışın vacibliyini qeyd edib. O bildirib ki, Azərbaycan çoxmillətli dövlətdir və onun inkişaf yolu dünya ölkələri ilə müqayisədə olduqca mürəkkəb tarixi mərhələlərdən keçib.

Daha sonra Kamran İmanov konfransın mövzusuna uyğun geniş məruzə ilə çıxış edib, qədim mətnlər və klassik mənbələr əsasında aparılan tədqiqatların əhəmiyyətindən danışıb.

Konfrans müzakirələrlə davam edib.

***XQ***

# Azərbaycan–Latviya iqtisadi əməkdaşlığı yeni mərhələdə

**Azərbaycan və Latviya dost ölkələr kimi çox yaxın siyasi-iqtisadi, humanitar əlaqələrə malikdir. Keçmiş SSRİ-nin tərkibində müttəfiq respublikalar olan tərəflər arasında möhkəm iqtisadi və mədəni əlaqələr formalaşıb. Sovetlər birliyinin süqutundan sonra isə iki dövlət arasında münasibətlər yeni müstəviyə qədəm qoyub.**



Azərbaycan və Latviya dövlət başçılarının ilk görüşü 1997-ci il iyulun 8-də NATO-nun Madriddə keçirilən Zirvə toplantısı çərçivəsində reallaşıb. Həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Latviya Prezidenti Quntis Ulmanis arasında keçirilən görüş zamanı iki ölkə arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Sonrakı illərdə beynəlxalq səviyyəli toplantılar zamanı dövlət başçıları arasında keçirilən görüşlər, eləcə də yüksəksəviyyəli qarşılıqlı hökumət nümayəndə heyətlərinin səfərləri tərəfləri bir-birinə daha sıx yaxınlaşdırıb, münasibətlərin inkişafına yeni dinamizm gətirib.

2003-cü ilin oktyabrında isə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin xüsusi səyləri ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına təkan verib. Dövlətimizin başçısı ikitərəfli və regional məsələlərin ölkələrimiz arasındakı əlaqələrdə xüsusi əhəmiyyət daşıdığını dönə-dönə qeyd edib.

2008-ci il aprel ayının 3-də Prezident İlham Əliyev NATO-nun sammitində iştirak etmək üçün Rumıniyaya səfəri çərçivəsində Buxarestdə Latviyanın dövlət başçısı Valdis Zatlerslə görüşü zamanı iki ölkə arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafı müzakirə edilib, tərəflər Azərbaycan və Latviyanın Avropanın enerji təhlükəsizliyi sahəsində əməkdaşlığını xüsusi vurğulayıblar. 2017-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə isə ikitərəfli iqtisadi münasibətlərin hüquqi bazasını möhkəmləndirir.

Hazırda Azərbaycan ilə Latviya arasında yüksək səviyyədə əlaqələr mövcuddur. Hər iki ölkə əməkdaşlığa həm də regional təşkilatlar, o cümlədən Baltik Dənizi Dövlətlərinin Şurası çərçivəsində xüsusi əhəmiyyət verir. Bu əməkdaşlıq, Baltik–Qara Dəniz–Xəzər hövzəsi regionunda inteqrasiya proseslərinin intensivləşdirilməsi istiqamətində mühüm əhəmiyyət daşıyır. Latviya ölkəmizi Avropanın enerji resursları ilə təchizatında Qara dəniz–Xəzər regionunun əsas ölkəsi hesab edir.

Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin ölkəmizə rəsmi səfəri də əməkdaşlığın inkişaf perspektivləri baxımından mühüm əhəmiyyət daşıyır. Məlum olduğu kimi, aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib. Dövlətimizin başçısı ölkələrimiz arasında çox yaxşı əlaqələrin mövcudluğuna toxunaraq ticarəti və qarşılıqlı sərmayələri artırmaq, energetika, daşımalar, rəqəmsallaşma və digər sahələrə aid olan məsələləri həll etmək məqsədilə əməkdaşlığa dair praktiki məsələlərin bir daha nəzərdən keçirilməsinin vacibliyini vurğulayıb.

Latviya Prezidenti Edqars Rinkeviçs çıxış edərək ölkəsini Azərbaycanı strateji tərəfdaş və dost hesab etdiyini vurğulayıb. Ötən müddətdə iki ölkə arasında iqtisadi əməkdaşlığın real nəticələr verdiyini vurğulayan Latviya Prezidenti bu baxımdan Hökumətlərarası Komissiyanın işini yüksək qiymətləndirib.

Bütövlükdə isə, Azərbaycan və Latviya arasında iqtisadi əlaqələr strateji tərəfdaşlıq səviyyəsində inkişaf edir, ticarət, nəqliyyat-logistika, kənd təsərrüfatı və investisiya sahələrində fəal əməkdaşlıq edilir. Bütün bunların nəticəsidir ki, tərəflər idxal-ixrac əməliyyatlarını ildən-ilə artırırlar. Təkcə onu qeyd etmək kifayətdir ki, 2005-ci ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsi vur-tut 6 milyon 882,2 min ABŞ dollar təşkil etmişdirsə, 2023-cü ildə bu rəqəm 64 milyon 945,7 min dollara yüksəlib.

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-mart aylarında Azərbaycanla Latviya arasında ticarət əməliyyatlarının həcmi 6 milyon 83 min dollar təşkil edib. Bu isə əvvəlki ilin eyni dövrünə nisbətən 748 min dollar və ya 14 faiz çoxdur. Hesabat dövründə Azərbaycandan Baltikyanı ölkəyə 1 milyon 804 min dollarlıq məhsul ixracı qeydə alınıb. Latviyadan isə ölkəmizə 4 milyon 279 min dollar dəyərində ixrac əməliyyatları icra olunub.

Ölkəmizdən Latviyaya meşə fındığı, qara metallardan qeyri-elektrik havaqızdırıcıları, hava və qaz kompressorları, ventilyasiya qurğuları, inersiyasız su qızdırıcıları və ya istilik su akkumulyatorları, meşə materialları ixrac olunub. Azərbaycan isə Baltikyanı ölkədən əsasən süd məhsulları, konservləşdirilmiş balıq, tərkibində dad-aromatik və ya boyaq əlavələri olan şəkər siropları, benzin və dərman vasitələri idxal edib. Ümumilikdə, Azərbaycan və Latviya arasında qarşılıqlı ticarət dövriyyəsi üzrə göstəricilər yüksək olmasa da, bu sahədə potensial olduqca yüksəkdir

Bundan əlavə, Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2025-ci ildə Latviya ölkəmizə 6 milyon 945 min dollar birbaşa investisiya yönəldib. Hesabat ilində Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmində Latviyadan reallaşan investisiyaların payı 0,1 təşkil edib. Hazırda 40-dan çox birgə şirkət fəaliyyət göstərir. Ölkəmizin işğaldan azad olunmuş ərazilərinin bərpasında Latviya şirkətlərinin iştirakı da müzakirə olunur.

İki ölkə arasında topdansatış, nəqliyyat və konsaltinq sahələrində 40-dan çox birgə şirkət fəaliyyət göstərir. Bununla yanaşı, tərəflər nəqliyyat-logistika sahəsində fəal əməkdaşlıq edirlər. “Bison” layihəsi çərçivəsində yükdaşımaların genişləndirilməsi və iki ölkənin dəmir yolları arasında əməkdaşlıq perspektivləri bu baxımdan olduqca yüksəkdir.

Ölkələrimiz arasında enerji və yenidənqurma sahəsində əməkdaşlığın perspektivləri də yüksək qiymətləndirilir. Belə ki, Latviya Azərbaycanın işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonalarının yaradılmasında, eləcə də meşəçilik və infrastruktur layihələrində iştiraka xüsusi maraq göstərir.

Dövlət başçılarının mətbuata bəyanatlarında da tərəfdaşlığın mühüm məqamlarına toxunulub. Azərbaycan Prezidenti İlham Əliyev bəyanatında bir həftə əvvəl Şuşada keçirilmiş Birgə Hökumətlərarası Komissiyanın iclasında səsləndirilən perspektivli planlar, müştərək işlərlə bağlı məlumatları yüksək dəyərləndirərək deyib: “Biz, həmçinin razılığa gəldik ki, planlar, proqramlar və sərmayə imkanları barədə bir-birimizə daim məlumat verəcəyik ki, hər iki ölkə şirkətlərinin informasiyaya çıxışı olsun və onlar öz fəaliyyətini planlaşdıra bilsinlər. Düşünürəm ki, hər iki ölkəyə yatırılacaq sərmayələr çox gözəçarpan nəticələr verə biləcək. Azərbaycanın istər dövlət, istərsə də özəl sərmayədarları bu cür fəaliyyətə hazırdır və ümid edirəm ki, biznes-forum bu vaxta qədər, əfsuslar ki, bir az mülayim görünən qarşılıqlı ticarətimizin dövriyyəsinin artırılmasında həqiqətən mühüm mərhələyə çevriləcək”.

Latviya Prezidenti Edqars Rinkeviçs isə bəyanatında ölkələrimiz arasında iqtisadi əməkdaşlığın mövcud səviyyəsinə toxunaraq deyib: “Aramızdakı ticarət dövriyyəsi çox mülayimdir və artırılmalıdır. İnanıram ki, müdafiə sənayesi, nəqliyyat, əczaçılıq sahələrində çoxlu imkanlar var və biz təcrübələrimizin necə paylaşılması ilə bağlı bəzi praktiki yolları müzakirə etdik”. Eyni zamanda, Latviyanın meşələr ölkəsi olduğunu xatırladan Prezident Edqars Rinkeviçs Qarabağın müasirləşməsi və yenidən qurulmasında daha çox meşələrin salınması ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu planların yerinə yetirilməsində hər cür məsləhət və təcrübə verməyə hazır olduğunu bildirib.

Heç şübhəsiz, Latviya Prezidentinin ölkəmizə səfəri çərçivəsində dövlət başçılarının iştirakı ilə keçirilən görüşlər, mühüm əhəmiyyət daşıyan sənədlərin mübadiləsi, mətbuata birgə bəyanatlar, eləcə də Azərbaycan–Latviya biznes-forumu dost və tərəfdaş ölkələr arasında bir çox sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər yeni mərhələyə qədəm qoyur. Bu proses həm də iqtisadi əməkdaşlığın dərinləşdirilməsi ilə müşayiət olunur. Lüksemburqda keçirilən müzakirələr göstərir ki, Brüssel regiona artıq epizodik maraq çərçivəsində yox, strateji aspektdə yanaşır.**

# Avropa İttifaqının ölkəmizə marağı strateji yön alır

## Kallasın nikbinliyi növbəti hədəflərdən xəbər verir



Avropa diplomatiyasının rəhbəri Kaya Kallas Lüksemburqda Aİ ölkələrinin xarici işlər nazirlərinin görüşünün yekunlarına dair mətbuat konfransında bildirdi ki, Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş kimi qiymətləndirilməsi təsadüfi deyil. Avropanın enerji təhlükəsizliyi məsələsinin kəskinləşdiyi bir dövrdə Bakı ilə əməkdaşlıq zəruri seçim kimi qəbul edilir. Bu reallıq iqtisadi münasibətlərin əsas sütununu təşkil edir və gələcəkdə ticarət dövriyyəsinin genişlənməsi üçün əlavə imkanlar yaradır.

Bununla yanaşı, tərəflər arasında münasibətlər yalnız enerji resurslarının ixracı ilə məhdudlaşmır. Logistika, nəqliyyat dəhlizləri və regional inteqrasiya layihələri də gündəmdədir. Azərbaycanın geoiqtisadi mövqeyi – Şərqlə Qərbi birləşdirən əsas qovşaq funksiyası Aİ üçün xüsusi əhəmiyyət daşıyır. Bu isə Bakı-Brüssel xəttində əməkdaşlığı daha çoxşaxəli və dayanıqlı edir.

Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin hüquqi əsasını 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi formalaşdırır. Sonrakı mərhələdə tərəflər daha geniş çərçivəli yeni saziş üzərində danışıqlar apararaq əməkdaşlıq istiqamətlərini əhəmiyyətli şəkildə genişləndiriblər. 2018-ci ildə paraflanmış “Tərəfdaşlıq prioritetləri” sənədi isə münasibətlərin konkret sektorlar üzrə inkişaf xəritəsini müəyyənləşdirən, suverenlik və ərazi bütövlüyü də daxil olmaqla beynəlxalq hüququn əsas prinsiplərinə söykənən ortaq yanaşmanı əks etdirir.

Enerji sektoru bu əməkdaşlığın aparıcı istiqamətlərindən biri kimi seçilir. Aİ üçün Azərbaycan uzunmüddətli və etibarlı enerji tərəfdaşı statusunu qoruyur. 2022-ci ildə imzalanmış strateji memorandum qaz tədarükünün Avropa istiqamətində artırılmasını nəzərdə tutur. Bu baxımdan Cənub Qaz Dəhlizi layihəsi xüsusi çəkisi ilə fərqlənir və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Statistik göstəricilər də bu dinamikanı təsdiqləyir. Belə ki, 2025-ci ildə Azərbaycanın ixrac etdiyi 25 milyard kubmetr qazın 13 milyard kubmetri Aİ ölkələrinə yönəlib. Bu da 2021-ci illə müqayisədə təxminən 60 faizlik artım deməkdir.

Bununla yanaşı, əməkdaşlıq yalnız enerji ilə məhdudlaşmır. Nəqliyyat, rəqəmsallaşma, ticarət və institusional islahatlar sahələri də tərəflərin diqqət mərkəzindədir. Xüsusilə Orta Dəhliz – Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Azərbaycanın Aİ üçün logistik əhəmiyyətini daha da artırır. Ümumilikdə, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalır və ölkənin xarici ticarət dövriyyəsinin təxminən yarısı məhz bu ittifaqın payına düşür.

Son illərdə qlobal siyasi proseslər bu tərəfdaşlığın strateji dəyərini daha da yüksəldib. Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropada enerji təhlükəsizliyi prioritet məsələyə çevrilib və bu şəraitdə Azərbaycan alternativ mənbə kimi ön plana çıxıb. Eyni zamanda, Yaxın Şərqdə davam edən gərginliklər beynəlxalq ticarət marşrutlarına təsir göstərərək Azərbaycanın tranzit imkanlarını genişləndirib. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkənin geostrateji mövqeyi və sabit siyasi kursu onu Aİ üçün mühüm tərəfdaş səviyyəsinə yüksəldir.

Gələcəyə baxdıqda isə tərəflər arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş potensial mövcuddur. Bu çərçivədə bir sıra prioritet istiqamətlər ön plana çıxır. Enerji və yaşıl keçid sahəsində Azərbaycanın, xüsusilə Xəzər akvatoriyasında külək enerjisi potensialı Aİ-nin ekoloji strategiyaları ilə uyğunlaşır. Nəqliyyat və logistika istiqamətində Orta Dəhliz Avropa ilə Asiya arasında alternativ və təhlükəsiz marşrut kimi strateji əhəmiyyət daşıyır. Rəqəmsal iqtisadiyyat və innovasiya sahəsində əməkdaşlıq texnologiya transferi və startap mühitinin inkişafına təkan verə bilər. Təhsil və humanitar sahədə akademik mübadilələrin genişlənməsi münasibətlərin sosial bazasını möhkəmləndirir. Regionda sabitliyin təmin olunması isə əməkdaşlığın davamlılığı üçün əsas şərtlərdən biri kimi qalır.

Ötən ay Aİ Şurasının prezidenti Antonio Kostanın Azərbaycana səfəri də münasibətlərin inkişafında diqqətəlayiq mərhələ kimi qiymətləndirilir. Səfər zamanı Prezident İlham Əliyev ilə keçirilən görüşlərdə enerji tərəfdaşlığı, regional təhlükəsizlik və iqtisadi əlaqələrin genişləndirilməsi məsələləri ətraflı müzakirə olunub. Birgə bəyanatlar tərəflərin gələcəkdə iqtisadi, nəqliyyat, enerji və təhlükəsizlik sahələrində əməkdaşlığı daha da gücləndirmək niyyətini açıq şəkildə nümayiş etdirir.

Eyni zamanda, Aİ-nin “Global Gateway” təşəbbüsü çərçivəsində həyata keçirilən layihələr Azərbaycanın iqtisadi inkişafına əlavə investisiya axını üçün mühüm imkanlar yaradır. Xüsusilə nəqliyyat və logistika infrastrukturunun modernləşdirilməsi baxımından bu təşəbbüslər regional əlaqələndirmənin yeni mərhələyə yüksəlməsinə xidmət edir.

Digər tərəfdən, İtaliyanın Baş naziri Corciya Meloninin yaxın həftələrdə Azərbaycana səfəri gözlənilir. May-iyun aylarında baş tutması gözlənilən səfər davam edən siyasi və iqtisadi əməkdaşlığın bir hissəsidir.

Məlumdur ki, enerji sahəsi Roma ilə Bakı arasında münasibətlərin mərkəzi sütunu kimi geniş şəkildə qəbul edilir, çünki Azərbaycan Xəzər regionunu Avropa ilə birləşdirən daha geniş Cənub Qaz Dəhlizinin bir hissəsi olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə İtaliyaya təbii qaz tədarük edir.

Əlqərəz, Aİ ilə münasibətlərin iqtisadi aspektini dəyişən dünya nizamında daha çox əhəmiyyət qazanan nəqliyyat dəhlizləri, energetika sahəsi və investisiyalar formalaşdırır. Nəzərə alsaq ki, regionda artıq ABŞ-ın da TRIPP kimi maraqları mövcuddur, ölkəmizin əldə edəcəyi iqtisadi dividendlərin sayı bu çərçivədə daha çox arta bilər.

*Nurlan ABDALOV*
*XQ*

### Ekspert rəyi



**Asif İBRAHİMOV, iqtisadçı-ekspert**

Bəli, Azərbaycan ilə Avropa İttifaqı arasında strateji əməkdaşlıq mövcuddur. Bu münasibətlər son illərdə, xüsusilə 2014-cü ildən sonra daha intensiv xarakter alıb. Məlum olduğu kimi, həmin dövrdən etibarən regionda baş verən geosiyasi proseslər Avropa üçün alternativ və etibarlı tərəfdaşlara olan ehtiyacı artırdı. Bu kontekstdə Azərbaycan öhdəliklərinə sadiq qalan əsas tərəfdaşlardan biri kimi ön plana çıxıb.

Avropa İttifaqının rəhbərliyi də müxtəlif çıxışlarında Azərbaycanın etibarlı tərəfdaş olduğunu dəfələrlə vurğulayıb. Bu gün Azərbaycanın Avropa bazarına ixrac imkanları genişlənir və xüsusilə enerji sahəsində əməkdaşlıq dinamik şəkildə inkişaf edir. Hazırda Avropanın enerji təchizatında Azərbaycanın payının yaxın illərdə daha da artacağı gözlənilir.

Əvvəllər əsasən neft ixracı həyata keçirilirdisə, indi qaz nəqli də mühüm yer tutur. Xüsusilə Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı bir sıra Avropa ölkələrinə çatdırılır. Bu isə ölkəmizin üzərinə götürdüyü öhdəlikləri vaxtında və keyfiyyətlə yerinə yetirdiyini bir daha təsdiqləyir.

Bununla yanaşı, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq yalnız enerji sahəsi ilə məhdudlaşmır. Enerji təhlükəsizliyi bu münasibətlərin əsas sütunlarından biri sayılsa da, digər strateji istiqamətlər də diqqət mərkəzindədir. Bu baxımdan Azərbaycanın geostrateji mövqeyi xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın yerləşdiyi coğrafi mövqe onu regionda açar ölkəyə çevirir. Xüsusilə Çin ilə Avropa arasında nəqliyyat və logistika marşrutlarının formalaşmasında Azərbaycanın rolu getdikcə artır. Hazırda Çinlə Avropa arasında yükdaşımalar müxtəlif marşrutlarla həyata keçirilir və çatdırılma müddəti təxminən 15–20 gün təşkil edir.

Orta Dəhlizin və gələcəkdə Zəngəzur dəhlizinin tam şəkildə fəaliyyətə başlaması bu marşrutu daha da səmərəli edə bilər. Bu halda Çin, Qazaxıstan, Azərbaycan, Türkiyə və Şərqi Avropa xətti üzrə yeni və daha sürətli logistik zəncir formalaşacaq. Belə bir şəraitdə Azərbaycan regionun strateji nəqliyyat qovşaqlarından biri kimi öz mövqeyini daha da möhkəmləndirəcək.

# “Şəfəq” layihəsinin ilk günəş paneli quraşdırılıb

**İşğaldan azad edilmiş Cəbrayıl rayonunun ərazisində icra olunan “Şəfəq” günəş elektrik stansiyası layihəsinin investorları olan bp, “SOCAR Green”, Azərbaycan Biznesinin İnkişafı Fondu və MVM bu ayın əvvəllərində inşaat meydanında günəş panellərinin quraşdırılmasına başlayıblar. Bununla da, layihə növbəti mərhələyə qədəm qoyub.**



İlk günəş panelinin quraşdırılmasından sonra layihə üzrə tikinti işləri hazırda plana uyğun irəliləməkdə davam edir. bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üçün maliyyə məsələləri üzrə vitse-prezidenti Nadir İmanov deyib: “Layihə üzrə aparılan tikinti işlərində bu mühüm mərhələnin başlanmasından çox məmnunuq. Tərəfdaşlarımızla birlikdə əsas diqqətimizi layihənin təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə yönəltməklə tikinti işlərini əminliklə irəli aparırıq. İnanırıq ki, bu mühüm layihə bərpa olunan elektrik enerjisinin istehsalı sahəsini və regiondakı əməliyyatlarımızın karbonsuzlaşdırılmasını dəstəkləməklə Azərbaycanın enerji keçidi səylərinə töhfə verəcək.”

Qeyd edək ki, “Şəfəq” günəş enerjisi layihəsinin tikinti işləri ötən il yekun investisiya qərarının qəbul edildiyi vaxtdan əhəmiyyətli dərəcədə irəliləyib. Ötən müddətdə fotovoltaik modullar, payalar və struktur komponentləri daxil olmaqla əsas avadanlıqların təchizatı və çatdırılması uğurla tamamlanıb. Payaların və izləyici sistemlərin quraşdırılması üzrə işlərdə də ciddi irəliləyiş əldə olunub. Artıq sözügedən avadanlıqların, təxminən, 30 faizinin quraşdırılması başa çatdırılıb.

Layihə üzrə aparılan tikinti işlərində yerli resurslardan maksimum istifadə etmək əsas öhdəliklərdən biridir. İşlərin pik dövründə layihə çərçivəsində 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir. Hazırda layihəyə, təxminən, 350 nəfər yerli işçi cəlb olunub ki, bunların da 123-ü işğaldan azad edilmiş ərazilərdə məskunlaşan sakinlərdir.

Layihə çərçivəsində tikinti işlərinin 2027-ci ildə başa çatması planlaşdırılır. 240 meqavatlıq “Şəfəq” Elektrik Stansiyasında ildə, təqribən, 500 giqavat-saat bərpaolunan enerji istehsal ediləcəyi gözlənilir.

*XQ*

# “SOCAR Türkiyə” alman şirkəti ilə müqavilə imzalayıb

**Almaniyanın “Dräger” şirkəti “SOCAR Türkiyə” ilə əməkdaşlığa başlayır. Bu məqsədlə “Petkim” şirkətinin baş direktoru, “SOCAR Türkiyə”nin neft emalı və neft-kimya biznes istiqamətinin rəhbəri Kənan Mirzəyev və “Dräger Türkiyə” şirkətinin baş direktoru Zafer Kaşıkara arasında 5 il müddətinə strateji saziş imzalanıb.**

Almaniya şirkətinin bununla bağlı məlumatında bildirilib ki, müqavilə “SOCAR Türkiyə” strukturuna daxil olan “STAR” Neft Emalı Zavodu ərazisində stasionar qaz detektorlarının texniki xidməti və dəyişdirilməsini nəzərdə tutur. Şirkətdə hesab edirlər ki, “Həyat üçün texnologiyalar” missiyasına sadiq qalaraq sənaye müəssisələrində təhlükəsizlik səviyyəsinin artırılması üçün texnoloji həllərin tətbiqi davam etdiriləcək.

“Bu əməkdaşlıq istehsalat sahələrində dayanıqlı sənaye təhlükəsizliyinin təmin edilməsi, əməliyyat səmərəliliyinin artırılması və uzunmüddətli tərəfdaşlığın inkişafı baxımından mühüm addımdır”, – deyə məlumatda qeyd olunub.

Qeyd edək ki, Türkiyə iqtisadiyyatının real sektorunda ən iri investisiya layihəsi hesab olunan “STAR” Neft Emalı Zavodu 2018-ci il oktyabrın 19-da fəaliyyətə başlayıb. Müəssisə neft emalını neft-kimya məhsullarının istehsalı ilə birləşdirir.

*XQ*

**1915-ci ildə Osmanlı dövlətində baş verən olayları anlamaq üçün həmin tarixdən əvvəlki illərə, ermənilərin üsyan və təxribatlarına nəzər yetirmək lazımdır. Osmanlı dövləti nədən belə bir qərar verdi? Bu bir gerçəklikdir ki, ermənilərin XIX əsrin sonlarında yaratdıqları təşkilatların hamısı, demək olar ki, terrorçuluq fəaliyyətinə üstünlük verirdilər. Bu partiyaların proqramlarında məqsədə çatmağın vasitəsi kimi insanları öldürmə, terror və ya sui-qəsd yolu ilə onları aradan qaldırma metodu istisna edilmirdi. Həm Osmanlı ərazilərində, həm də əzəli Azərbaycan torpaqlarında – İrəvan xanlığında, Naxçıvanda, Zəngəzurda, Qarabağda törədilən qırğınlar bu qəbildəndir.**

# Təhcir qərarı və saxta soyqırımı iddiaları

## *Erməni millətçiləri 111 ildir ki, öz xalqını və dünyanı aldadırlar*



Silahlı üsyan erməni millliyyətçi təşkilatlarına görə, “qanuni” haqq idi və 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanmasına qədər 30-40 il ərzində 50-dən çox belə üsyanlar olmuşdu. 1877-1878-ci il rus-türk müharibəsindən sonra Van və onun ətrafında ermənilər təşkilatlanmağa başlamışdılar və ermənilər burada ilk üsyanı 1895-ci ildə gerçəkləşdirdilər. Rusiyanın Van və Ərzurumda konsulu olmuş Mayevski baş verən hadisələrlə bağlı xatirələrində yazırdı ki, 1895-1896-cı illərdə Asiya Türkiyəsinin bir çox vilayətlərində yaranmış hərc-mərclik hallarının səbəbləri heç də əhalinin daha sərvətli, varlı sinifləri sırasında olan ermənilərin məzlum vəziyyətində axtarılmamalıdır. “Ermənilərin inqilabi hərəkatının səbəbləri aşağıdakılar idi:

1) onların məlum siyasi kimliyi vardı;

2) onlarda millətçilik, azadlıq və separatizm ideyalarının güclü oyanışı baş verirdi;

3) Qərbin bəzi dövlətləri tərəfindən həmin ideyaların amansız istismarı buna daha ciddi xarakter verirdi”.

Rus konsul Mayevski özü şahidlik edirdi ki, ermənilər 1896-cı ildə Vanda iyun hadisələrini hazırlamaq üçün kənardan xüsusi adamlar cəlb etmişdilər. Onlara Qafqazdan da yardımlar gəlmişdi. Həm Rusiyadan, həm də Qərb ölkələrindən ermənilərin üsyan hərəkatına dəstək gəlməkdəydi və bu, yerli ermənilərin ehtimal edilən savaşda öz dövlətlərinin deyil, düşmən dövlətin yanında yer almasına səbəb oldu. Osmanlı dövləti 1914-1918-ci illərdə, faktiki olaraq, kənarda müttəfiq dövlətlərlə, içəridə isə erməni silahlı birləşmələri ilə savaşmaq məcburiyyətində idi. Ermənilər Rusiya ordusu içərisində hərbi birliklər şəklində Osmanlı dövlətinə qarşı vuruşurdular. Ermənicə dərs kitablarında Rusiya ordusunda 200 min erməninin savaşa qatıldığı etiraf edilir və onlar bununla hətta öyünürlər.

XIX əsrin sonlarında Şərqi Anadoluda törədilən terror aktları beynəlxalq diqqəti özünə cəlb etmək üçün idi. Onlar böyük ölkələrin dəstəyinə bel bağlayaraq belə addımlar atırdılar. Həm də əməlli-başlı silahlanmışdılar. Təsadüfi deyil ki, “Proarmeniya” qəzeti yazırdı: “Biz daim Avropanın, rusların köməyinə bel bağlamamalıyıq, özümüz-özümüzə arxalanmalıyıq”. Həmin qəzetin dərc etdiyi intibahnamədə deyilirdi ki, türklər Berlin müqaviləsinin 3-cü və 61-ci maddələrini yerinə yetirməyə məcbur ediləcəklər.

Ermənilər “azadlıq uğrunda sonuncu çarpışma” adlandırdıqları I Dünya müharibəsi ərəfəsində hərtərəfli azğınlıq nümayiş etdirirdilər. Mətbuatın özündə də bu hiss olunurdu və müharibə baş verdiyi təqdirdə ermənilərin Osmanlı dövlətinə arxadan zərbə vuracaqları bəlli idi. 1912-1913-cü illərdə Bolqarıstanda türklərə qarşı vuruşan Andranik xüsusi amansızlıq etmişdi. Njde də həmçinin. Dünya müharibəsi başlanarkən onlar Tiflisə gəlib rus ordusunun tərkibində türklərə qarşı vuruşmaq niyyətində olduqlarını bildirmişdilər. Erməni könüllülərindən təşkil olunmuş 4 korpusdan birinə rəhbərlik etmək məhz Andranikə həvalə edilmişdi. Bu gün Andraniki “milli qəhrəman” adlandıraraq onun sümüklərini gətirib İrəvanın Yerablur qəbiristanlığında dəfn edib, ona abidə qoyan ermənilər bu şəxsin adicə bir terrorçu olduğunun fərqinə varmırlar. Onu da dərk etmirlər ki, saysız-hesabsız günahsız insanlara qarşı soyqırımı törətmiş bu adam həm də ermənilər üçün fəlakət gətirmişdir. Andranik hardan keçmişsə, orada ölüm və qan izi qalmışdır. Mayevski yazır ki, 1901-ci ilin noyabrında Muş yaxınlığında Andranik adlı bir erməni quldur dəstə başçısı peyda olaraq Surp (ermənicə müqəddəs deməkdir) Arakel monastırını tutur və buranı kiçik qalaya çevirir. O kəndləri daim qorxu altında saxlayırdı.

Makedoniyada qalxmış üsyan Osmanlı imperatorluğunun başını müəyyən qədər qatmış, Andranikin buradakı monastırdan qaçması təşkil edilmişdi. Ermənilər o zaman “Yaşasın Ermənistan” şüarı ilə birlikdə guya, həmrəylik ifadə etdikləri “Yaşasın Makedoniya” deyə qışqırırdılar. Onlar Makedoniyada hadisələrin necə cərəyan edəcəyini izləyir və bundan bir presedent kimi istifadə etmək istəyirdilər. Qarşıda Bolqarıstan nümunəsi də vardı. Bütün bunlar həm erməni mətbuatında, həm də digər ölkələrin dillərində çıxan mətbu orqanlarda yer alırdı. Daşnaklar Avropada fəal iş aparmaqla diqqəti “erməni məsələsi”nə yönəltmək istəyirdilər. Andranikin Balkan müharibəsində bolqarlar tərəfdən türklərə qarşı vuruşması bir tərəfdən xristian həmrəyliyi, digər tərəfdən də ermənilərin də eyni arzularla (xülyalarla) yaşadıqlarının nümunəsi idi. Rusların 31 oktyabr 1914-cü ildə Şərqi Bəyaziddən və 1 noyabr 1914-cü ildə Ərzurum tərəfdən Osmanlı sərhədlərini keçərək irəliləməsini eşidən ermənilər dərhal qisasçı dəstələr qurdular, yolları kəsdilər, türk kəndlərinə hücuma keçdilər, imkanları olan şəhərlərdə üsyana başladılar. Bu üsyanlardan birincisi Zeytunda olmuşdu. Zeytun ermənilərinin Türk bayrağı altında döyüşə getmək istəmədiklərini bəyan etmələri bir yana, onlar bir alay yaradaraq Osmanlı dövlətinə meydan oxudular və dağlara çəkilib ara-sıra əsgərlərə, jandarmaya hücumlar etdilər, xeyli əsgər öldürdülər. 1914-cü ilin 30 avqustundan başlayaraq bölgədə çox böyük gərginlik yaratdılar. “Hnçak” və “Daşnak” komitəçiləri kənd və şəhərlərdə xalqı üsyana qaldırdılar, onların sözünü eşitməyən və üsyana qatılmayan erməniləri də öldürürdülər. Erməni çetələri ingilislərin İsgəndəruna, Adana və Maraşa əsgər çıxaracaqlarını bilirdilər, bu səbəbdən öz mətbuat orqanlarında “erməniləri bu şəhər və vilayətlər işğal edilənə qədər üsyanları çoxaltmağa çağırır”, gizli səfərbərlik keçirib, hər ehtimala qarşı hazır vəziyyətdə olmaq təşviqatı aparırdılar. 1915-ci ilin fevralında Maraşda ermənilər 6 jandarmı öldürdülər, daha sonra üsyanı yatırtmağa gəlmiş 25 əsgəri də şəhid etdilər. Şəhərdən çıxan üsyançılar qarşılarına çıxan kəndlərdə müdafiəsiz dinc əhaliyə divan tutub, onları vəhşiliklə qətlə yetirirdilər. Üsyana başçılıq edən “Hnçak” komitəçiləri burada 62 evi yandırdılar.

* * *

Qafqazda isə taktika bir qədər fərqli idi. Onlar burada Anadoludakı kimi davranmırdılar, ruslara qarşı münasibətdə fərqli mövqe tuturdular, onları ələ alır, silah-sursat əldə edir, bu silahları Anadoluya göndərirdilər. Kayseridə ermənilər Gevork Ercikyan adlı bir ermənini xüsusi tapşırıqla Amerikaya göndərmişdilər ki, orada bomba düzəltməyi öyrənsin. Gevork və onun köməkçiləri çoxlu əl bombası düzəltmişdilər. Ermənilərin gizli “bomba düzəltmə fəaliyyəti” təsadüfən hazırlanan bombanın komitəçinin əlində partlaması ilə üzə çıxdı. Hökumət 21 erməni kilsə və məktəbində gizlədilmiş külli miqdarda silah-sursat ələ keçirdi.

Komitəçilər Van–Diyarbəkir–Hələb–İsgəndərin yolu üzərində olan Bitlis–Muş regionuna xüsusi əhəmiyyət verirdilər, buna görə də buraya ən seçkin nümayəndələrini göndərirdilər. “Hnçak” komitəsinin Paris Baş Mərkəzinin rəhbəri Aram Sabahgülyan və “Murad” təxəllüslü terrorçu buraya göndərilmişdi. Sabahgülyanın “İravunk” və “Hnçak” qəzetlərində silsilə yazıları çap olunurdu və komitə lideri xalqı inandırmağa çalışırdı ki, Osmanlı dövləti müharibədə məğlub olacaq və ermənilər qalib gələcəklər.

Rusiyanın Van və Ərzurumda baş konsulu olmuş general Mayevskinin vaxtilə yazdıqları öz təsdiqini tapırdı. O yazmışdı: “Türkiyədəki ermənilər türklərin zülm və qətliamına məruz qaldıqlarını Avropaya göstərmək istəyirdilər. Proqram bu şəkildə idi: “Ancaq qan tökmək lazımdır ki, ermənilər sərbəstlik qazansın. Qan tökün ki, Avropa sizi himayə etsin”.

“Daşnaksütyun” partiyası da bölgədə fəal iş aparırdı. Osmanlıda səfərbərliyin elanından sonra partiya Rusiyadan təlimat aldı ki, türk ordusunun arxasından zərbə vurulsun. Tarixi sənədlər bu gerçəyi ortaya qoyur. Muş–Bitlis bölgəsində üsyanlar təşkil etmək işinə Vanın millət vəkili Vahan Papazyan məsul idi. Ona digər millət vəkili Vramyan və erməni əsilli rus generalı Loris Melikov kömək etməli idilər. Rusiyadan gələn könüllü ermənilər, türk ordusuna girib silahları ilə birgə fərarilik etmiş ermənilər, kilsələr, komitə fəalları bir “barıt çəlləyi” idilər. Osmanlı artıq müharibə içindəydi. 1915-ci ilin yanvar ayından etibarən Şərqdə ruslarla, Qərbdə – Çanaqqalada müttəfiq dövlətlərlə müharibə edən Osmanlı imperatorluğunun əl-ayağına ermənilər dolaşırdı. Osmanlı ordusunun manevr yolları, teleqraf xətləri ermənilər tərəfindən tutulur, jandarm və əsgərlər, mülki əhali öldürülürdü. Özü də bu, sistemli şəkil almışdı. Dövlət tədbirlər görməli idi və bu məsələlər üst təbəqə səviyyəsində çox ciddi şəkildə müzakirə edilməyə başlanmışdı. Bu barədə tez-tez “Təkvimi-vəkai” qəzetində yazılar dərc olunurdu. Van və ətrafındakı kəndlərdə ermənilərin törətdikləri vəhşiliklər dözüləsi deyildi. Van vilayəti ermənilərin və onların dəstəkçisi olan məlum dövlətlərin ən çox önəm verdikləri yer idi. Buranı gələcəkdə qurulacaq erməni dövlətinin mərkəzi kimi görürdülər. Burada uzun illər missioner fəaliyyəti göstərilmiş, təbliğat və təşviqat işi aparılmışdı. İndi də Avropa ölkələrinə lazım idi ki, “Vanda ermənilər öldürülür, onların heç bir hüququ yoxdur və onların Osmanlı dövlətinə qarşı qaldırdıqları üsyanlar öz haqlarını tələb etmələridir”. Erməni millətçi təşkilatları və onların Av-ropadakı havadarları qələmə verməyə çalışırdılar ki, burada əhalinin çoxluğunu ermənilər təşkil edir. Halbuki Osmanlı statistikasına görə, 1914-cü ildə Vanda yaşayan əhalinin 166 min 609-u türk, 66 min 834-ü erməni idi. Vanın qəzalarının da heç birində ermənilər çoxluq təşkil etmirdilər. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, o zaman Osmanlı Statistika İdarəsinin rəhbəri milliyyətcə erməni idi. Osmanlının rəsmi statistikasını digər mənbələr də cüzi dəyişikliklərlə təsdiq etmişdilər.

Ermənilər üsyan və hücumlar yolu ilə qəzada yaşayan müsəlman əhalini buradan qovub çıxarmaq, Vanda qurmaq istədikləri dövlətin paytaxtı etmək istəyirdilər. Ermənilər öz mətbuat orqanlarında bu dövlətin “Avropa kontrolunda müstəqil bir erməni dövləti” olacağına yerli həmmillətlərini inandırmışdılar. Ona görə də 1915-ci ilin fevral ayında Timar nahiyəsində ermənilər hökumət məmurlarına hücum etdilər. 1000-dən çox üsyançı əldə silah dövlətə tabe olmaqdan imtina etdi və ətraf kəndlərdə qırğınlara başladılar. Van şəhərində gənclər orduya getdiyindən qocalar, yaşlılar qalmışdı. İrandakı türk ordusunun ərzağı bitdiyindən oraya 12–13 yaşlı 120 uşağın ərzaq aparması qərarına gəlinmişdi. Könüllü olaraq 120 uşaq yanlarında bir neçə jandarm ilə birlikdə bellərinə ərzağı götürərək yola çıxmışdılar. Ermənilər uşaqların bu cəsarətinin qarşısını almaq üçün yolları kəssə də, uşaqlar ərzağı əsgərlərə çatdırmışdılar. Onlar geri dönərkən güclü qar yağmış, çovğun olmuşdu. Həmin uşaqlardan yalnız 40-ı fəlakətdən qurtula bilmişdi, qalanlarının donmuş cəsədləri tapılmışdı. Xəstəxanalar İran cəbhəsindən gətirilən yaralılarla dolu idi. Onları türk həkimlərlə yanaşı, erməni doktor Maltzyan da müalicə edirdi. Don vurmuş uşaqlardan bir çoxunun doktor Maltzyan tərəfindən xilas edilməsi erməniləri narazı salmışdı. Xalqın bu üzücü hadisələrdən sarsıntıları bitməmiş ermənilər yenidən ayağa qalxmışdılar. Aprelin 10-da doktor Maltzyan ermənilər tərəfindən asılmış və sinəsinə bu sözlər yazılmış plakat qoyulmuşdu: “Düşmənlərimizə xidmət edənlərin aqibəti budur”. Bu fakt göstərir ki, ermənilər onlara tabe olmayan həmmillətlərinə də divan tutmaqdan çəkinməmişlər. Van valisi Cevdət bəyin əmri ilə vəhşicəsinə öldürülmüş erməni doktor şərəf və xidmətinə uyğun olaraq ləyaqətlə dəfn edildi. Bu hadisə ilə əlaqədar “Təkvimi-vəkai” yazmışdı: “Doktor heç kəsin düşməni deyildi, o insanlığa qarşı gələnlərin düşməni idi”.

Osmanlı dövlətinin səfərbərlik elanından sonra erməni komitələri rusların gəlişini eşidərək onların işğalını asanlaşdırmaq üçün hər cür təxribatlara əl atırdılar. Bir qəzet yazırdı ki, onlar hətta o dərəcədə qudurmuşdular ki, küçə ilə hərəkət edən jandarm və dövlət məmurlarına hücum edir, xəlvətə salıb onları öldürürdülər. Erməni məktəb və kilsələrində “erməni istiqlalı” ilə bağlı xəritələr, plakatlar, komitə başçılarının, quldur dəstə rəislərinin (xmbabedlərin) şəkilləri asılırdı. Bu haqda dövri mətbuatda yazılar yer almaqda idi. Diyarbəkirdə ermənilərin bir məsələni də sevinclə qarşılamsı barədə “Horizon” qəzetində xəbər yer almışdı. Həmin xəbərdə deyilirdi ki, “Azərbaycanda rusların qələbəsini erməni xalqı sevinclə qarşılamışdır”. Ermənilərin əvvəlcədən qurduqları quldur qrupunun (50-dən artıq fərari erməni) şəhərin mərkəzlərini, önəmli nöqtələri tutacaqları barədə məlumat alan hökumət tədbirlər gördü. Ermənilər yaşayan evlərdə axtarışlar aparıldı. Təkcə Diyarbəkirin mərkəzində altmışdan çox qutuda dinamit, yüzlərlə tüfəng və mauzer tapançalar tapıldı. Əsgərlikdən silahı ilə qaçıb fərarilik edən 300-ə qədər erməni gənci gizləndikləri yerlərdən çıxarıldı. Onlardan bir çoxları Muş, Bitlis və Van dağlarında gizlənmiş terrorçu qruplara qoşulmuş və rusların işğalını asanlaşdırmaq üçün hər cür cinayətlər törətmişdilər.

Yozqatın ilçələrində də erməni zülmü barədə xəbərlər Osmanlı mətbuatında yer almışdı. Boğazlıyanın yunan Dikən kəndində ermənilər kəndin jandarm məntəqəsini ələ keçirmişdilər. Qumquyu kəndində Şükrü adlı jandarmı, Yaqub və Musa adlı vətəndaşı öldürmüşdülər. Sivasda erməni üsyanları ara vermirdi. Daniel Çavuş, Sivaslı Murad adlı quldurbaşılar ətraflarına çoxlu komitəçi toplayaraq dövlətə açıq müharibə elan etmişdi. Sivasda ermənilərə paylanan bir intibahnamədə (bu intibahnamə “Or” (“Gün”) qəzetində də çap edilmişdi) deyilirdi: “Türklərin məşrutiyyət və hürriyyətdə məqsədi erməniləri kəsməkdi. Müsavat (bərabərlik), uhuvvət (qardaşlıq) kəlmələrinə heç vaxt inanmayın. Ermənilərin hürriyyəti silah, bomba ilə əldə ediləcəkdir. Öküzünüzü satın, bomba alın”. Şəbinqarahisarda belə bir hadisə olmuşdu. Kənddən dönən amerikalı müəllim Huborq öldürülmüşdü. Ermənilər qatilin türk olduğunu iddia edirdilər. Lakin qısa müddət keçəndən sonra qətli törədən şəxsin erməni komitəçisi olduğu öyrənildi, amerikalı müəllimin öldürülməsinə səbəb isə onun silahını əldə etmək olmuşdu.

* * *

Arşavir Siracyan adlı erməni yazıçısı “Bir erməni terrorçunun etirafları” adlı kitab yazıb çap etdirmişdi. Həmin kitabında müəllif göstərir ki, erməni separatçı qruplar öz fəaliyyətlərini təkcə Şərqi Anadoluda deyil, İstanbul və digər böyük şəhərlərdə də genişləndirmişdilər. Onların fikri təkcə Şərqi Anadoluda müstəqil bir erməni dövləti qurmaq deyil, həm də Osmanlı dövlətini içindən parçalamaq idi. 1880-ci illərdən bəri Rusiya və digər dövlətlərin verdiyi silahlarla illər boyu davam edən erməni üsyanları nəticəsində bir çox müsəlman kəndləri talan edilmiş, qocalar və qadınlar bir yerə toplanaraq yandırılmış, tarixdə görünməmiş vəhşiliklər törədilmişdi. Siracyan qeyd edir ki, XIX əsrin sonlarından etibarən türk dövlət adamlarına qarşı terror aktları törətmək planları olmuşdur. O qeyd edir ki, “beynəlxalq politikanın oyuncağı” halına gələn ermənilərin türklərlə düşmənçilik etməkdən başqa yolu qalmamışdı. Müəllif açıq etiraf edir ki, Osmanlının ən ağır vaxtlarında belə nasistlərin başqa millətlərə tətbiq etdiyinə oxşar ermənilərə qarşı edilən bircə dənə də fakt yoxdur. Deməli, qondarma “erməni soyqırımı”nı yəhudilərə tətbiq edilmiş soyqırımı ilə qətiyyən müqayisə etmək mümkün deyil. İndi dünya üçün bu fikirlər yenilik deyildir ki, ermənilər terrora, üsyana qarşıdurmaya təhrik ediliblər. Vahe adlı terrorçunun həyat yolu bunu sübut edir. Müəllifin heç şübhəsi yoxdur ki, bu şəxs erməni xalqının qəlbində ölümsüzləşəcək, gələcək mübarizəsində ona yardımçı olacaq. Terrorçunun qətl hərəkətləri, vəhşiliyi, qana, ölümə susamış xarakteri açılarkən, çox qəribədir ki, ona haqq qazandırılır.

*(ardı var)*



***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

**Azərbaycan iqtisadiyyatında son illər özünü qabarıq büruzə verən təzadlı bir vəziyyət daha çox diqqət çəkir. Belə ki, ölkədə ixrac göstəriciləri yüksəlir, qeyri-neft sektoru genişlənir, lakin daxili bazarda qiymətlər sabitləşmir, əksinə, gündəlik istehlak məhsullarında bahalaşma daha kəskin hiss olunur. Bu ziddiyyət cəmiyyətin həssas təbəqələrində narahatlıq doğurur və eyni zamanda, iqtisadi siyasətin prioritetləri ilə bağlı ciddi müzakirələrə gətirib çıxarır. Çünki respublika iqtisadiyyatında inkişaf təkcə ixrac rəqəmləri ilə deyil, həm də daxili bazarda tələbatın dolğun ödənilməsi ilə ölçülür.**

# Yerli istehsal xeyli artıb, daxili tələbat isə ödənilmir

## *Yaxud əvvəl evin içi, sonra çölü*

### İdxaldan asılılıq və “xərc inflyasiyası”

Bu ilin ilk rübündə ölkənin qeyri-neft ixracı 11,7 faiz artaraq 862 milyon dollara çatması, qida ixracının isə 25,1 faiz çoxalaraq 281 milyon dollara yüksəlməsi rəsmi statistikada müsbət dinamika kimi qiymətləndirilir. Bu artım həm kənd təsərrüfatı, həm də emal sənayesində müəyyən irəliləyişlərə nail olduğunu göstərir. Xüsusilə qida ixracındakı artım ilk baxışdan daxili istehsalın güclənməsi kimi nəzərə çarpır.

Lakin ixracın artması daxili bazar qiymətlərinin ucuzlaşmasına təsir göstərməsi anlamına gəlmir. Əksinə, müəyyən hallarda ixracın yüksəlməsi daxili bazarda təklifin azalmasına, məhsulun ölkə daxilində çatışmazlığına və qiymətlərin yüksəlməsinə gətirib çıxarır. Yəni istehsal eyni tempdə artmırsa və daxili bazarın tələbatı tam ödənmirsə, deməli, ixrac daxili qiymətləri aşağı salmaq əvəzinə daha da artıran amilə çevrilir.

**İqtisadçı-ekspert Rəşad Həsənovun** sözlərinə görə, Azərbaycanda yerli istehsalın mühüm hissəsi idxal olunan xammal və yarımfabrikatlardan asılıdır. Bu isə qiymət artımının əsas mənbələrindən biri sayılır. Çünki idxal məhsulları bahalaşdıqda, həmin xammalla istehsal olunan yerli məhsulun maya dəyəri də yüksəlir.

Burada “xərc inflyasiyası” anlayışı ön plana çıxır. Bu inflyasiya növü istehlakçı tələbatının artması ilə deyil, istehsal xərclərinin yüksəlməsi ilə bağlıdır. Respublikada ərzaq məhsullarının, un və yağ istehsalının belə müəyyən komponentləri xaricdən asılı olduğundan dünya bazarındakı qiymət dəyişiklikləri və logistika xərcləri birbaşa daxili bazara ötürülür. Məsələn, kənd təsərrüfatında istifadə olunan toxum, gübrə, yem, pestisid və texniki avadanlıqların böyük hissəsi idxal hesabına təmin edilir. Əgər manatın məzənnəsi sabit qalsa belə, dünya bazarında qiymət artımı və daşınma xərcləri yenə də daxili istehsalın bahalaşmasına gətirib çıxarır.

Azərbaycanda son illər aqrar sektorda istehsalın artması məqsədilə bir sıra mühüm proqramlar həyata keçirilir. Subsidiyalar genişləndirilir, fermerlərə dəstək proqramı həyata keçirilir, yeni əkin sahələri istifadəyə verilir, suvarma infrastrukturu yenilənir. Lakin buna baxmayaraq, yerli istehsalın daxili tələbatı tam ödəmək qabiliyyəti hələ də məhdud qalır.

Mütəxəssislərin fikrincə, narahatlıq doğuran bu məsələnin bir neçə səbəbi var. Birincisi, kənd təsərrüfatında məhsuldarlıq hələ də arzu olunan səviyyədə deyil. Eyni sahədən daha çox məhsul əldə etmək üçün müasir texnologiya, düzgün aqrotexniki yanaşma və keyfiyyətli toxum bazası tələb olunur. İkincisi, istehsalın strukturunda balans probleminin həllinə ciddi yanaşılmır. Belə ki, bəzi məhsullar üzrə artım müşahidə olunsa da, strateji malların bir hissəsində hələ də idxal üstünlük təşkil edir. Üçüncüsü isə mövsümi istehsal modeli daxili bazarda qiymət sabitliyini pozur. Belə ki, məhsul yığımı dövründə qiymətlər enir, mövsüm bitdikdən sonra isə bazarda təklif azalır və qiymətlər sürətlə yüksəlir. Bu amillər göstərir ki, daxili bazarda sabit qiymət formalaşdırmaq üçün təkcə istehsal artımı kifayət etmir, həm də həmin istehsalın idarə olunması, saxlanılması və bazara düzgün çıxarılması həssas şərtlər sırasında yer alır.

Azərbaycanda ixrac imkanlarının genişlənməsi fermerlər üçün iqtisadi baxımdan daha cəlbedici şərait yaradır. Çünki xarici bazarda bəzən daha yüksək qiymət təklif olunur. Nəticədə istehsalçı məhsulunu daxili bazara deyil, ixraca yönəltməyə çalışır. Əslində, bu, normal bazar davranışıdır. İstehsalçı üçün əsas məqsəd gəlir əldə etməkdir. Dövlət ixracı stimullaşdırdıqda və xarici bazar daha gəlirli olduqda, daxili bazarda məhsul təklifi azalır. Belə halda isə qiymət artır. Bununla da ixracın artması daxili qiymətlərdə əlavə yüksəliş dalğası yaradır. Bu mexanizm, xüsusilə, tərəvəz, meyvə, kartof, soğan, pomidor, eləcə də bəzi emal məhsullarında özünü daha çox göstərir.





### *Ekspert rəyi*

**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**

Real sektorda ixracın həcminin artığı bir şəraitdə yerli bazarda qiymətlərin sabitləşməməsi, əksinə, bir qayda olaraq davamlı şəkildə yüksəlməsi nə ilə bağlıdır? Sualın cavabı ilə bağlı əvvəlcə onu xatırladım ki, ölkədə həm yerli istehsal, həm də idxal məhsulları üzərində ciddi inhisarçılıq fəaliyyəti ciddi narahatlıq doğurur. İnhisarçılar ötən illərlə müqayisədə öz fəaliyyətlərini xeyli “təkmilləşdiriblər”. İndi heç kim kiməsə demir ki, “sən məhsulu monopolistdən icazə almadan gətirə bilməzsən”. Lakin bu işi “özbaşına” həyata keçirən həmin inhisarçılar özlərinin eyniadlı mallarının qiymətlərini aşağı salmaqla elə bir şərait yaradırlar ki, adam ziyan etsə belə, gətirdiyi məhsulu o şəxslərə, yaxud şirkətlərə təhvil vermək məcburiyyətində qalır. Ölkədə inhisarçıların yeni “modeli” məhz belə işləyir.

Yerli istehsalın ixracyönlü payının artması yaxşı haldır. Lakin ixrac üçün nəzərdə tutulan məhsullar onu istehsal edənlərə daha çox mənfəət gətirdiyindən, həmin malların böyük bir hissəsi daxili bazara deyil, xarici ölkələrin satış nöqtələrinə yönəldilir. Bununla da istehsalın artmasına baxmayaraq, onun yerli bazara təsiri ya olmur, ya da çox zəif hiss edilir.

Digər tərəfdən cari ilin ilk rübündə kənd təsərrüfatında ümumi daxili məhsulun həcmi cəmi 1,1 faiz artıb ki, bu da çox aşağı bir göstəricidir. Ötən ilin birinci rübü ilə müqayisədə ölkədə dənli və dənli paxlalı bitkilərin istehsalı 2,4 faiz, kartof istehsalı 7,4 faiz, tərəvəz istehsalı 9,2 faiz, bostan bitkilərinin istehsalı 11,3 faiz azalıb. Müqayisə aparılan dövrdə iribuynuzlu və xırdabuynuzlu mal-qaranın sayında da 1 faiz ətrafında azalmalar qeydə alınıb. Bütün bu sadalanan hallar və konkret göstəricilər sonda yerli bazarlarda qiymətlərin sabitləşməsini çətinləşdirir.

### Dövlət dəstəyindən xarici bazar bəhrələnir

**Milli Məclisin deputatı Vüqar Bayramovun** sözlərinə görə, dövlətin subsidiyaların tətbiqi ilə gübrə və digər aqrar xərclərin bir hissəsini öz üzərinə götürməsi istehsalçının maliyyə yükünü azaldır və istehsalı stimullaşdırır. Bu, doğru istiqamətdə atılmış addımdır. Amma reallıq onu göstərir ki, subsidiyalar istehsalın maya dəyərini müəyyən qədər aşağı salsa da, bazar qiymətlərinin dərhal ucuzlaşmasına zəmanət vermir. Çünki bazarda qiyməti təkcə maya dəyəri yox, həm də tələb-təklif balansı, vasitəçilərin rolu, logistika, saxlanma imkanları və idxal alternativləri müəyyən edir.

Bəzi hallarda subsidiyalar istehsalçını gücləndirsə də, məhsul yenə də bazarda yüksək qiymətə satılır və subsidiyanın real faydası istehlakçıya çatmır. Bu isə subsidiya siyasətinin daha məqsədli və nəticəyönümlü formada qurulmasını zəruri edir. Bu məsələdə əsas boşluq marketinq və satış infrastrukturu ilə bağlıdır. Deputat Vüqar Bayramovun xüsusi vurğuladığı marketinq problemi isə ölkənin kənd təsərrüfatının ən zəif həlqələrindən biridir. Məsələn, fermer məhsulu istehsal edə bilir, lakin onu bazara çıxarmaq, saxlamaq və uyğun vaxtda satmaq imkanları məhdud olur.

Bu məhdudiyyətlər bir neçə mənfi nəticə ilə yadda qalır. Əvvəla fermer məhsulu mövsüm dövründə ucuz qiymətə satmaq məcburiyyəti ilə üzləşir. Bu zaman vasitəçi daha çox qazanc əldə edir. Bir müddət ötdükdən sonra isə bazarda məhsul çatışmazlığı yaranır və bu, qiymətlərin kəskin bahalaşmasına gətirib çıxarır. Beləliklə, istehlakçı ilin müəyyən dövrlərində yüksək məbləğdə vəsait ödəməli olur. Bu isə logistika və satış zəncirinin qiymət sabitliyinin əsas səbəblərindən biri kimi narahatlıq doğurduğunu göstərir.

V.Bayramovun təklif etdiyi yanaşma – dövlətin müəyyən məhsulları alıb soyuducu anbarlarda saxlaması və mövsümdənkənar dövrdə bazara çıxarması iqtisadi baxımdan mühüm mexanizm kimi diqqət çəkir. Bu, bir sıra ölkələrdə uğurla tətbiq olunan modeldir və iki istiqamətdə fayda verir. Birincisi, fermer mövsümdə məhsulu dəyər-dəyməzinə satmaqdan xilas olur. Dövlət isə alış mexanizmi vasitəsilə onun gəlirini qoruyur. İkincisi, dövlət ehtiyatları mövsümdənkənar dövrdə bazara çıxararaq qiymətlərin süni və kəskin bahalaşmasının qarşısını alır.

Bu model bazarda “tənzimləyici balans” rolunu oynayır. Belə ki, əgər ticarət müəssisələrində məhsul azalırsa, bu problem dövlətin ehtiyat fondu hesabına həllini tapır. Yaxud bazarda bolluq müşahidə edilirsə, dövlət bu şəraitdən yararlanaraq məhsul alır və ehtiyatı artırır. Beləliklə, bazarlarda qiymət dalğalanması yumşaldılır. Amma bu məsələdə dövlətin düzgün müdaxiləsi, şəffaflığın diqqətdə saxlanılması əsas prinsiplərdən biridir. Əks təqdirdə, dövlət alışı zamanı yol verilən neqativ hallar korrupsiya və qeyri-şəffaf tenderlərin keçirilməsinə yol aça bilər.

Məhsulun saxlanması zamanı itkilər yaranması, bazar mexanizminin pozularaq özəl sektorun marağını zəiflətməsi, dövlət ehtiyatlarının satışı ilə bazar rəqabətinin aşağı düşərək monopoliyaya şərait yaratması kimi mənfi hallara qarşı ciddi mübarizə aparılmalıdır. Buna görə də şəffaflıq daha çox diqqət mərkəzində saxlanılmalı, rəqabətli satınalma, dəqiq kvotalar və ciddi audit sistemi yüksək səviyyədə qurulmalıdır. Əks halda, dövlətin bazara müdaxiləsi qiymətləri sabitləşdirmək əvəzinə, daha çox problem yarada bilər.

### Fermer niyə bazara çıxa bilmir?

Ölkədə ərzaq qiymətlərində bahalaşmanın mühüm səbəblərindən biri də tədarük zəncirində vasitəçilərin çoxluğudur. Fermerdən istehlakçıya qədər məhsul, necə deyərlər, bir neçə əl dəyişir. Hər mərhələdə əlavə xərclər və qazanc marjası qiymətə yüklənir. Bəzən isə məhsulun istehsal qiyməti ilə bazar qiyməti arasında iki-üç dəfə fərq yaranır. Bu isə istehlakçının daha baha, fermerin isə daha ucuz satması deməkdir. Nəticədə ən böyük qazancı nə fermer, nə də istehlakçı əldə edir, əsas gəlir vasitəçilərin payına düşür. Bu problemin həlli üçün birbaşa satış platformaları, fermer bazarları, regional logistika mərkəzləri və dövlət-özəl tərəfdaşlığı ilə tədarük sisteminin gücləndirilməsi vacibdir.

Azərbaycanın qeyri-neft ixracını artırması dövlət strategiyası baxımından doğrudur. Çünki neftdən asılılığın azalması, valyuta gəlirlərinin şaxələndirilməsi və yeni bazarların qazanılması iqtisadi təhlükəsizlik üçün önəmlidir. Lakin ixrac strategiyası daxili bazarın təhlükəsizliyi ilə paralel aparılmalıdır. Əks halda, ölkədə belə bir mənzərə formalaşır: istehsal, ixrac və valyuta gəlirləri artır, amma vətəndaşın süfrəsindəki məhsul bahalaşır. Bu, iqtisadi artımın real faydasını zəiflədən ən təhlükəli tendensiyalardan biri kimi narahatlıq doğurur.

Bu baxımdan dövlət siyasətinin əsas məqsədi ixracdan gəlir əldə etmək, eyni zamanda, daxili bazarda məhsul bolluğu yaratmaq, qiymətlərin kəskin dalğalanmasının qarşısını almaq və sosial rifahı qorumaq olmalıdır. Mövcud vəziyyət isə göstərir ki, Azərbaycanda qeyri-neft və qida ixracının artması iqtisadi inkişafın müsbət göstəricisidir, lakin daxili bazarda qiymətlərin yüksəlməsi həmin inkişafın sosial səmərəliyini zəiflədir. Əsas səbəblər idxaldan asılılıq, yerli istehsalın məhdud imkanları, mövsümi təklif çatışmazlığı, marketinq və logistika boşluqları, eləcə də vasitəçilərin bazarda üstün mövqeyidir.

Deputat Vüqar Bayramovun təklif etdiyi dövlət alış mexanizmi və ehtiyat anbar sisteminin yaradılması isə qiymət sabitliyinə töhfə verə bilər. Lakin bu yanaşma şəffaf və səmərəli idarəetmə tələb edir. Bu gün iqtisadiyyatın ixrac rəqəmlərinin artımını daxili bazarda qiymət sabitliyi və sosial rifahla uzlaşdıra bilmək əsas çağırışlardan biridir. Əgər bu balans qurularsa, qeyri-neft ixracındakı artım təkcə statistik göstərici olmayacaq, həm də vətəndaşın həyatında real rahatlıq yaradacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

*“Şəhərsalma və Memarlıq İli”*

# Şəkinin XIX əsr qala abidələri

**Azərbaycanın dövlətçilik tarixində özünəməxsus rolu olmuş Şəki xanlığının daxili və xarici siyasəti qonşu dövlətlərin siyasi maraqları ilə uyğunlaşmırdı. Xüsusilə Azərbaycanın birləşdirilməsi uğrunda apardığı mübarizə Rusiya imperiyasını daha çox narahat edirdi.**

1805-ci ildə bağlanmış Kürəkçay müqaviləsindən sonra Şəki xanlığı formal şəkildə Rusiyanın tabeliyinə keçmiş, 1819-cu ildə isə tamamilə ləğv edilərək imperiyanın inzibati ərazi sisteminə daxil edilmişdir. Bu dəyişikliklər Şəki şəhərinin, xüsusilə də qala daxilinin memarlıq simasına birbaşa təsir göstərmişdir.

İmperiya bölgədə idarəetməni gücləndirmək üçün qala daxilində rus qoşunları üçün inzibati və hərbi binalar tikdirdi. Qala daxilində tikilən binalar memarlıq baxımından xanlıq dövrü tikililərindən müəyyən dərəcədə fərqlənirdi. Belə ki, onların inşasında yerli memarlıqla yanaşı, rus memarlığının da izlərini görmək mümkündür.

Çar Rusiyası dövründə Şəki qalası daxilində inşa olunan tikililərin bir hissəsi günümüzədək qorunub saxlanılmış, bir qismi isə zamanla dağıntıya məruz qalmışdır. Günümüzə gəlib çatmış binalardan; əsgər kazarmalarını, keçmiş hərbi-inzibati binanı, əsgər camaşırxanasını, təcridxana binalarının və başqalarını qeyd edə bilərik.

Qala daxilində yerləşən mühüm tikililərdən təcridxana binaları xüsusi yer tutur. Binalar 1895-ci ildə bişmiş qırmızı kərpicdən inşa edilmişdir. Binaların tikintisində inzibati nəzarət və təhlükəsizlik prinsiplərinə əməl olunmaqla yanaşı, fasad görünüşlərinə də xüsusi diqqət yetirilmişdir. Belə ki, tikintidə qırmızı kərpicdən istifadə olunaraq maraqlı fasad görünüşləri də əldə edilmişdir.

Qala daxilində yerləşən mühüm tikililərdən biri keçmiş qəza idarəsi binasıdır (keçmiş hərbi-inzibati bina). Bina inzibati mərkəz kimi fəaliyyət göstərərək bölgənin idarə olunmasında əsas rol oynamışdır. Funksional plan quruluşu olan tikili sadə fasad görünüşünə malikdir.

Qala daxilində yerləşən hərbi kazarma binaları da xüsusi yer tutur. Bu binalar rus qoşunlarının yerləşdirilməsi üçün nəzərdə tutulmuş və strateji baxımdan əlverişli mövqelərdə inşa edilmişdir. Kazarmalar, əsasən, daşdan və kərpicdən tikilmiş, möhkəm və davamlı konstruksiyaya malik olmuşdur.







Həmin dövrdə inşa edilmiş anbar binası da xüsusi əhəmiyyət daşıyır. Bu tip tikililərdə ərzaq və hərbi ləvazimatlar saxlanılırdı. Anbarlar, adətən, qalın divarlı, az pəncərəli və təhlükəsizlik baxımından etibarlı şəkildə layihələndirilirdi.

Adları sadalanan binaların inşasında yerli tikinti materiallarından – daş, bişmiş qırmızı kərpic və əhəng məhlulundan istifadə edilmişdir. Yerli sənətkar və ustalar bu tikililərdə həm milli memarlıq ənənələrinin, həm də rus memarlıq üslubunun sintezini yaratmışlar.

Sovet hakimiyyəti dövründə sözügedən binalarda səhiyyə, mədəniyyət müəssisələri (muzey, arxiv, kitabxana, musiqi məktəbi və s.) uzun müddət fəaliyyət göstərmişdir.

Müstəqillik dövründə həmin tikililərdə fəaliyyət göstərən bəzi müəssisələr müasir tələblərə cavab verən başqa binalara köçürüldüyü üçün tikililər boşaldılmışdır. Boşaldılan və hazırda fəaliyyət göstərən binalarda (muzey, rəsm qalereyası, şəbəkə emalatxanası) AR DTA təşkilatçılığı və maliyyə dəstəyi ilə təmir-bərpa işləri aparılmış, tarixi tikililərə ikinci nəfəs verilmişdir.

Bununla yanaşı, qala daxilində yerləşən tarixi tikililərə “Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 noyabr 2021-ci il 338 nömrəli qərarı ilə yerli əhəmiyyətli abidə statusu verilmişdir.

Şəki qalasında çar Rusiyası dövründə inşa olunan, qorunub saxlanılan bu abidələr regionda baş verən siyasi və sosial dəyişikliklərin memarlıqda əksini nümayiş etdirir. Bu tikililər, eyni zamanda, Şəkinin tarixi inkişaf mərhələlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

***Sevil MİRZƏLİYEVA,***
***Şəki “Yuxarı baş” Milli Tarix-Memarlıq Qoruğunun elmi işçisi***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 100** **14 aprel 2026-cı il, Bakı şəhəri**

**“Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılmasına və təlimlərin keçirilməsinə görə haqqın məbləği”nin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının 2.4.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılmasına və təlimlərin keçirilməsinə görə haqqın məbləği” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 101** **15 aprel 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və MOL Vector Ltd arasında Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi”nə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 sentyabr tarixli 734 nömrəli Sərəncamına əsasən 2025-ci il 17 dekabr tarixində imzalanmış “Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və MOL Hungarian Oil and Gas Public Limited Company arasında Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi”nə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və MOL Hungarian Oil and Gas Public Limited Company arasında Azərbaycan Respublikasının Şamaxı, Qobustan, Abşeron, Hacıqabul və Ağsu rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi”nin 5-ci əlavəsində qeyd olunmuş “Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 103** **15 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği”ndə dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 oktyabr tarixli 736 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 50 (Cild I); 2024, № 5 (II kitab), maddə 579, № 9, maddə 1067) ilə təsdiq edilmiş “Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği”nə aşağıdakı məzmunda 2.1.9-cu yarımbənd əlavə edilsin:

“2.1.9. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada 1,5-3 dəfə artım əmsalları tətbiq edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 104** **15 aprel 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1279 (Cild I); 2024, № 12 (I kitab), maddə 1323; 2025, № 12 (II kitab), maddə 1222) 1-ci hissəsində “Budaqov Tahir Yaqub oğlu” sözləri “Mursaqulov Azər İsmayıl oğlu” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 105** **16 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 262 (Cild I); 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş “Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı”nın “59. Siyasi elmlər” bölməsinin “Elm sahələri və ixtisaslar” sütununda “Davamlı inkişafın idarə edilməsi” sözləri “Davamlı inkişaf” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 102** **15 aprel 2026-cı il, Bakı şəhəri**

**Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin ayrılması haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 90 nömrəli Fərmanının 1.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Bakı şəhəri Sabunçu rayonu, Nardaran qəsəbəsinin şimal hissəsində “Sea Breeze Resort” istirahət zonası üçün yaşayış və qeyri-yaşayış binalarının tikintisi ilə əlaqədar Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında 9,08 hektar və su akvatoriyasında 46,0 hektar olmaqla, sahilboyu zolağa bitişik biri düzbucaqlı və digəri gəmi formasında olan iki süni torpaq sahəsinin yaradılması məqsədilə ümumilikdə 55,08 hektar su fondu torpaq sahəsi ayrılsın *(torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini əks etdirən yerquruluşu planı əlavə olunur)*.

**2.** Bu Qərarın 1-ci hissəsinə əsasən yaradılması nəzərdə tutulan süni torpaq sahəsində tikintisi başa çatmış tikinti obyektlərinin istismarına icazə verildikdən sonra həmin torpaq sahəsi yaşayış məntəqələrinin torpaqları kateqoriyasına aid edilsin.

**3.** Dövlət və bələdiyyə orqanlarının öz səlahiyyətlərini müvafiq inzibati ərazi vahidi hüdudlarında həyata keçirməsi üçün bu Qərarın 1-ci hissəsinə əsasən yaradılması nəzərdə tutulan süni torpaq sahəsi Nardaran qəsəbəsinin hüdudları çərçivəsində olmaqla Bakı şəhəri Sabunçu rayonunun inzibati ərazisinə aid edilsin.

**4.** Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə ayrılmış 55,08 hektar su fondu torpaq sahəsi üzərində yaranmış icarə hüququnun dövlət qeydiyyatına alınması üçün icarə hüququ yaranmış sifarişçi qismində “Nardaran İnvest” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə torpaq icarəsi müqaviləsinin bağlanılmasını təmin etsin.

**5.** Bu Qərar qüvvəyə mindiyi tarixdən süni torpaq sahəsinin yaradılması və həmin 55,08 hektar torpaq sahəsində tikinti obyektlərinin inşası üçün tikintiyə icazə “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**6.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 5-ci hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**7.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Bakı Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

**8.** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 106** **16 aprel 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi və “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 dekabr tarixli 240 nömrəli Qərarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 3.10-cu bəndinin və “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 564 nömrəli Fərmanının 3.9-cu bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi və “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 dekabr tarixli 240 nömrəli Qərarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 178 (Cild I); 2024, № 4, maddə 456, № 6 (II kitab), maddə 737, № 12 (I kitab), maddə 1317) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxsin Nizamnaməsi”nin 5.1-ci bəndində “473605880 (dörd yüz yetmiş üç milyon altı yüz beş min səkkiz yüz səksən)” sözləri “567 605 880 (beş yüz altmış yeddi milyon altı yüz beş min səkkiz yüz səksən)” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 109** **17 aprel 2026-cı il, Bakı şəhəri**

**“Ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələri üzrə ixtisasların təsnifatının təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın, “Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı”nın və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 14 iyun tarixli 95 nömrəli, “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2009-cu il 12 yanvar tarixli 8 nömrəli, “Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli və “Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların Təsnifatı”nın təsdiq edilməsi və “Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” 2012-ci il 24 dekabr tarixli 314 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında” 2019-cu il 11 fevral tarixli 45 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (I kitab), maddə 1308) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı”na aşağıdakı məzmunda 6.46-cı bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| 6.46. | 6006046 | Daşınmaz əmlakın idarə olunması |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 110** **20 aprel 2026-cı il, Bakı şəhəri**

**“Elektron notariat” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Torpaq bazarı haqqında”, “Notariat haqqında”, “İcra haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “İpoteka haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 250-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 462 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Elektron notariat” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176 (Cild I); 2024, № 1, maddə 119, № 2, maddə 241) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Elektron notariat” informasiya sistemi haqqında Əsasnamə”nin 12.3.16-cı yarımbəndinə “məlumatlar” sözündən sonra “, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda daşınmaz əmlak və rəsmi reyestrdə qeydiyyata alınan daşınar əmlak üzərində hüquqların rəsmiləşdirilməsi üçün protokol və notarius vasitəsilə rəsmiləşdirilən alqı-satqı müqaviləsi əsasında satılmalı olan əmlak barədə icra məmurunun qərarı” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*Təqvim yada salır*

# Qarabağ Zəfəri ümummilli qürur mənbəyimizdir

## *Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayından – Qələbə təntənəsindən 4 il ötür*

**Bəzən insan hansı ölkədə yaşamasından asılı olmayaraq, öz dilində danışdığı bir nəfərlə qarşılaşdığı anda coğrafiya, sərhədlər və minlərlə kilometr məsafə önəm daşımır, yalnız tanış sözlərin yaratdığı istilik insanın könlünü oxşayır. Başqa ölkədə yaşamaq insanı yeni mədəniyyətlərə uyğunlaşdırır. Yeni dillər, adətlər, gündəlik ritm fonunda isə əsas məqam dəyişməz qalır, milli kimlik hissi...**




Dünya azərbaycanlılarının qurultayları müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın bir araya gəldiyi platformadır. 2001-ci ildə keçirilən ilk qurultay müstəqil Azərbaycanın diasporla münasibətlərində yeni səhifə açdı. O dövrdə əsas məqsəd dünya azərbaycanlılarını bir araya toplamaq və əlaqələri sistemli hala gətirmək idi.

Azərbaycan diaspor siyasətinin son onilliklərdəki inkişafı dövlətçilik strategiyasının mühüm istiqamətlərindəndir. Bu prosesin ideoloji və praktik əsasları ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirdiyi siyasətlə yeni mərhələyə yüksəlib. Diaspor siyasəti milli kimliyin qorunması və Azərbaycan həqiqətlərinin qlobal müstəvidə təqdim olunması baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahə artıq sistemli və konkret hədəflər üzərində qurulub. Bu hədəflər arasında milli-mənəvi dəyərlərin qorunması, azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi və ölkənin beynəlxalq nüfuzunun artırılması xüsusi yer tutur. Azərbaycançılıq ideologiyası diaspor siyasətinin mərkəzində dayanır. Bu ideologiya müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir amal uğrunda birləşdirir. Qurultaylarda ABŞ, Avropa, Mərkəzi Asiya, Yaxın Şərq və digər ölkələrdə yaşayan azərbaycanlılar bir araya gəlir.

İkinci Qarabağ müharibəsi dövründə diaspor fəaliyyətinin inkişafının yeni mərhələyə keçidi açıq şəkildə nümayiş olundu. Bu proses Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında ictimai gücə çevrildi. Diaspor təşkilatları və fərdi fəallar Ermənistanın uzun illər davam edən işğal siyasəti, beynəlxalq hüququn pozulması və münaqişənin real mahiyyəti barədə məlumatları müxtəlif platformalarda yayaraq beynəlxalq ictimaiyyəti məlumatlandırdılar. Müxtəlif ölkələrin parlamentlərinə, hökumət strukturlarına və beynəlxalq təşkilatlara ünvanlanan müraciətlər, bəyanatlar və informasiya kampaniyaları diasporun sistemli fəaliyyətinin göstəricisi oldu.

15 ölkədə 30-a yaxın "Azərbaycan Evi"nin yaradılması diaspor fəaliyyətində mühüm mərhələ hesab olunur. Bu mərkəzlərdə Azərbaycanın tarixi, mədəniyyəti təbliğ olunur, kitab təqdimatları, mədəniyyət günləri, sərgilər və gənclər üçün maarifləndirici layihələr həyata keçirilir.

İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan yeni reallıqlar qurultayın məzmununa da təsir göstərdi. Artıq əsas mövzu ölkəmizin yeni mərhələdə beynəlxalq mövqeyi idi. 2022-ci il aprelin 22-23-də Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı da xüsusi məna daşıdı.

**Zəfər Qurultayında geniş nitq söyləyən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev demişdir:** "Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir".

Şuşa Qurultayı Qarabağ tarixi Zəfərimizi ümummilli qürur mənbəyi səviyyəsinə yüksəltdi. Uzun illər işğal altında qalan şəhərdə dünyanın müxtəlif ölkələrindən gəlmiş azərbaycanlıların bir arada olması dərin məna daşıdı. Şuşa illərlə dağıntıların, vandalizmin və tənəzzülün simvoluna çevrilmişdi. Şəhərdə bir zamanlar yaşayan əhalinin böyük hissəsi məcburi köçkün düşmüş, infrastruktur tamamilə məhv edilmişdi. Tarixi abidələrə, məscidlərə və mədəni irs nümunələrinə ciddi ziyan vurulmuşdu.

İşğal dövründə şəhərdə, təxminən, 1800 nəfər yaşamış, onların da böyük bir hissəsi hərbçi olmuşdur. Ən dəhşətli faktlardan biri isə şəhərin mədəni və tarixi yaddaşının məhv edilməsi, bulaqların qurudulması, memarlıq abidələrinin dağıdılması, dini və mədəni məkanların təhqir olunması idi. Qarabağımızın baş tacı illər boyu kədərlə ümidin birləşdiyi məkan olub.

Prezident İlham Əliyevin çıxışında Şuşanın mədəni ruhunun özünə qaytarılması xüsusi vurğulanırdı. "Xarıbülbül" festivalının və Vaqif Poeziya Günlərinin yenidən bu şəhərdə keçirilməsi Qarabağın mirvarisinin özünə qayıdışı idi. 2021-ci ildə Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi şəhərin tarixində yeni bir səhifə açdı. "Xarıbülbül" Musiqi Festivalı və Vaqif Poeziya Günləri isə bu dönüşün ən parlaq zirvəsi oldu. Səhnələr yenidən quruldu, musiqi sədaları yüksəldi, Cıdır düzündə min bir büsat quruldu.

Bu gün Şuşada tarixi binalar yenilənir, yollar salınır. Zəriflik nişanəsi, kökündə dözüm, rəngində şəhid qanının alovu parlayan Xarıbülbül həm də dönüşün, dirçəlişin, qayıdışın rəmzidir. Vaqif Poeziya Günləri isə sözün, musiqinin, şeirin yenidən öz evinə dönməsidir. Bütün bunların dünyaya çatdırılmasında diaspor təşkilatlarının və xarici ölkələrdə yaşayan həmyerlilərimizin rolu böyükdür. Onlar milli kimliklərini qoruyaraq yaşadıqları ölkələrin ictimai həyatında fəal iştirak edirlər.

Məqsədyönlü siyasətin nəticəsi olaraq diaspor təşkilatları daha sistemli və koordinasiyalı fəaliyyət göstərir. Müxtəlif ölkələrdəki icmalar arasında əlaqələrin güclənməsi, ortaq layihələrin həyata keçirilməsi və informasiya mübadiləsinin genişlənməsi bu prosesin əsas göstəricilərindəndir. Bu gün diaspor təşkilatları Azərbaycanın beynəlxalq mövqeyini dəstəkləyən ictimai-siyasi resurs kimi çıxış edir. Onların fəaliyyəti informasiya mühitində ölkəmizin mövqeyinin daha aydın təqdim olunmasına mühüm töhfə verir.

Dünyada dəyişən geosiyasi reallıqlar diaspor fəaliyyətini daha da aktuallaşdırır. Azərbaycan bu prosesə çevik şəkildə uyğunlaşaraq məqsədyönlü və sistemli diaspor siyasəti formalaşdırıb. Xaricdə böyüyən azərbaycanlı uşaqlar üçün milli kimliyin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində yaşadıqları ölkələrdə mühüm layihələr həyata keçirilir. Bunlardan ən önəmlisi "Qarabağ" həftəsonu Azərbaycan məktəbləridir.

Bu məktəblər Vətənə açılan bir pəncərədir. Ottava, Nant, Bern, Varşava, Stokholm və London kimi şəhərlərdə fəaliyyət göstərən "Qarabağ məktəbləri" minlərlə kilometr uzaqda olsa da, milli ruhu daşıyan təhsil ocaqlarıdır. Burada uşaqlar doğma ana dilini öyrənir, milli ədəbiyyatla tanış olur, tarix dərsləri vasitəsilə öz köklərinə doğru bir yolçuluğa çıxırlar. Ən vacib addımlardan biri də 6–10 yaşlı uşaqlar üçün hazırlanmış "Azərbaycan dili" dərsliyinin nəşridir.

Bu kimi layihələr nəticəsində diaspor təşkilatları gündən-günə daha da fəallaşır, beynəlxalq aləmdə Azərbaycanın gur səsinə çevrilir.

***Ləman TƏHMƏZ***
***XQ***

# Rəqəmsal irs strategiyamız beynəlxalq dəyər alıb

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti beynəlxalq səviyyədə mühüm uğura imza atıb.**

Qurum "Beynəlxalq Biznes Jurnalı"nın təşkil etdiyi müsabiqədə "Mədəni irs üzrə ən yaxşı data innovasiyası" nominasiyasında qalib elan olunub.

Xatırladaq ki, mükafat mədəni irsin qorunması və idarə olunması sahəsində innovativ yanaşmalara, xüsusilə müasir texnologiyaların tət-




biqi və məlumat bazalarının effektiv idarə edilməsinə görə təqdim olunur. Dövlət Xidmətinin həyata keçirdiyi layihələrdə mədəni irs obyektlərinin rəqəmsallaşdırılması, məlumatların sistemli şəkildə toplanması və idarə olunmasını beynəlxalq ekspertlər yüksək qiymətləndiriblər. Eyni zamanda, Azərbaycanın zəngin mədəni irsinin qorunması, bərpası və təbliği istiqamətində görülən işlər, bu sahədə tətbiq edilən innovativ data həlləri də xüsusi qeyd olunub.

Bu nailiyyət həm ölkəmizin mədəni irs sahəsindəki beynəlxalq nüfuzunun möhkəmlənməsinə, həm də rəqəmsallaşma istiqamətində həyata keçirilən fəaliyyətin qlobal səviyyədə tanınmasına verilən qiymətdir.

***XQ***

*23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür*

# "Söz olmasa, dünyada nəyə lazım düşüncə"

**Böyük Nizami Gəncəvinin 9 əsr əvvəl söylədiyi bu müdrik kəlam söz yaradıcılığına verilən ali tərif kimi bugünədək dərin məna və yüksək dəyərini qoruyub saxlayır. Qələm sahibi həsrətlə yoğrulan arzuları, inamla bəslənən ümidləri, dəyişməyən gerçəkləri sözün sehri ilə aşkara çıxaran, həyat hekayəsinə çevirən könül sərrafıdır. O, xəyallar aləminin hüdudsuz üfüqlərində pərvaz edərkən belə ayağını həqiqətin torpağından üzməyən, ömrünün cövhərini bu yolda əridən fədaidir. Sözü namus bilmək qələm əhlinin fitrətində var. Çünki onlar dərk edirlər ki, kəlam bir dəfə qəlbdən qopub dilə gəldisə, o xalqın mülkünə çevrilir.**

İdeya isə azadlığa təşnədir. Yalnız sərbəst düşüncə mühitində tam formalaşır. Lakin özgə qələmlərlə yağmalanmaq və əsl mahiyyətindən qoparılmaq təhlükəsi ilə daim sınağa çəkilir. Məhz buna görə də müəlliflik hüququ sənətkarın alın tərinin, yuxusuz gecələrinin qalxanıdır. İnsanın beyin məhsulu onun həqiqi, bəlkə də bu dünyadakı yeganə mülkiyyətidir. Bu mülkiyyəti, sadəcə, mənfəət uğrunda yox, izzət və ləyaqət naminə qorumaq mütləqdir. Sənətkarın haqqı tapdanan, sözün sahibi unudulan yerdə həqiqətin yerini ruhsuz, saxta sətirlər tutur.

Yaddaş bəzən vəfasızlıq edir. O, zamanın qarşısında aciz qalır, ən parlaq duyğuları belə solğun xatirələrə çevirir. Fikir isə qum dənəsi kimidir, əgər bir yerə həkk etməsən, sərt küləklərin badına gedib sovrular. Buna görə də kitablar unudulmaqdan qorxan, zamanın pəncəsindən qurtulub əbədiyyətə sığınmaq istəyən ruhların sığınacağıdır.

23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür. Bu günün hikməti ondadır ki, tale həmin gün söz mülkünün 3 sultanını əbədiyyətə qovuşdurub, onların vəfatını kitabın əbədiyaşar rəmzinə çevirib. Onlardan biri olum və ölüm savaşının mərkəzində dayanan Hamletin yaradıcısı Vilyam Şekspir idi. O, daxili aləmin ən çətin mübarizəsini oxucularına miras qoyub. İllər keçsə də, hər birimiz səssizcə bu sualı saf-çürük edirik. "Olum, ya ölüm?" deyərək dəqiqliklə tərəddüdün, cəsarətlə qorxunun sərhədində özümüzə yol tapırıq.

Digəri İspaniyanın ən məşhur yazıçılarından biri Migel de Servantesdir. O, Don Kixot obrazı ilə insanın xəyal gücünün dərinliyini göstərirdi. Don Kixot dünyanı olduğu kimi deyil, olmasını arzuladığı kimi görürdü. Bu isə bəzən gülünc, bəzən isə sarsılmaz iradə təsiri bağışlayırdı. Dəyirmanları nəhəng divlərə çevirən baxış insanın daxilində sönməyən ideal işığının metaforası idi. Yazıçı demək istəyirdi ki, reallıq dəyişməsə də, ona baxış bəzən dəyişə bilər.

Sonuncusu unudulmağa məhkum edilən mədəniyyəti sözlə dirçəldən İnka Qarsilaso de la Veqa idi. İnka



imperiyası XVI əsrdə ispanların Cənubi Amerikaya gəlişi ilə dağıdılmışdı. Bu haqda məlumat tapmaq çox çətin idi. Qarsilaso de la Veqa ömrünün son illərində "Orjinal şərhlər" kitabını yazaraq həm öz keçmişinin, həm də yaşadığı dövrün tərcümanı kimi iz qoymuşdu.

Onlar öz dövrlərinin şahidi, mədəni yaddaşın qoruyucuları idilər. Bu tarixi gündə biz də zamanın nəbzini tutan, cəmiyyətin daxili təlatümlərini sətirlərə köçürən tanınmış qələm sahibi ilə həmsöhbət olduq. Çünki keçmişin böyük irsini bu günün həqiqətləri ilə birləşdirən mənəvi körpülər məhz ustad sənətkarların yaradıcılığıdır.

**Xalq yazıçısı, "Şöhrət" ordenli nasir Natiq Rəsulzadə bildirdi ki, yaradıcılıq ən ali dəyərdir, çünki o, faniliyə qarşı sipərdir:**

– Yaradıcılıq mənim həyat tərzimdir. Yazdığım, yaratdığım anlarda həqiqətən yaşadığımı hiss edirəm. Bu, hiss yaradıcı şəxsiyyətlərə tanışdır. Xüsusilə yazıçılarda və sənətkarlarda böyük bir əsəri tamamladıqdan sonra qəribə boşluq yaranır. Aylarla, bəlkə də bir il üzərində titrədiyin iş bitəndə yaranan fasilə məni çox incidir. Hətta deyərdim ki, yazmadığım günlərdə xəstələnirəm. Yaradıcılıqdan uzaq qaldığım hər saatın, hər günün hədər getdiyini düşünürəm. Ömür səhifələrini, həftələri, ayları mütləq yeni əsərlərlə, mənəviyyatdan süzülən sətirlərlə doldurmaq lazımdır.



Bəzən məişət qayğıları və digər məsuliyyətlər bizi yaradıcılıqdan ayırır, çünki biz də bu cəmiyyətin üzvüyük. Lakin bütün bunlara baxmayaraq, beynimdə həmişə eyni sual olur: "Niyə mən bu gün işləmirəm?" Çünki yazıçı yalnız ağ vərəqlərlə başbaşa qaldıqda yaşama səbəbini dərk edir.

Müasir dövrdə demək olar ki, heç kim qələmlə yazmır, hər kəs kompüterə müraciət edir. Lakin Fransuaza Saqanın çox gözəl bir ifadəsi var; o deyirdi ki, əsl yazıçı qələmini mürəkkəbə deyil, öz ürəyinə batırır və sətirləri ürəyinin qanı ilə yazır. Bu fikir məni həmişə dərindən düşündürüb. Həqiqətən də əgər bir əsərin uzunömürlü olmasını istəyirsənsə, gərək ora ruhunu, qəlbini, bütün varlığını qoyasan. Mən "dahi" kimi böyük ifadələrdən qaçıram. Nizamilərin, Füzulilərin ucalığı qarşısında özünü dahi adlandırmaq çətindir. Amma zamana tab gətirəcək irs qoymaq üçün səmimiyyət, daxili yanğı mütləqdir.

Hər zaman çalışıram ki, yeni kitablarımın təqdimat mərasimi oxucularla canlı görüş xarakteri daşısın. Çünki mənim üçün ən vacib amil oxucunun fikrini, duyğularını və hətta iradlarını öyrənməkdir. Kimin nəyi bəyənib-bəyənmədiyini bilmək yaradıcı insan üçün böyük stimuldur. Əlbəttə, bu o demək deyil ki, bir yazıçı kimi mən oxucunun sifarişi və ya göstərişi ilə əsər yazıram. Lakin yazdığının əks-sədasını duymaq zəruridir.

Bəzi yazıçılar var ki, yalnız iş otağına qapanıb yazır və oxucunun münasibəti ilə qətiyyən maraqlanmırlar. Onlar "mən işimi gördüm, kitabımı yazdım, oxuyub-oxumamaq oxucunun işidir" düşüncəsi ilə yaşayırlar. Mən bu yanaşmanı qəbul etmirəm. Yazıçı bilməlidir ki, onun sözü hədəfə çatırmı?

Unutmaq olmaz ki, kitab bitir, son nöqtəni qoyub onu bağlayırsan, amma yaratdığın obraz səni tərk etmir. Onu xatırlamağa davam edirsən: "Görəsən, bundan sonra nə edəcək? Həyatı necə davam edəcək? Necə danışacaq, hansı addımı atacaq?". Bu suallar yaradıcılığın ən maraqlı tərəfidir. Çünki sən o obrazda özünəxas nəsə tapmaq istəyirsən.

Diqqət yetirin, klassik əsərlər nəyin sayəsində əsrlərlə yaşayır, uzunömürlü olur? Çünki o səhifələrdə Hacı Qara var, Karamazov qardaşları var. Onlar gündəlik həyatımızda rastlaşdığımız insanlardır. Oxuduqca heyran qalırsan ki, yazıçı bu personajı necə bu qədər canlı edib? Elə bil səhifələrin arasından sənə baxır, səninlə birbaşa ünsiyyət qurur. Lakin obrazın oxucu ilə bu qədər səmimi və maneəsiz təması hər zaman mümkün olmurdu. Uzun illər boyu bu canlılığın qarşısında keçilməz sədd – senzura dayanmışdı.

Ulu öndər Heydər Əliyev Azərbaycanda senzuranı ləğv edəndə rahat nəfəs aldıq. Şəxsən mən o sistemdən çox əziyyət çəkmişəm. Hekayələrimi, əsərlərimi çapa vermirdilər, kitablarımın nəşrinə qadağa qoyurdular. Senzura ləğv olunanda, sanki, bir zəncir qırıldı. Maraqlıdır ki, həmin vaxt bəzi yazıçılar, hətta yaşlı nəslin nümayəndələri bir anlıq özlərini itirdilər. Çünki illərlə "mətnaltı" yazmağa, ağıllı oxucu üçün simvollarla danışmağa öyrəşmişdik. Yazıçı da, oxucu da bu gizli dilin ustasına çevrilmişdi. Birdən-birə bu sədlər yıxıldı və yeni dövr başladı.

Məni tez-tez komitəyə çağırıb deyirdilər ki, "bunu düz yazmamısan". Bir dəfə gənc idim, dözməyib dedim: "Mən yazıçıyam, nəyi necə yazacağımı özüm bilirəm". Mənə cavab verirdilər ki, "yazıçı olmağına yazıçısan, amma bu yazdıqların çap olunmayacaq". Sovet dövründə senzuranın qılıncı hər iki tərəfdən kəsirdi və buna qarşı çıxmaq qeyri-mümkün idi.

İndi senzura yoxdur, amma bu o demək deyil ki, hər kəs istədiyini, ağlına gələni etməlidir. Xüsusilə sosial şəbəkələrdəki vəziyyət qərəzlidir. Bəzən düşünürəm ki, dövlət senzurası olmasa da, etik və mənəvi mexanizm olmalıdır ki, savadsızlığın qarşısını ala bilsin. Baxıram ki, həm Azərbaycan, həm də rus dilində elə cümlələr qururlar ki, müəllifin nə demək istədiyini anlamaq olmur. Çünki azadlıq həm də yüksək mədəniyyət və savad tələb edir.

Müasir dünyada müəllif hüquqlarının qorunması sənətkara və onun əməyinə qoyulan hörmətdir. Müəllif öz hüquqlarının qorunduğunu və əməyinin dəyərləndirildiyini görəndə yeni əsərlər yaratmaq üçün özündə daha çox güc tapır.

Azərbaycanda müəllif hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən qurum – Əqli Mülkiyyət Agentliyinin işi həqiqətən təqdirəlayiqdir. Mən özüm də müəllif hüquqlarımın pozulması ilə bağlı bir neçə dəfə onlarla əməkdaşlıq etmək məcburiyyətində qalmışam. Təxminən 30 il əvvəl, internet saytları fəaliyyətə başlayanda mənə xəbər verdilər ki, "pirat" saytlar mənim 40-a yaxın əsərimi müəllifdən xəbərsiz istifadə edirlər. Agentliyin müdaxiləsi nəticəsində həmin saytlardan əsərlərim dərhal çıxarıldı. Hətta mən onlara məhkəmə ilə xəbərdarlıq da etdim, çünki müəllifin aylarla, illərlə çəkdiyi zəhmətin müqabilində bəhrəsini görməsi, qonorar alması onun hüququdur.

**Natiq müəllim onu da vurğuladı ki, əgər istedad intuisiya ilə vəhdətdə deyilsə, o hədər gedir, lakin bu daxili duyumu heç bir müəllim öz tələbəsinə öyrədə və ya ötürə bilməz:**

– Otuz ildən çox Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs demişəm. Bu illər ərzində çox sayda tələbə ilə işləmişəm. Şübhəsiz ki, yaşlı nəsil, təcrübəli və peşəkar qələm sahibləri gənclərə istiqamət verməli, yol göstərməlidirlər. Lakin yol göstərmək o demək deyil ki, gənc yazıçı mütləq sənin izinlə getməlidir. Yaradıcılıq fərdi prosesdir. Əgər bir gəncin doğrudan da istedadı varsa, onu sərbəst buraxmaq lazımdır. Bizim vəzifəmiz ona düzgün istiqamət verib deməkdir: "Bax, yol budur, amma sən bu yolda öz cığırını, imzanı tapmalısan".

İncəsənətin bütün sahələri – istər bəstəkarlıq, rəssamlıq, istərsə də kino çox incə və həssas məqamlar üzərində qurulub. Çünki əsl yaradıcılığın təməlində intuisiya dayanır. Ən əsası isə odur ki, intuisiyanı kiməsə öyrətmək və ya köçürmək mümkün deyil.

Mən bu gün də gənclərlə işləyirəm. Onların arasında istedadlı gənclərin olması məni hədsiz sevindirir. Bu, Azərbaycan ədəbiyyatının gələcəyinin parlaq olduğundan xəbər verir.

Yaradıcılıq insanın həqiqət axtarışıdır. Bu səfərdə ən ağır yük səmimiyyət, ən böyük mükafat isə oxucunun ürəyinə tuşlanan işıqdır. Sənətkarın ən böyük uğuru kitab qapandıqdan sonra hökm sürən səssizliyə məna verməkdir. Yazıçı o nöqtədə artıq susur, lakin ürəyinin qanı ilə yazdığı sətirlər, yaratdığı obrazlar oxucunun düşüncələrində həmsöhbətə çevrilərək danışmağa başlayır. Bu, əslində, ən səmimi görüş yeridir.

***Hazırladı:***
***Fidan ƏLİYEVA***
***XQ***

*Təqdimat*

# Akademik Kamal Abdullanın “Dədə Qorqud”da gizli məna axtarışı






**Dünən Milli Kitabxanada Xalq yazıçısı, Əməkdar elm xadimi, akademik Kamal Abdullanın yeni nəşr olunan “Gizli “Dədə Qorqud” yeni mənalar axtarışında” kitabının təqdimat mərasimi keçirilib.**

Məclisi giriş sözü ilə açan kitabxananın direktoru, professor Kərim Tahirov Azərbaycan qorqudşünaslığının dərin və gizli qatlarının öyrənilməsinə önəmli töhfələr vermiş akademik Kamal Abdullanın yeni kitabında ulu kitabımızla bağlı son araşdırmalarının yer aldığını söyləyib. O bildirib ki, oxucuların müzakirəsinə verilən bu fundamental tədqiqat əsərini Azərbaycan Yazıçılar Birliyi respublika Dövlət mükafatına təqdim edib.

Xalq şairi Sabir Rüstəmxanlı akademik Kamal Abdullanın çağdaş dövrün görkəmli alim və yazıçısı olduğunu vurğulayaraq onun yeni kitabını milli qorqudşünaslığı zənginləşdirən daha bir qiymətli əsər olduğunu bildirib. O qeyd edib ki, akademikin dünya mifologiyası ilə müqayisəli şəkildə dərin elmi və poetik ruhlu araşdırmasının Dövlət mükafatı alması həm də Dədə Qorqud adına, Dədə kitabımıza veriləcək qiymət olardı.

Xalq yazıçısı, Dövlət mükafatı laureatı Elmira Axundova Kamal Abdullanın qorqudşünaslığa növbəti töhfəsini böyük qazax şairi və araşdırmaçısı Oljas Süleymenovun “Az-Ya” əsəri ilə müqayisə edərək qiymətli türkoloji tədqiqat kimi Dövlət mükafatına tam layiq olduğunu bildirib.

Yazıçı-publisist, Milli Məclisin deputatı Aqil Abbas Kamal Abdullanın Azərbaycanda Dədə Qorqud araşdırmalarına yeni miqyas və aktuallaq gətirmiş dərin zəkalı alim olduğunu nəzərə çatdırıb, təqdim edilən yeni kitabın qorqudşünaslıqda növbəti ciddi yenilik kimi səciyyələndirib.

Akademik Muxtar Kazımoğlu Kamal Abdullanın Dədə Qorqud mövzusu ilə gənc yaşlarından məşğul olduğunu xatırladaraq, uzun illər boyu ərsəyə gətirdiyi “Kitabi-Dədə Qorqud” dastanının poetikasına giriş”, “Azərbaycançılıq və “Kitabi-Dədə Qorqud” dastanı”, “Kitabi-Dədə Qorqud”da semantik sayrışmalar. Mifolinqvistika” kitabları, “Beyrəyin taleyi” dramı və digər əsərlərindən söhbət açıb. O dostunun həm də Azərbaycan ədəbiyyatında postmodernizmin banisi hesab edildiyini, ən müasir və ən arxaik mədəniyyət sirlərinə baş vuran yazıçı olduğunu da yada salıb.

Xalq şairi Vahid Əziz Kamal Abdullanın elmi yaradıcılığında Dədə Qorqud mövzusunun qiymətli bir silsilə yaratdığından söz açıb, bu fundamental araşdırmaların mövzuya yeni yanaşmalara meydan açdığını söyləyib.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Vasif Qurbanzadə Kamal Abdullanın Dədə Qorqud araşdırmalarının ana dilimizin qədim qatlarında gizlənmiş mənaların açılmasında önəmli rol oynadığını qeyd edib.

Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu nadir və ensiklopedik düşüncəli alim və populyar yazıçı olan Kamal Abdullanın “Gizli “Dədə Qorqud” yeni mənalar axtarışında” kitabının elmi və bədii dəyər daşıdığını deyib.

Mərasimdə digər çıxış edənlər də Kamal Abdullanın yeni kitabının Dövlət mükafatına layiq olduğunu əsaslandırıblar.

***Tahir AYDINOĞLU***
***XQ***

# İmişli Rayon Prokurorluğunda “açıq qapı” günü

**Aprelin 22-də İmişli Rayon Prokurorluğunda “açıq qapı” günü təşkil olunub. Qeyri-hökumət təşkilatları təmsilçilərinin, ictimai fəalların və media nümayəndələrinin iştirak etdikləri aksiyanın əsas məqsədi vətəndaşları prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanış etmək, hüquqi maarifləndirmə işini genişləndirmək və şəffaflıq prinsiplərinə necə əməl edildiyini ictimaiyyətə çatdırmaqdan ibarət olub.**



İştirakçılarla görüşdə İmişli rayon prokuroru Valeh Səmədov belə təmasların hüquqi biliklərin artırılması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. O, prokurorluq orqanlarının fəaliyyətində vətəndaş hüquq və azadlıqlarının qorunmasının, şəffaflığın təmin olunmasının və ictimaiyyətlə açıq dialoqun üstünlük təşkil etdiyini vurğulayıb. Prokuror rəhbərlik etdiyi orqanın səlahiyyətləri, fəaliyyət mexanizmləri və gündəlik iş istiqamətləri barədə ətraflı məlumat verib, sualları cavablandırıb.

Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov ölkə üzrə prokurorluq orqanlarının strukturu, funksiyaları və son illərdə həyata keçirilən islahatlar barədə məlumat verib. O, aparılan yeniləşmənin hədəfinin vətəndaş məmnunluğunun artırılması, şəffaflığın təmin olunması və hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi olduğunu diqqətə çatdırıb. K.Zeynalov prokurorluq orqanlarının media və ictimaiyyətlə əlaqələri ilə bağlı görülən işlərdən və bu sahədə nəzərdə tutulan gələcək planlardan da bəhs edib.

İmişli Rayon Prokurorluğunun əməkdaşları da fəaliyyət sahələri barədə məlumat veriblər, təcrübələrindən söz açıblar. İştirakçıların hüquqi prosedurlar və prokurorluğun iş prinsipləri ilə bağlı sualları ətraflı cavablandırılıb.

“Açıq qapı” günü “Elektron prokurorluq” informasiya sistemi, eləcə də prokurorluq orqanlarının istifadəsində olan müasir kriminalistik avadanlıqlarla yaxından tanışlıqla davam edib. İştirakçılar istintaq və araşdırma proseslərində tətbiqi barədə ətraflı məlumat əldə ediblər.

Sonda prokurorluğun inzibati binası ilə tanışlıq turu təşkil olunub.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Türk dünyasında uşaq ədəbiyyatı

**Şimali Kipr Türk Cümhuriyyətində keçirilən “Türk Dünyası Uşaq Ədəbiyyatı Seminarı”nda Azərbaycan heyəti də iştirak edib.**

KKTC-nin Turizm, Mədəniyyət, Gənclik, Ətraf Mühit və Milli Təhsil nazirlikləri, Türk Dil Qurumun və Atatürk Müəllimlər Akademiyasının birgə təşkil etdiyi müzakirənin məqsədi Türk dünyasında uşaq ədəbiyyatının mövcud vəziyyətini qiymətləndirmək, keyfiyyətli ədəbi nümunələrin yaranmasını təşviq etmək, ortaq ədəbi düşüncə formalaşdırmaq və bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir.

Açılış mərasimində AMEA Ədəbiyyat İnstitutu uşaq ədəbiyyatı şöbəsinin müdiri Elnarə Akimova, Türk Dil Qurumunun sədri Osman Mert, Atatürk Müəllimlər Akademiyasının rəhbəri Güner Konedralı, AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı Aygün Bağırlı, Kiprin Mədəniyyət İdarəsinin müdiri Şirin Zaferyıldızı Zaimağaoğlu, Təlim və Tərbiyə İdarəsinin müdiri Murad Aktuğ çıxış ediblər.

İki gün davam edən seminarın birinci sessiyasında Türk Dil Qurumunun uşaq ədəbiyyatı sahəsində strateji baxışına nəzər salınıb,



ikinci iclasda isə dünya üzrə uşaq ədəbiyyatının mövcud vəziyyəti müzakirə edilib.

Elmi məclisdə Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şimali Makedoniya və Kosovodan da alimlər, yazıçılar və nəşriyyat nümayəndələri iştirak ediblər.

***XQ***

*Beynəlxalq həyat*

**Nisbi atəşkəs fonunda diplomatik manevrlər, hərbi siqnallar və strateji təzyiqlər paralel şəkildə davam edir. ABŞ və İran arasında danışıqlar ehtimalı yenidən gündəmə gəlsə də, Hörmüz boğazı ətrafında artan insidentlər, dəniz blokadası ilə bağlı ziddiyyətli bəyanatlar və regiondakı hərbiyə hazırlıq prosesi gərginliyin səngimədiyini göstərir. Xarici mediada yayılan xəbərlərdən göründüyü kimi, Yaxın Şərqdə hazırkı mərhələ daha çox nəzarət olunan qeyri-müəyyənlik dövrünə keçid edir.**

# Yaxın Şərqdə savaş təhlükəsi sovuşmayıb



**“BBC”:** Ağ Ev Birləşmiş Ştatların Vitse-prezidenti Ceyms Devid Vensin Pakistana planlaşdırılan səfərinin ləğv edildiyini təsdiqləyib. Onun İranla danışıqlar prosesində yenidən ABŞ nümayəndə heyətinə rəhbərlik edəcəyi nəzərdə tutulurdu. Rəsmi açıqlamada “Prezident Trampın “Truth Social” sosial şəbəkəsində Birləşmiş Ştatların İrandan vahid təklif almağı gözlədiyini təsdiqlədiyi paylaşımını nəzərə alaraq Pakistana bugünkü səfər baş tutmayacaq” - bildirilib. O da qeyd olunub ki, Ağ Ev gələcək görüşlər barədə rəsmi məlumat verəcək. Daha əvvəl Tramp İranla atəşkəs rejiminin uzadıldığını bildirib.

**“Tasnim”:** İran parlamentinin sədri Məhəmmədbaqer Qalibafın məsləhətçilərinin fikirləri mütləq şəkildə onun mövqeyini əks etdirmir. Bu barədə “Tasnim” agentliyinə səlahiyyətli parlamentari bildirib. Nəşrin mənbəyinin sözlərinə görə, Qalibafın spiker kimi mədəni, iqtisadi, sosial, siyasi və digər sahələrdə məsləhətçiləri var və o, mütəmadi olaraq onlara müraciət edir. Eyni zamanda, mənbə aydınlıq gətirib ki, adıçəkilən məsləhətçilərin bəyanatları yalnız onların öz nöqteyi-nəzərlərini ifadə edir.

**“Bloomberg”:** Donald Tramp bildirib ki, dəniz blokadası ləğv edilərsə, İranla razılaşma qeyri-mümkün olacaq. Bu barədə ABŞ lideri “Truth Social“ sosial şəbəkəsində yazıb. O qeyd edib ki, İran Hörmüz boğazını bağlamaqda maraqlı deyil, çünki gəmilərin su arteriyasından keçməsindən gündəlik 500 milyon dollar gəlir əldə edir: “Onların boğazı bağlı saxlamaq istədiklərinə dair bəyanatları yalnız ona görədir ki, mən onu tamamilə bloklamışam və indi onlar sadəcə “simalarını qorumağa” çalışırlar. Lakin biz bu addıma atsaq, İranla razılaşma heç vaxt baş tutmaya bilər”.

**“Mehr”:** Tehran Birləşmiş Ştatların Hörmüz boğazının blokdasını aradan qaldıracağı təqdirdə danışıqlara hazırdır. Bunu ölkənin BMT yanında daimi nümayəndəsi Əmir Səid İrəvani bəyan edib: “ABŞ danışıqların yeni raundu başlamazdan əvvəl atəşkəs rejimini pozmağa son qoymalıdır. Yalnız bundan sonra İslamabadda növbəti raund keçiriləcək”. İrəvani onu da vurğulayıb ki, İran hadisələrin istənilən ssenari üzrə inkişafına hazırdır.

**“The Times of Israel”:** Çin Yaxın Şərqdəki vəziyyəti “kritik” olaraq qiymətləndirir. Bu barədə Çin Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Qo Tszyakun brifinqdə bildirib: “Regionda vəziyyət kritik olaraq qalır, müharibə sülhlə əvəz olunur. Birinci məqsəd - hərbi əməliyyatların yenidən başlamasına yol verməmək üçün mümkün olan hər şeyi etməkdir”.

**“IRNA”:** İranın kənd təsərrüfatı naziri Qolamreza Nuri bildirib ki, ABŞ-ın hərbi-dəniz blokadası ölkənin mal və ərzaqla təchizatına, demək olar ki, təsir göstərməyib. Onun sözlərinə görə, bu, daxili istehsalın yüksək səviyyəsi və alternativ idxal marşrutları ilə bağlıdır: “ABŞ-ın blokadasına baxmayaraq, əhalinin əsas mallar və ərzaq məhsulları ilə təminatında problem yoxdur, çünki ölkənin coğrafi xüsusiyyətləri sayəsində müxtəlif sərhədlər vasitəsilə idxal mümkündür”. Nuri əlavə edib ki, kənd təsərrüfatı məhsullarının və ilkin tələbat mallarının təxminən 85 faizi ölkə daxilində istehsal olunur.

**“AXIOS”:** ABŞ Prezidenti Donald Tramp Tehranın qarşıdan gələn danışıqlarda öz şərtlərini formalaşdıra bilməsi üçün ona 3-5 günlük atəşkəs təqdim etməyə hazır olduğunu bildirib.

**“UKMTO”:** Böyük Britaniyanın Dəniz Ticarət Əməliyyatları Mərkəzi (UKMTO) Hörmüz boğazından keçən gəmiyə İran tərəfindən növbəti hücum edildiyini bildirib. Hadisə İran sahillərindən 8 dəniz mili (14,8 km) qərbdə baş verib: “Yük gəmisinin kapitanı bildirib ki, təyinat limanına doğru hərəkət edərkən onun üzərinə atəş açılıb və hazırda gəmi lövbər salıb. Ekipaj təhlükəsiz vəziyyətdədir. Gəmidə zədələnmə barədə məlumat yoxdur”.

**“Reuters”:** ABŞ Səudiyyə Ərəbistanındakı əsas aviabazada İran pilotsuz uçuş aparatları (PUA) ilə mübarizə üçün Ukrayna texnologiyalarından istifadə etməyə başlayıb. Qeyd olunub ki, söhbət “Prince Sultan” bazasında yerləşdirilmiş “Sky Map” idarəetmə sistemindən gedir. Agentlik qeyd edir ki, Ukrayna hərbçiləri amerikalı həmkarlarına sistemlə işləməyi öyrətmək üçün bazaya gəliblər. O, İranın “Shahed”ləri də daxil olmaqla, düşmənin PUA-larını aşkar etmək və dronların köməyi ilə cavab tədbirlərini əlaqələndirmək üçün istifadə olunur.

**“Tehran Times”:** İranın Hərbi Dəniz Qüvvələri (HDQ) Hörmüz boğazı ərazisində iki gəmini saxlayıb. Gəmilər icazə olmadan hərəkət edərək təhlükə yaradıb. Saxlanıldıqdan sonra onlar İran sahillərinə yönləndiriliblər. Hadisə Böyük Britaniyanın Dəniz Ticarət Əməliyyatları İdarəsinin (UKMTO) Hörmüz boğazı ərazisində SEPAH qüvvələri tərəfindən gəmilərin atəşə tutulması insidenti fonunda baş verib.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

**“Salyan–Aqrotexservis” ASC səhmdarlarının nəzərinə!**

10 iyun 2026-cı il saat 12.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci il üçün cəmiyyətin illik maliyyə hesabatlarının müzakirəsi və təsdiq edilməsi.
**2.** Digər məsələlər.
**Telefon:** (070) 660-77-46.
**Ünvan:** Salyan şəhəri, 20 Yanvar küçəsi 116.

***Direktor***

**“Şəki Kimyəvi Təmizləmə” ASC səhmdarlarının nəzərinə!**

10 iyun 2026-cı il saat 11.00-da “Şəki Kimyəvi Təmizləmə” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2025-ci ilin yekunlarının müzakirəsi və təsdiqi.
**2.** Digər məsələlər.
Səhmdarların ümumi yığıncaqda şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.
**Əlaqə telefonu:** (055-077) 762-03-60.
**Ünvan:** Şəki şəhəri, Oğuz şosesi 4.

***“Şəki Kimyəvi Təmizləmə” ASC-nin baş direktoru***

**“Tovuz Məişət” ASC səhmdarlarının nəzərinə!**

8 iyun 2026-cı il saat 11.00-da “Tovuz Məişət” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.
**İclasın gündəliyi:**
**1.** Cəmiyyətin 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekununa aid icra orqanının hesabatı.
**2.** Cəmiyyətə məxsus və müxtəlif fiziki şəxslər tərəfindən uzun illər əvvəl zəbt olunmuş obyektlərlə bağlı məsələnin müzakirəsi.
**3.** Digər məsələlər.
**Əlaqə telefonu:** (070) 851-46-85.
**İclasın keçiriləcəyi ünvan:** Tovuz şəhəri, İ.Mürşüdov küçəsi 1.

***Müdiriyyət***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 69 (31038) 23 aprel 2026-cı il, cümə axşamı

## İDMAN

# Gənclər və idman əməkdaşlığı



**Azərbaycan və Türkiyə Gənclər və İdman nazirlikləri arasında mütəxəssis mübadiləsi çərçivəsində Türkiyə nümayəndə heyəti Azərbaycanda səfərdədir.**

Gənclər və idman naziri Fərid Qayıbov nümayəndə heyəti ilə görüşüb. Nazirlikdən verilən məlumata görə, görüş zamanı iki ölkə arasında gənclər və idman sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə nümayəndə heyətinin üzvləri səfərin ilk günləri ilə bağlı təəssüratlarını bölüşüblər.

Qeyd edək ki, qonaqlar Heydər Əliyev adına İdman-Konsert Kompleksi, Azərbaycan Gimnastika Federasiyası, Milli İdman Tibb və Reabilitasiya İnstitutu, Bakı Atletika Mərkəzi və Azərbaycan İdman Akademiyası ilə tanış olublar. Səfərin növbəti günlərində isə digər idman obyektləri və qurumlarla tanışlıqlarının davam etdirilməsi nəzərdə tutulur.

# Azərbaycan Kubokunda 2-ci finalçı – “Sabah”



**Dünən futbol üzrə Azərbaycan Kubokunda 2-ci yarımfinal oyunu keçirilib. “Sabah” “Bank Respublika Arena”da “Qarabağ”ı qəbul edib.**

Matçın baş hakimi Rəvan Həmzəzadənin idarə etdiyi qarşılaşma “Sabah”ın qələbəsi ilə başa çatıb – 2:1.

Tərəflər arasında baş tutan ilk görüşdə heç-heçə qeydə alınıb – 2:2.

Beləliklə, “Sabah” finalda “Zirə” ilə üz-üzə gələcək.

Xatırladaq ki, “Zirə” futbolçuları aprelin 21-də yarımfinalın cavab oyununda “Turan Tovuz”la qolsuz heç-heçə edib. İlk dueldə “qartallar” üstün olub – 2:0.

Qeyd edək ki, Azərbaycan Kubokunun final oyunu mayın 13-də “Palms Sports Arena”da keçiriləcək.

# Həsrət Cəfərov 4 qat Avropa çempionu oldu




**Albaniyanın paytaxtı Tiranada güləş üzrə Avropa çempionatı davam edir. Üçüncü yarış günündə Azərbaycanın yunan-Roma güləşçisi Həsrət Cəfərov turnirin qalibi olub.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, 67 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı finalda türkiyəli Murat Fırata qalib gələrək qızıl medala sahib çıxıb.

Həsrət Cəfərov karyerasında ardıcıl 4-cü dəfə Avropa çempionu olub.

Dünən, həmçinin qadın güləşi üzrə mübarizəyə start verilib və millinin 2 üzvü xalçaya çıxıb.

Elnurə Məmmədova (50 kq) ilk mərhələdə polşalı Aqata Qoluşovskaya “tuş”la məğlub olub.

Günay Qurbanova (59 kq) debüt etdiyi qitə birinciliyinə 1/4 finaldan qoşulub və almaniyalı Elena Brügger üzərində inamlı qələbə qazanıb – 7:0. Həmyerlimiz yarımfinalda ukraynalı dünya 2-cisi Mariya Vinnikə uduzub. Günay bu gün bürünc medal uğrunda belaruslu Marta Hetmanava ilə güləşəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Mundial – 2027*

# Millimiz Braziliya zirvəsinə inamla irəliləyir

**Azərbaycanın qadınlardan ibarət milli futbol komandası final turniri gələn ilin iyun–iyul aylarında Braziliya stadionlarında keçiriləcək dünya çempionatının seçmə mərhələsində inamlı çıxışları ilə pərəstişkarlarını sevindirməkdə davam edir. “C” Liqasının 3-cü qrupunda mübarizə aparan yığmamız ötən şənbə günü Masazırdakı “Bank Respublika Arena” stadionunda Bosniya və herseqovinalı hakimlər briqadasının idarə etdiyi oyunda Andorra kollektivinə iki cavabsız qolla qalib gələrək (2:0 ) turnir cədvəlinin ikinci pilləsində mövqeyini bir qədər də möhkəmləndirmiş və mundiala vəsiqə qazanmaq imkanlarını qoruyub saxlamışdır.**



Macarıstan yığması isə son iki turda Şimali Makedoniya komandası üzərində böyük hesabla iki qələbə qazanmışdır – səfərdə 5:0, evdə 7:0. Hazırda qrupun vahid lideri də bu ölkədir. Dörd görüşün üçündən qalib ayrılıb, birində heç-heçə ilə kifayətlənən macarlar 10 xalla turnir cədvəlinə başçılıq edirlər. Millimizin 9, Şimali Makedoniyanın 3, Andorranın isə 1 xalı var.

Komandamızın baş məşqçisi Siyasət Əsgərov və yetirmələri Andorra üzərində hər iki oyunda qələbə qazanmağı qarşıya məqsəd qoymuşdular və kollektiv istəyinə inamla nail olmuşdur. Qrupda yayda keçiriləcək son iki turda da komanda uğurlarını daha da inkişaf etdirib, finişə cədvəlin zirvəsində çatmaq əzmindədir. Bunun üçün iyunun birinci ongünlüyündə müvafiq surətdə “doğma divarlar” arasında Macarıstana və səfərdə Şimali Makedoniyaya qarşı keçiriləcək görüşlərdə də fədakar oyun, əsl qələbə əzmi göstərmək tələb olunacaq. Xüsusən də iyunun 5-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda təşkil olunacaq Azərbaycan – Macarıstan qarşılaşması qrupda 1-ci yer uğrunda mübarizədə həlledici əhəmiyyət kəsb edəcək. Bunu yaxşı başa düşən komandanın liderləri Sevinc Cəfərzadə, Nigar Mirzəliyeva və onların oyundaşlarının yay sınaqlarına necə səylə hazırlaşacaqlarını təsəvvür etmək çətin deyil. Axı, qarşıda mundialda Azərbaycanı təmsil etmək perspektivləri var.

Ölkəmizin futbol ictimaiyyəti çempionatın seçmə mərhələsində “B” Liqasının 2-ci qrupunda çıxış edən Türkiyə komandasının da çıxışlarını maraqla izləyir. Qardaş ölkə futbolçularının ilkin mərhələdə rəqibləri İsveçrə, Şimali İrlandiya və Malta komandalarıdır. Türkiyə millisi 4 turdan sonra 7 xalla qrupun turnir cədvəlində ikinci pillədədir. Lider isə 10 xala malik İsveçrədir. Üçüncü mövqedə olan Şimali İrlandiyanın 6 xalı var. Maltalılar bütün dörd oyunda uduzmuşlar. Burada da qrupun qalibi yayda məlum olacaq. Hər iki komandamızın növbəti oyunlarını ümidlə gözləyək.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# “Kəpəz”də “qərarvermə böhranı”

**“Kəpəz” PFK-in doğma azarkeşləri ilə yenidən qovuşacağı günlərə lap az qaldı. Gəncəli futbolçuların, nəhayət, öz doğma stadionunda oynayacağı, illərdir komandanın həsrətini çəkən Gəncə futbol ictimaiyyəti üçün, sadəcə, idman hadisəsi deyil, həm də böyük mənəvi hadisədir. Lakin bu sevincin fonunda bir sual getdikcə daha çox səslənir: görəsən, komanda azarkeşlərini sevindirə biləcəkmi?**




Təəssüf ki, mövcud vəziyyət nikbinlik üçün ciddi əsaslar vermir. Problemin kökündə isə təkcə meydandakı nəticələr deyil, daha dərinə gedən idarəetmə böhranı dayanır. Formal olaraq klubun rəhbərliyi mövcuddur, lakin faktiki vəziyyət onu göstərir ki, qərarların verilməsində vahid mövqe yoxdur. Əksinə, klub daxilində müxtəlif maraq qruplarının formalaşdığı, bu dairələrin isə şəxsi ambisiyalarını ümumi məqsədlərdən üstün tutduğu açıq şəkildə hiss olunur. Təbii ki, bu cür mühitdə sağlam idarəetmədən, uzunmüddətli strategiyadan danışmaq çətindir.

Belə qeyri-sabit şərait isə, ilk növbədə, komandanın oyununa təsir edir. Hətta istedadı və peşəkarlığı ilə seçilən məşqçilər belə bu proseslərin girovuna çevrilir. Məsələn, Azər Bağırov kimi perspektivli mütəxəssisin də bu qarışıqlıq fonunda effektiv işləməsinin mümkünsüz hala gəlməsi artıq ciddi siqnaldır. Nəticədə, komanda sanki göz önündə tədricən gücünü itirir, oyun sistemi pozulur, nəticələr zəifləyir.

Məsələ burasındadır ki, futbol təkcə meydanda oynanılan oyundan ibarət deyil. Klub daxilində sağlam mühit, aydın idarəetmə, peşəkar yanaşma olmadıqda, heç bir komanda uğur qazana bilməz. Maddi maraqların, vəzifə uğrunda mübarizənin, əsassız müdaxilələrin, dedi-qoduların və qruplaşmaların hökm sürdüyü yerdə idman prinsipləri arxa plana keçir. Belə vəziyyətdə isə qələbələr təsadüfi olur, məğlubiyyətlər isə qaçılmaz.

“Kəpəz” isə sıradan bir klub deyil. Bu komanda Gəncənin simvollarından biridir desək, yanılmarıq. Minlərlə insan onun uğurları ilə sevinir, uğursuzluqları ilə kədərlənir. Yəni bu komanda təkcə futbol kollektivi deyil, bütöv bir şəhərin qürur mənbəyidir. Məhz buna görə də klub ətrafında baş verənlərə biganə qalmaq nə azarkeşlərə, nə də ümumiyyətlə, ictimaiyyətə yaraşır.

Ən narahatedici məqam isə budur ki, bu problemlər yeni deyil, illərdir davam edir və hələ də köklü həllini tapmayıb. Halbuki digər klubların təcrübəsi göstərir ki, düzgün idarəetmə və şəffaf struktur qurulduğu halda, uğur qazanmaq mümkündür. “Kəpəz”də isə əksinə, sistemsizlik dərinləşir və bu, klubun gələcəyini sual altına qoyur.

Əgər yaxın zamanda vəziyyətə ciddi və prinsipial şəkildə müdaxilə olunmasa, bu gedişatın sonu yaxşı görünmür. Özü də bu müdaxilə yalnız formal dəyişikliklərlə deyil, real islahatlarla müşayiət olunmalıdır: idarəetmədə şəffaflıq, məsuliyyət bölgüsü, peşəkar kadr seçimi və klubun strateji inkişaf planı hazırlanmalıdır. Əks halda, tarixə, ənənəyə və böyük azarkeş sevgisinə malik bir klubun tədricən zəifləməsi qaçılmaz olacaq.

*Azarkeşlərin də fikirləri maraqlıdır:*

**Əli Fərəcov:** klubun rəhbərliyinə, komandanın məşqçilər heyətinə, ilk növbədə, çoxminli azarkeşlərə üzümü tuturam: Futbolumuza, “Kəpəz”in şanlı tarixinə, şöhrətinə laqeyd yanaşmayaq. Hazırkı durumu nəzərə alaraq komandamızın baş məşqçisi Azər Bağırovun yanında olmaq və dəstəkləmək son dərəcə vacibdir. Bizim ümidimiz yalnız onadır. Əgər biz yekdilliklə onu dəstəkləsək, sizi əmin edirəm ki, o da öz növbəsində, təmkinlə, peşəkarlıqla, əzmlə üzərinə düşən missiyanı sonadək vicdanla davam etdirəcəkdir.

**Bəhruz Baratzadə:** Mən 65 ildən artıqdır “Kəpəz”in azarkeşiyəm. Bu illər ərzində kluba müxtəlif adamların rəhbərlik etdiyini bilirəm və kimin necə bu işdə özünü göstərməsindən xəbərdaram. Bu klubda kənar heç bir təşkilata, quruma, maddi və mənəvi dayağa ehtiyac olmamışdır. İndi nə olub? Son bir neçə ildə komanda ətrafında xoşagəlməz hadisələrin tüğyan etməsi hamını narahat edir. Bu biabırçı anarxiyaya son qoyan bir kimsə tapılacaqmı?

Qeyd edək ki, yaranmış vəziyyət təkcə bu iki azarkeşi narahat etmir. Onların sayı minlərlədir.

Bəli, bizim də qənaətimiz budur ki, “Kəpəz” yalnız meydanda deyil, həm də idarəetmə səviyyəsində mübarizə aparır. Bu mübarizənin nəticəsi isə təkcə bir komandanın deyil, bütövlükdə Gəncə futbolunun gələcəyini müəyyən edəcək.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

# Beynəlxalq festivalda ilk orta metrajlı filmimiz

**Fransanın Briv şəhərində keçirilən 23-cü Beynəlxalq Orta Metrajlı Filmlər Festivalında Azərbaycan ilk dəfə təmsil olunub. Rejissor Emin Əfəndiyevin “Tənha insanın monoloqu” filmi müsabiqə proqramına daxil edilib.**

Festivala təqdim olunan 2 mindən çox film arasından cəmi 25-i müsabiqədə baxılmaq hüququ qazanıb. “Tənha insanın monoloqu” da onların sırasındadır.

Rejissor Emin Əfəndiyev bu filmində müharibənin insanın daxili dünyasında yaratdığı təlatümü ekranlaşdırmağa çalışıb. O, savaşların ailədaxili münasibətlərə də mənfi təsirini göstərmək üçün incə məqamlara üz tutub.

Filmin nümayişindən sonra festivalın baş meneceri Culio Kassadininin moderatorluğu ilə keçirilən müzakirələrdə rejissor tamaşaçıların və kino mütəxəssislərinin suallarını cavablandırıb. O bildirib ki, məqsədi müharibənin ailələrə gətirdiyi bədbəxtlikləri ekrana gətirmək olub.

Müxtəlif mövzuları əhatə edən suallar filmin böyük maraq doğurduğundan xəbər verib. Kino mütəxəssisləri aprelin 25-dək nümayiş etdiriləcək filmlərdən qalib gələnləri mükafatlandıracaqlar.

***XQ***



## HAVA

# Paytaxtda tutqun hava, rayonlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var.**



Səhər ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Cənub-qərb küləyi səhər şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 9-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət isə 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşama doğru bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12, gündüz 20-25, dağlarda gecə 1-6, gündüz 13-18 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

*✓ 1999-cu il iyunun 17-də Qərb Universiteti tərəfindən Muradxanov Zaur Rəşidoviçin adına verilmiş ali təhsil haqqında A seriyalı, 050736 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3129
SİFARİŞ 514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00